MƏSUDƏ CABBAR




# Aciz qalan Uduzlar

*Sevgi romanı*

ALATORAN YAYINLARI

Məsudə Jabbar

# Aciz qalan ulduzlar

Telegram | @kitbooks

Bu kitabı **Ekitabxana** app-ın istifadəçiləri üçün paylaşdığına görə **Məsudə Cabbara** minnətdarlığımızı bildiririk.

Otaqda dünən gecədən bəri açıq qalan radio xışıltısı var.Pəncərələr açıq, çöldən gələn küləyin sərxoşluğu ilə rəqs edir pərdələr.Səhərin bu vaxtlarında axşamdan qalma sərin meh olur,adətən.Üşünüdüyünü hiss edib gözü yumulu vəziyyətdə , əli ilə üstünə örtməyə bir şey axtarır.Heçnə tapa bilmir və hirsli baxışlarla birtəhər gözünü açır.Əsnəyərək əlləri ilə dağınıq saçlarını arxaya sığallayır və üzünü, gözlərini ovuşdurmağa başlayır.Yatağının aşağısındaki paltarlarını götürüb birtəhər geyinir və pəncərənin qarşısında dayanır.Dərindən bir nəfəs..Necə gözəl gündür..Kaş elə bu vaxt donsa zaman. Bundan sonra nələrsə yaşanmasa, ya da yaşananlar xatırlanmasa..Otağının qapısını açıb dəhlizdə

yeriməyə başlayır..
”Ana?” sualı cavabsız qalır.Hə,evdə balaca qardaşdan başqa heç kəs yoxdur,yenə bütün işlər ona qalıb.Günə 6-0 geridə başlamağa bərabər idi bu. Çaydanı su ilə doldurub qazın altını yandırır.Və masada əyləşib gözləməyə başlayır.O, heç vaxt səhər yeməyi yemir,ümumiyyətlə səhərlər edilən heçnəyi sevmir;yuxudan oyanmaq,dişləri fırçalamaq,saçları darayıb səliqəyə salmaq,üstəlik evi səhmana salıb bu da yetməzmiş kimi saatlarla müəllimlərin “elektrikli mişar” effekti verən səslərinə qulaq asmaq.Amma nə etmək olar ki,bütün bunlar onun həyatının bir parçasıdır və hər nə qədər bezdirici olsa da gözəl yanları da var .Bir əlində oyana bilməsi üçün tək çıxış yolu kimi gördüyü acı qəhvəsi,bir əlində evin açarları,ayağında ipləri hələ də bağlanmamış idman ayaqqabıları və önü düymələnməmiş pencək..Əgər tale sizinlə bir zarafat etməyi düşünsə idi,əmin olun ki, sizi onunla qonşu edərdi.Çünki hər gün görəcəyiniz bu mənzərə sizi ən depressiv anınızda belə güldürməyi bacarardı.. Zahiri görünüşcə arıq,sevimli,gülüşü gözəl,qıvırcıq saçlı bu gənc qız sizə bütün dərdlərinizi unutduracaq qədər qeyri-adi, sehrli gözəlliyə sahib idi.Tanış olun,onun adı Fərəhdir..Nəhayət bir təhər evdən çıxmağı bacardı. Ağız gözünü büzə-büzə bir iki qurtum alıb qəhvə fincanını yolun ortasına qoydu.Əyilib tələsik ayaqqabısının iplərini bağladı. Qulağının arxasından çıxmış saç tellərini səliqəyə salıb dərindən nəfəs aldı. Arxayınlaşıb yola düzəlməsinə az qalmışdı ki, universitetə getdiyi avtobusun küçənin başından ana yola tərəfə buruldduğunu gördü. Içini çəkib qaçmağa başladı. Tərslikdən ayağı qəhvə fincanına ilişdi,həmin an xatırladı ki,fincanı evdə qoymaq daha ağıllı fikir idi,indi isə evə qayıtmaq mümkünsüzdür.Tarazlığını son anda düzəltməyi bacarıb yıxılmaqdan xilas oldu. Gah istədi geri qayıdıb iki-üç addım geridə qalan fincanını götürsün, gah da avtobusun səsinin uzaqlaşdığını görüb həyəcana qapıldı.Yox,bu fürsəti qaçırmaq olmazdı. Var qüvvəsini toplayıb “eey,saxlayın!” deyə qışqıraraq qaçmağa başladı.Bəxti gətirmişdi ki,avtobus sürücüsü istisnasız olaraq hər gün gecikən bu qızı artıq tanıyırdı.Güzgüdən onu görüb sürətini azaldaraq dayandı. Fərəh bir təhər özünü avtobusa çatdıraraq boş oturacaqlardan birində əyləşdi.Sürücü üzündəki gülümsəmə ilə onun salamını aldıqdan sonra yola düşdü.

Universitetin qarşısında yenə hər tipdə insan görünürdü. Köynəyinin bir tərəfi şalvarının içində,bir tərəfi çölündə olan oğlanlar,əlində güzgü, makiyajını təzələyən qızlar (Fərəh heç cürə başa düşmürdü ki,həmin qızlar saat neçədən oyanır ki,hər gün saçlarını düzləşdirib,makiyajlarını tamamlaya bilirlər. Növbəti

sualı da o idi ki,bəs niyə özü bütün bunları bacarmır?) , öz uşaqlarına,ailəsinə səhər yeməyi hazırladığı üçün işə gecikən müəllimələr,özlərini tamam fərqli qalaktikada zənn edən,əl-ələ gəzən sevgililər və.s.

Universitet həyatında müəyyən qruplar vardır, rahatlıqla istədiklərini edə bilən “ərköyünlər”,mehriban dostlar,kasıb uşaqlar və tək dolaşıb bir təhər başını “hərləyənlər”.

Fərəh sonuncu qrupa daha yaxın idi. Xüsusilə də keçən il atasını itirdiyindən bu yana. Heç kəslə ünsiyyət qura bilmir,gəzintilərə,şənliklərə qoşulmurdu. Güvən hissi tamam yox olmuşdu. Ona elə gəlirdi ki,bir il əvvələ qədər o, gözə görünməyən qanadların altında hər pislikdən qorunurdu.İndi bu boşluq elə bir hissə sürükləyirdi ki,sanki hər kəsdən istənilən vaxt pislik və ya zərər görəcək. Dərsdən geridə qalan bütün vaxtını hələ də,həyat yoldaşının ölüm xəbərinin altında əzilməyə davam edən anasına və özündən yaşca kiçik qardaşına ayırır,tək işləyib iki uşağını dolandıran anasının fikrini çəkirdi..Fərəh atası öldükdən sonra onun ziyarətinə getməmişdi,gedə bilməmişdi.Atasının dəfn olunduğu məzarlıq oxuduğu universitetə çox yaxın olsa da,ona elə gəlirdi ki,bu ziyarət atasının artıq olmadığı gerçəyinə təslim olmaq deməkdir.Fərəhin atası görünüşcə hündür,enlikürək,əzəmətli,qaş-qabaqlı biri idi. Məhlə uşaqları həyətdə top oynadığı zaman Tahir dayının gəldiyini görən kimi,oyunu saxlayıb o gedənə qədər səslərini çıxarmırdılar. Sözündə duran,hər kəsin hörmətini qazanmış bu kişinin ölümü də elə özünə yaraşan tərzdə olmuşdu..Ölüm onu birdən birə yaxalayıb əziyyət vermədən uzaqlara aparmışdı. Elə yatdığı yerdəcə..Fərəh nə qədər darıxsa da çox gözəl başa düşürdü ki,o buz kimi torpaq bu həsrətə son qoymayacaq,dərdini təzələməkdən başqa heç bir işə yaramayacaq.Amma içindən bir səs sanki hər gecə ona pıçıldayırdı ki,atası orda,həmin soyuq torpağın altında bir yerdə hər gün onu gözləyir..Dünyasını dəyişməmişdən bir neçə ay öncə söz vermişdi ki, həmin il Fərəhin doğum gününə o çox sevdiyi bala iti alıb,bir təhər anasını razı salacaq ki,evdə onu saxlaya bilsinlər..

Tənəffüs zənginin səsi gözləri bir nöqtəyə zillənmiş Fərəhi diksindirdi..Tam sinifdən çıxarkən gözü lövhədə yazılan tarixə sataşdı.Birdən gözləri bərəldi və olduğu yerdə donub qaldı.Bu gün atasının doğum günü idi və həyatında ilk dəfə idi ki,bu gün onsuz keçəcəkdi.Bilmədi nə etsin..Qəhər boğazında dünüylənib qaldı.Dizləri addım ata bilməyəcək qədər taqətdən düşdü. Əlini üzərinə qoyduğu partanın böyrünə sıxılıb bir təhər əyləşdi.Nə etməli idi indi? Nə edəcəkdi? Boğazını ovub udqunaraq  lənətə gəlmiş qəhərini dəf etməyə çalışdı.Gözlərini

sıxıb tamam qaranlıq olana qədər qolunun üzərində bərkitdi..Sakit-sakit nəfəs alıb özünə gəlməyə çalışırdı..

- Fərəh..Fərəh?..Fərəh!

Başını qaldırıb sağa-sola baxaraq gözünün bulantısının keçməsini gözlədi və qapıda dayanıb onun üzünə zilləmiş Zeynəbi gördü:

- Hə..nə olub?
- Sən yaxşısan?
- Hə..Hə,narahat olma..
- Getmək vaxtıdır,dərs bitib axı..Gəl birlikdə gedək..
- Yox,narahat olma,başqa yerə getməliyəm..Sən get,sonra görüşərik.
- Əminsən?
- Hə,hə..Narahat olma..
- Yaxşı,necə istəyirsən..hələlik.
- Hələlik..

Ayağa qalxdı.çantasını yenidən çiyninə taxıb sinifdən çıxdı.Gül mağazasının qarşısında bir xeyli dayanıb fikirləşdikdən sonra  içəri daxil oldu.

- Bir dəstə yasəmən gülü,zəhmət olmasa.. (bu,atasının ən sevdiyi gül idi)
- Buyurun
- Təşəkkürlər

Dayanacağa gəlib gözləməyə başladı.Bəlkə bu səhv qərar idi?Yola tərəf baxıb üzünə yapışan tellərini təmizlədi..Avtobus pəncərəsindən uzaqlara baxıb,baxıb başını yellədi..Sanki olanlara heç cürə inana bilmirmiş kimi..

Qəbirstanlığın dəmir darvazasını qorxa-qorxa itələdi..Özünü yad birinin evinə gizlicə girirmiş kimi hiss edirdi.Nəzarətçini görüb qeyri-ixtiyari başını tərpədərək salam verdi.Bu ürkək qız çətin ki,oturacağında oturub mürgüləyən qocaya maraqlı idi.. Fərəh məzarların arasıyla gəzərək baş daşılarına diqqətlə baxırdı.Bu,samanlıqda iynə axtarmaq kimi bir şey idi..Payızın ılıq günlərindən birində insanın bu cür üşüməsi,titrəməsi normal idimi? Fərəh hər yeri dolandıqdan sonra atasının adını görə bilmədiyinin fərqinə varıb geri dönmək istədi.Bəlkə də,bu ziyarət ən başından bəri yanlış fikir idi..Tam geri dönmək üzərə ikən,qoca çinar ağacının arxasında Zamanov soyadını görüb dayandı. Başını bir az əyib adı da oxumağa çalışdı,lakin,ağacın gövdəsi imkan vermədi. Dəqiqləşdirmək üçün arxa tərəfdən dolanıb qəbrin tam önündə dayandı.Bəli düz tapmışdı..1966-2013..necə qəribədir..Bütün bir həyat bu iki rəqəm arasındaki incə xəttə sığışdırılmışdı..Əlindəki gül dəstəsini elə sıxmışdı ki,tamam incəlib

suyu çıxmışdı.Dodaqları titrəyir,əllərini hiss etmirdi.Qəflətən diz çöküb hönkürməyə başladı..O qədər dərindən hıçqırıb ağlayırdı ki,sanki hər dəfə sinəsinə bıçaq batırırdılar.Axırıncı dəfə atasını son dəfə evdən çıxardıqları zaman bu cür ürəkdən ağlamışdı..Həmin gündən sonra elə hiss edirdi ki,artıq evdəkilər onun məsuliyyəti altındadır..Və ağlamaq onlara özlərini kimsəsiz hiss etdirməkdən başqa bir işə yaramayacaqdı.Əllərini torpağa sürtüb bir ovuc götürdü..ovuclarında sıxıb gözlərini yumdu..Astaca əyilib bütün torpağı qucaqladı..Balaca bir uşağın evə gələn atasının boynuna sarılması kimi..Dərindən nəfəs alıb daha bərk,daha bərk sıxdı..

- Salam ata..

Bir saata yaxın eləcə torpağın üzərinə uzanıb səssiz-səssiz ağlamağa davam etdi..Lakin telefonuna gələn zəng onu bu dinclikdən ayırdı..Üz gözünü silib,burnunu çəkərək boğazını təmizləyib səsini düzəltməyə çalışdı.

- Hə,ana? Gəlirəm,narahat olma,dərs bir az uzandı,xəbər verə bilmədim.Çıxıram artıq..Hə,hə..Hələlik..

Atasının baş daşına baxıb gülümsədi:

- Hər zamanki anam.

Tam ayağa qalxarkən qırağa atdığı gülləri görüb cəld yerdən götürdü..

- Lap yadımdan çıxmışdı,bunlar sənin üçündür..Ən sevdiyindən.

Qəribə idi..bir anlıq dayanıb cavab gözlədi..Yenə gözləri doldu və vidalaşmaq üçün yenidən “atasına” sarıldı..

- Yaxşı..Mən daha gedim.Amma yenə gələcəyəm..

Yola düşmək üzərəykən içində bir rahatlıq hiss edirdi..Elə bil çiyinlərindən böyük bir yük götürülmüşdü..Üst başını çırpıb evə yollanmaq istəyərkən atasının tam yanında yerləşən məzarın üzərindəki məktub formasında, bir az islanıb əzilmiş kağız parçası küləyin köməyi ilə düz ayağının qarşısında dayandı..İstədi götürüb yerinə qoysun amma külək eyni hərəkəti təkrarladı..Fərəh fikirləşdi ki,bəlkə də bu elə belə adi bir kağızdır..təsadüfən məzarın üzərinə düşüb..Bu sualının isə tək cavabı var idi; kağızı açıb baxmaq..Marağına qalib gələ bilməyən Fərəh bir anda özünü kağızdaki yazıları oxuyarkən gördü..Hə,bu bir məktub idi,hansı ki,heç vaxt cavab yazılmayacaqdı..

“ Ana..bilirəm,bütün bunları yazmaq mənasızdır..Bəlkə də hərdən bu kağız parçasındaki dərdlərimi oxuyarkən cavab verə bilmədiyin üçün pis olursan..Amma bilirsən ki,səndən başqa heç kəsim yoxdur..Səninlə söhbət etmək

xoşuma gəlir,tək tərəfli olsa da.. Yoxluğun həm var,həm yox kimidir..böyük bir boşluq var həyatımda..Hansı ki,bir zərrə də olsa qapanmır..O boşluğun adı sənsən..O yoxluğun adı sənsən..Amma bir şey də var ki,ətrafımdaki hər şeydə sən varsan.Evi səliqəyə salanda,o sevdiyin gülləri sulayanda,paltarlarımı ütüləyib yerlərinə yığanda,evin künc bucağındaki əl işlərində,yastığındaki ətirdə..Və digər hər şeydə..Bu varlığın adı sənsən. Bilirsən,dost tanışlarım,məni ev işi ilə məşğul olarkən görəndə gülürlər,yəqin ki, bu normal haldır,yəni mən də onlardan birini evdə qab yuyarkən görsəm gülərdim..Amma heç ağırıma getmir,inanırsan? Elə bil elə belə də olmalıdır..Bilmirəm,bəlkə də səni xatırlatdığındandır..Hə, bu arada, ən son vitrində baxıb bəyəndiyin yun köynəyini ala bildim..Düz məktubun yanına qoyacağam,bura yaman soyuq olur,ümid edirəm,artıq üşüməzsən.Səni sevirəm..Heç nəyi,heç kəsi sevmədiyim qədər.Yenə gələcəyəm..Mütləq..”

Fərəh məzarın üzərinə yenidən baxdı.Məktubda sözü keçən köynək orada deyildi.Yəqin ki,yoldan keçən evsizin biri götürmüşdü,ya da qarovulçu..Fərəh elə təsirlənmişdi ki,evə gecikdiyi tamam yadından çıxmışdı.Bu..Yeni bir dərd ortağı tapmaq kimi idi,tək olmadığını hiss etmək kimi.İkinci telefon zəngindən sonra Fərəh cəld addımlarla qəbirsanlıqdan çıxıb dayanacağa yollandı, ancaq məktubu cibinə qoyduğunun fərqinə varmamışdı..

Həyətə girəndə topla oynayan balaca qardaşı Yusifi  gördü.Yusif evin ən balaca,qorunmaya möhtac fərdi idi. Bacısına düşkün,hər gecə onun nağılları ilə yuxuya gedən bu balaca şəhzadə atası ilə demək olar çox az vaxt keçirmişdi və böyük ehtimal böyüdüyü zaman onu ancaq şəkillərdən xatırlayacaqdı..Fərəh əli ilə qardaşının saçlarını dağıdıb üzündən öpdü.

- Anam hanı?
- İçəridə,səni gözləyir

Evin qapısını açıb  ayaqqabılarını çıxarmağa başladı.

- Harda idin?! Niyə gecikmisən?!
- Dedim axı dər..
- Yalan danışma! Sinif yoldaşlarına zəng etdim dərs filan yox imiş. Harda idin?!
- Ana..
- Fərəh,sənə yüz dəfə demişəm ki,mənə yalan danışma! Nə gizlədirsən,kimi gizlədirsən?

Fərəh kinayəli gülümsədi:

- Kimi?
- Özün başa düşdün nəyi demək istəyirəm.Oğlanla filan görüşürsən?..
- Atamın yanında idim! Hə,onu gizlədirəm!
- Nə?
- Məzarlığa getdim,atamın yanına..

Bir müddət araya səssizlik çökdü.

- Acsan?
- Yox
- Yaxşı,mən mağazaya gedirəm
- Heçnə deməyəcəksən?

Anası Məlahət xala heçnə demədən qapını bağlayıb getdi.Fərəh başa düşürdü ki,bu xəbər anası üçün necə ağırdır.Özünü qınadı ki,gərək daha səbrli olardı və belə qəflətən deməzdi. Başını yelləyə-yelləyə otağına keçib ev paltarlarını geyindi.Əl üzünü yuyub altları şişmiş gözlərini əli ilə sıxdı..Qollarını arxaya uzadaraq uzandı və günün yorğunluğu ilə bir neçə dəqiqə sonra yuxuya getdi.

Axşamçağı  ev telefonunun zəngi onu ayıltdı. Bir təhər özünə gəlməyə çalışıb bayaqdan bəri çağıran və heç kəsin cavab vermədiyi dəstəyi götürmək üçün qonaq otağına yollandı.Zəng edən xalası ilə hal əhval tutub hamam otağında Yusifi çimizdirən anasını telefona  çağırdı. Özü isə mətbəxə keçərək qazanların qapağını qaldırıb bişən yeməklərə baxdı. Anasının aldığı zavod çörəyinin qırağından bir parça kəsib yeyərkən xatırladı ki, bu gün facebookdaki ismarıc qutusuna heç baxmayıb.Otağına gedib bir xeyli axtarış apardıqdan sonra bu gün geyindiyi şalvarın ciblərini yoxlamaq ağlına gəldi.Telefonunu götürərkən əlinə bir kağız parçasının dəydiyini hiss etdi və dərhal nə olduğunu xatırlayaraq içini çəkdi. Məktubu götürüb oyan bu yana getməyə başladı. Özünə aid olmayan bir şeyi götürdüyü üçün,xəcalət,qorxu,həyəcan hisslərini eyni anda hiss edirdi. “Axmaq!axmaq!! Bunu necə etdin! Ağılsız! İndi nə edim mən,indi nə edəcəm?! Birdən oğlan gəlib məktubun olmadığını gördü? Bəlkə indi aparım?! Yox anam icazə verməyəcək..Səhərə qədər necə dözəcəyəm mən? Aman Allah!”. Fərəh səhərə qədər nə yemək yedi, nə də yatdı. Bircə Allaha dua etdi ki,təki bu gün oğlan ora getməsin. Heç kəs bu işdən xəbərdar olmasın. Səhər açılar açılmaz cəld hazırlaşıb evdən çıxdı. Bu dəfə elə tələsik çıxmışdı ki,avtobusu tam vaxtında dayanacaqda tuta bildi. Universitetə çatmamış düşdü və bir az piyada yeridikdən sonra qəbirstanlığa çatdı. Amma tərslikdən qapı bağlı idi. Qarovulçu ya hələ oyanmamış ya da harasa getmişdi. Qapının arasından boylanıb içəri baxmağa çalışan Fərəh çiyninə dəyən əli hiss edib səksəndi.

- Nə olub,qızım,nə axtarırsan?
- Mm..mən..mən şey..ıı.mən atamı görməyə gəlmişdim,yəni,ziyarət..ziyarət üçün..məzarını ziyarət üçün yəni..
- Yaxşı,yaxşı,gözlə,indi qapını açacağam.
- Çox sağolun.

Qapını açmağa çalışarkən qoca danışmağa başladı:

- Dünən də bir oğlan gəlib,gecə vaxtı,hay saldı ki,bəs mənim məktubumu nə etmisiniz,hara yoxa çıxıb.Ay balam,nə məktub,nə kağız,nə danışırsan? dedikcə,deyir yoxe,mənim məktubum hanı?

Fərəhin əlləri əsməyə başladı.

- Sonra aydın oldu ki,sən demə bu,hər gün ölmüş anasına məktub yazırmış,hər gün də dünənki məktubunu götürüb aparırmış evə. Necə olubsa dünən tapa bilməyib. Aləmi qatmışdı biri birinə. Dedi sabah da gəlib mütləq baxacağam. Mən də bir ümidlə çölə bayıra baxıram ki,bəlkə tapa bildim. Yoxsa canım qurtarmayacaq bu dəlidən.Həə,keç qızım,keç.

Fərəh tək kəlimə demədən cəld içəri girdi . Tez atasının məzarı başına gəlib qorxaq uşaq kimi torpağa sarılıb nəfəsini sabitmələyə çalışdı.

- Ata..

Sonra sağa sola boylanıb heç kəsin olmadığından əmin olduqdan sonra məktubu cəld yerinə geri qoyub qırağına bir daş bərkitdi ki,külək onu uçurmasın.Yenə sağa sola boylanaraq həyəcanlı şəkildə oradan uzaqlaşdı.

***

Hər zaman filmlərdə belə bir səhnə olur,aranızda kinomanlar varsa,çox güman ki,həmin səhnəni xatırlayar. Baş rol hər səhər saatın zəngini eşidir,gözü yumulu halda qolunu baş ucundaki masada gəzdirərək saatı tapmağa çalışır və 90% hallarda saat masadan yerə düşür. Və qəhrəman dərhal oyanır. İşin qəribə tərəfi budur ki,hər Allahın günü bu səhnəni gerçək həyatında yaşayan biri var. Onun adı Orxandır.Hansı ki,hər gün yuxunun ən şirin vaxtında oyanıb işə getməli olur. Bu vaxt isə onu nə əzizləyərək oyatmağa çalışan anası,nə də ciddi səsi ilə “oyan a kişi,gecikirsən” deyən atası yox idi.Bu səbəbdən işin ən çətin tərəfi öz üzərinə düşürdü və çoxunuz bilirsiniz ki,bu necə ağır işəncədir. Orxanın 23 yaşı var. 23 yaş ilk baxışdan sizə həyatın ən gözəl çağı kimi görünə bilər,ya da,düşünə bilərsiniz ki,onun etdiyi bu “ərincəklik” ərköyünlükdən başqa bir şey deyil. Amma düşünsəniz ki,siz valideynlərinizi çox erkən yaşda itirirsiniz və təhsilinizi

yarıda qoyub qışın qəddar soyuğunda əlinizi qabardan işlərdə işləməyə məcbur olursunuz,o vaxt hardasa təxmin edə bilirsiniz ki,əslində,istənilən yaş dövrü,bu istər 70 olsun istər 23,istər 19 hətta 7,sizin həyatınızda cəhənnəmə çevrilə bilər.

Saçlarını qarışdırıb,uzanan saqqalını qaşıyaraq yataq otağından bir təhər çıxa bildi. Birdən xatırladı ki,dünən işdən gələndə Kürənin (pişiyinin) axşam yeməyini verməyi unudub. Kürən Orxanın bu həyatda sahib olduğu yeganə varlıq idi. Orxan onu bir pişikdən daha çox,bir dost,yaxın hətta ailədən biri kimi görürdü. Orxan onu iki il əvvəl işlədiyi qatar deposunda qatarlardan birinin altında görmüşdü. Onu tapdığı zaman Kürən hələ çox balaca,gözünün birindən xəsarət almış ,üşüdüyü hər halından bəlli olan köməyə möhtac bir bala idi.Orxan onu bir təhər oradan çıxarıb evə gətirmiş,veterinar yanına aparıb yoxlatmış və hər ay müntəzəm olaraq baxımına vaxt və pul ayırmışdı.Evin içini qarış-qarış gəzib adı ilə səslənərək dostunu axtarmağa başladı. Pişik sanki yoxa çıxmışdı.Son anda Orxanın ağlına bir yerə baxmaq daha gəldi .Mətbəxin küncündəki divanın arxa tərəfində kiçik bir dəlik var idi. Orxan bir neçə dəfə görmüşdü ki,Kürən həmin yerin önündə fırlanır,əlində gələni edir ki,həmin dəliyin içinə girib nələrsə axtarsın. Onun bu dəfəki təxmini düz çıxmışdı. Deyəsən Kürən Orxanın ona tez tez izlətdirməyə çalışdığı Tom və Jerry çizgi filmini çox ciddiyə almışdı. Və inanırdı ki,hər an ordan bir “qida” çıxa bilər, ya da oyun oynamaq üçün bir dost.Orxan Kürəni qucağına alıb öpməyə başladı. “Bağışla,bir də olmaz,tamam yadımdan çıxıb. Dünən çox yorğun idim,yoxsa belə şey etməzdim,özün bilirsən”. Bu səhnəni görsəniz böyük ehtimalla fikirləşərdiniz ki,o,ya dəlidi ya da tamam dəli.Kürənin “könlünü alıb” yeməyini verdikdən sonra digər bir qaba da axşam yeməyini qoydu. Kürən heç vaxt normadan artıq yemirdi və yemək saatlarını hər necə olurdusa dəqiq bilirdi. Orxan tələsik səhər yeməyini yeyib evdən çıxdı. İşə gedərkən işçilər servislə aparılırdı.Bu onların işini çox asanlaşdırırdı. İndi rahat olsa da qış gələndə hava soyuq olduğu üçün dayanacaqda gözləmək və adi avtobusda bir saat yarım ayaq üstə dayanmaq iki qat ağır və yorucu olardı.Depoya hər daxil olan zaman Orxan ,inana bilmirdi ki,bu yaşında əvvəllər xəyalına belə gətirmədiyi işdə işləyir.Soyuq,sərt dəmir parçaları arasında saatlarla çalışmaq asan deyildi..Amma, tibet rahibləri inanır ki,əgər sən bir almazsansa və palçığın içinə düşmüsənsə iki ehtimal var. Ya ağırlığın (burada ağırlıq dedikdə, içindəki pisliklər və bəd fikirlər nəzərdə tutulur) səni palçığın dərinliyinə batırıb yoxa çıxaracaq ya da günəş o palçığı tamam qurudacaq və ardınca yağan yağış üzərindəki palçığı təmizləyib səni yenidən yaşadacaq. Orxan bu cümlədəki

almazın özü idi.Həyat bir bataqlıq idi,amma günəş almazın tərəfini saxlayırdı..Nə olur olsun,qalib tərəf bəlli idi.

- Çay istəyirsən?

Müşfiq evdən gətirdiyi termosu çıxararkən soruşdu.

- Olar

Müşfiq də digər almazlardan biri idi. Hansı ki,Orxanın sağ çıxa bildiyi bataqlıqlardan hələ də qurtulmağa çalışırdı. Orxanla uşaqlıqdan bəri bir böyümüşdü onlar.Düşüncələrindən tutmuş uşaqlıqdan qalan diz yaralarına qədər demək olar hər şeyləri eyni idi. Müşfiq evin tək işçisi idi. Anası,bacısı və illərdir yer xəstəsi olan atası ilə məhlənin ən kiçik evlərindən birində yaşayırdı.Orxandan fərqli idi biraz. Məsəl üçün,onun bəxti elə əvvəldən gətirmirdi. 17 yaşı olanda atası ürək damar xəstəliyinə tutuldu. İflic olduqdan sonra isə işləmək bir yana qalsın heç öz tələbatlarını belə ödəyə bilmirdi..Sərbəst oturmaq,gəzmək,yemək yemək və digər ehtiyaclar..Elə həmin yaşlarından evin məsuliyyəti Müşfiqin çiyinlərinə yüklənmişdi. Hələ Orxanın valideynləri sağ olan vaxt,illər illər öncə,hətta Müşfiqin də qayğısız vaxtlarında, ikisi məhəllə səkilərində oturub söhbət edəndə,Orxan hər dəfə,bir gün hamının tanıyıb hörmət edəcəyi məşhur bir memar olmaq istədiyini deyəndə,Müşfiq gülüb cavab verirdi ki,çox yuxarıdan uçursan,yerə dəyəndə sağ qalma ehtimalın qalmayacaq. Uşaq elə bil o vaxtdan başa düşürdü ki,bu işlər o qədər asan olmur.. Zəmanə,cəmiyyət, hansı kartı göstərəcəyi bəlli olmayan həyat..Hansı film idi o? Deyilirdi ki,birinə salam verdikdən sonra yoxla gör barmağının hamısı yerindədirmi? Bu dünyada insan sayı qədər həyat hekayəsi var..Barmaq izi kimi,hamısı bir birindən fərqlənir. Kimi şanslı doğulur,sıxıntı nədir bilmir,kimi də müharibənin ortasına düşüb,küçədə ölümlə futbol oynayır.

- Nə olub?

- Nə?

- Bikef kimisən

- Heç əşi

- De görək

- Bu gün anamın ölüm günüdür.

Müşfiq əlini Orxanın çiyninə qoyub yanında olduğunu hiss etdirdi.

- Allah rəhmət eləsin

- Amin

- Gedəcəksən?

- İşə gələndə ziyarət etdim.

- Məktub?

Başı ilə təsdiqlədi. Orxan valideynlərini çox erkən itirdiyinə görə onların yoxluğu ilə barışmaq çox çətin gəlirdi. Öncə atasını avtomobil qəzasında,ardınca da anasını yüksək şəkərdən itirmişdi.Anasının ölümündən sonra Orxan heç özünə gələ bilmirdi. Onu itirdiyindən bəri bir gün belə olmamışdı ki,onun qəbrini ziyarət etməsin. Hər gün məzarının üzərindəki gülləri sulayır,sonra da yazdığı məktubu bir daşın altına qoyub işə gedirdi.Bu gün isə onun üçün ikiqat ağır idi.Anasını da itirdiyi zaman bu dünyada ondan geriyə heç kəs qalmamışdı. Orxan evin tək övladı idi. Anası xəstələnən zaman onun bütün işlərini özü görürdü. Yeməyini bişirib əlləri ilə yedizdirirdi ki,təki ayağa qalxıb əvvəlki halına qayıtsın..

İşdən çıxdığı zaman çox düşüncəli idi..Ayaqları sanki geri-geri addım atırdı,evə getmək içindən gəlmirdi. Hara baxsa öz tənhalığını xatırlayıb təəssüf hissi keçirirdi. Hər saniyə keçmiş həyatına olan həsrətini və yaşadığı bədbəxt hadisələri düşünürdü.Başını qaldırıb baxdığı zaman gördü ki,ayaqları fərqində olmadan onu yenə anasına,qəbirsanlığa gətirib çıxarıb. Saat ona işləyirdi və qarovulçunu çağırmaq nə qədər düzgün idi, qərar verə bilmirdi.Amma dözə bilməyib içəri girdi. Qapını açan qarovulçu Hikmət dayıya da dedi ki,gedib dincəlsin,bir xeyli burada olacaq,narahat olmasın. Fikrət dayı daha Orxanı tanıyırdı deyə etiraz etmədi. Orxan anasının məzarının önündə dayanıb dərindən köks ötürərək astaca dedi:

- Hə..yenə mən..

Birdən fərqinə vardı ki,bu gün məzarın üzərinə yazıb qoyduğu məktub yoxdur.Cibindən telefonunu çıxarıb işığı ilə axtarmağa, məzardan bir az aralıda yerləşən ağacların ətrafına,digər məzarların üstlərinə,hər yerə baxdı.Məktub yoxa çıxmışdı. Bu gün çox özəl olduğundan Orxanı həyəcan basdı. Özündən asılı olmayaraq Hikmət dayının qaldığı otağa tərəf qaçıb qapını döydü.

- Hanı məktub,məktubum yoxa çıxıb,kim götürüb,hardadır?!

- Nə,nə məktub,harda,nə vaxt?

- Bu gün gətirmişdim,ağ kağız idi,anama yazdığım məktub. İndi baxıram ki,yoxdur

- Bəlkə külək ap..

- Yox,yox,külək əsmir,həm də üzərinə daş qoymuşdum axı,ola bilməz.Yəni..məncə üzərində daş var idi..

- Oğul,vallah xəbərim yoxdur. Ola bilsin ki, dediyim kimi külək uçurub..ya da it pişik aparıb nə bilim.

- Nə?Necə yəni it pişik?! Niyə bu gün axı,niyə?!

Hikmət dayı bilmədi nə desin.Orxan elə həyəcanla,hirslə danışırdı ki,yazıq kişi donub qalmışdı.

-Səhər tezdən bir də gələcəyəm. Xahiş edirəm,siz də baxın sağa-sola. Tapsanız əgər mütləq götürün,gəlib alacam.

-Yaxşı,baxaram,vallah baxaram.

Orxan kor peşman evinə yollandı.Əhvalı o qədər korlanmışdı ki,evin qapısını da açmağa çətinlik çəkirdi. Ayaqqabılarını çıxarıb hamam otağına keçdi.Əl üzünü yuyub,Kürəni yoxladıqdan sonra,yemək,çay heçnə yeyib içmədən yerində uzandı..Gecənin üçü..dördü..beşi..evdəki iç qaraldıcı səssizliyin içində boğulduqca onun gözlərinə yaşdan başqa heçnə gəlmirdi..Pəncərəyə zilləyib gözləyirdi ki,səhər açılsın və bir an öncə qəbirsanlığa yollanıb məktubdan bir hal bilsin. Səhər durub hər günki işlərini təkrarladıqdan sonra qapını bağlayıb yola düşdü. Dayanacaqda düşüb döngəni dönən zaman qəbirsanlıqdan çıxıb əks istiqamətdə gedən bir qız gördü. Üzünü görə bilməsə də,bir anlıq fikirləşdi ki,səhərin gözü açılmamış bu qorxuducu yerə gələn tək özü deyilmiş..Qorxuducu sözü əslində qəbirsanlığa müəyyən insanlar tərəfindən verilmiş sifətdir..Hansı ki, həmin insanların bu yerdə hələ ki,yaxınları yoxdur..Ailənizdən birini itirdiyiniz zaman həmin məzarlıq sizin gözünüzdə doğma birinin evinə çevrilir..Orxan məzarlığa daxil olub Hikmət dayıdan məktubu tapıb tapmadığını soruşdu..Hikmət dayının sakitcə başını yellədiyini görüb gözlərini aşağı dikdi..Bu gün dünənki qədər emosianal deyildi,fərqində idi ki,dünən çox həssas

olduğu üçün həddən artıq reaksiya vermişdi..Özünü sakitləşdirməyi bacarıb anasının məzarı tərəfə yollandı..Əlini cibinə atıb axşam yazdığı yeni məktubu çıxararaq hər zamanki yerinə qoymaq istəyərkən gözlərinə inanmadı..Məktub yerində idi.Sağa sola diqqətlə baxıb,kiminsə onunla zarafat etdiyini düşündü.Heç kəsin olmadığından əmin olub məktubu əlinə alaraq sağa sola çevirib yoxladı görsün ki,həmin məktubdur ya yox..Dərindən nəfəs alıb dünəndən bəri sinəsinə çökmüş ağırlığı yola saldı.Yeni məktubla yerlərini dəyişdirib yeni tapdığı köhnə məktubu ilə işə yollandı..

***

Fərəh universitetə daxil olarkən hər zamankindən fərqli görünürdü. Məktubu heç kəs görmədən yerinə qoya bildiyindən üzündə rahatlığın verdiyi bir gülümsəmə yaranmışdı. Həmin gün uzun müddət sonra ilk dəfə bütün diqqətini dərsə verməyi bacardı.Dərs çıxışında Zeynəbi universitetin həyətində tuta bildi.Dünən onunla maraqlanıb halını soruşduğu üçün təşəkkür edib evə onunla birlikdə getdi.Dayanacaqda düşüb Zeynəblə ayrılmazdan əvvəl onu birlikdə çay içmək üçün evlərinə dəvət etdi. Zeynəb bu xoş təklifi üçün minnətdarlığını bildirib evə gecikdiyini deyərək ondan ayrıldı.Fərəh evə gəldiyi zaman öncə qardaşını sonra anasını qucaqlayıb öpdü. Qardaşı üçün bu adi hal olsa da anası,uzun müddətdir üzü gülməyən qızının bu hərəkəti qarşısında nə edəcəyini bilmədi.Hər halda bu çox yaxşı bir şey idi,amma səbəb nə idi?

- Xeyirdir inşallah?

- Nə ?

- Nəsini sən deyəcəksən

- Başa düşmürəm,nədən danışırsan?

- Bu gün çox xoşbəxt görünürsən

- Əksini arzulayırdın?

Anasının gözündəki sevincə kölgə düşdü.

- Əlbəttə ki,yox! Bu nə sözdür?

Fərəh dediyi cümlənin artıq olduğunun fərqinə varıb anasını bir daha qucaqlayaraq heçnə olmadığını,sadəcə atasını ziyarət etdiyi üçün özünü daha yaxşı hiss etdiyini bildirdi.Anasının bişirdiyi mərci şorbası ,ki,bu onun ən

sevmədiyi yemək idi,bu gün ona ikiqat ləzzətli gəlirdi.Masanın üzərini silib çörək qırıntılarını ovucuna sıyıraraq ətrafı səliqəyə saldıqdan sonra bir az dərslərilə məşğul olmaq üçün otağına keçdi..Amma hər zamanki kimi,kitabları önündə açmağı ilə şirin yuxunun gəlməsi bir oldu.Və təbii ki,Fərəhin seçimi yuxu idi.Dünən çox yuxusuz qaldığından səhərə kimi fasiləsiz yatdı.Həftələr keçmişdi.Fərəh deyəsən indi həqiqətən özünü daha yaxşı hiss edirdi.Danmaq olmaz ki,bu işdə hər gün atası ilə olan “görüşlərin” rolu böyük idi. Bu gün evdən çox tez çıxmışdı.İstəyirdi atasının məzarının yanlarına,üzərinə güllər əksin.Bunun üçün isə toxum lazım idi.Evdən bir az aralıda gül toxumları,toyuq cücə üçün yem ,arpa,un,bir sözlə nə desən satılan bir yer var idi.Fərəh hər gülün toxumundan bir az alıb məzarlığa tərəf yollandı. Evdən götürdüyü su butulkasını məzarlığın yanındaki su hövzəsindən doldurub düz məzarın yanına gəldi.Kağızlardaki toxumları səliqə ilə götürüb torpağın üzərinə səpdi.Tam üzərindən su atmaq istədiyi zaman “Belə olmaz” səsini eşidib səksəndi. Başını qaldırıb yuxarı baxdığı zaman qarşısında gənc,saçları biraz uzanmış amma səliqə ilə daranmış,qarışıq saqqallı,gülümsəyən bir üz gördü.

-Necə?

- Toxumları deyirəm,torpağın üzərinə elə belə səpsən yaxşı nəticə ala bilməzsən.Çox güman ki,külək onların hamısını başqa yerə sovuracaq.

- Mən..bilmirəm,bəs necə etmək lazımdır ki,güllər bitə bilsin ?

- Kömək edə bilərəm?

- Zəhmət olacaq,siz deyin mən edərəm.

- Zəhmət deyil

Orxan aşağı əyilib Fərəhin əlindəki su butulkasını alaraq qırağa qoydu.Qollarını çirməyib : "Əvvəlcə torpağı qarışdırıb yumşaltmalısan" dedi "yoxsa gül torpaqla qucaqlaşa bilməz".

Torpağı hazır vəziyyətə gətirdikdən sonra əlini uzadıb gül toxumlarından bir az ovucuna tökməsini Fərəhə işarə etdi.

- Deyəsən bu işlərlə çox məşğul olursunuz

- Əslində əvvəllər mən də sənin kimi idim,anam həyətimizə,pəncərə kənarlarına güllər düzərdi.Həmin vaxtlar onlara necə qulluq etdiyini görmüşdüm.

- İndi də həvəsi var?

Orxan gülümsündü.

- Ümid edirəm yerin altında onun üçün bu şərait var

Fərəh çaşqınlıq içində udqundu

- Bağışlayın

- Vəssalam,indi sulaya bilərsən

- Necə?

- Gülləri deyirəm,hazırdılar

Orxan qarşısındaki bu uşaq təbiətli qızın üzündəki çaşqınlığı,məsumluğu,ürkəkliyi gördükcə gülümsəməsinin qarşısını ala bilmirdi.

- Hə,çox sağolun,ıı..

- Orxan,adım Orxandır.Zəhmət deyil.

- Mən də Fərəh. Bir daha təşəkkürlər.

Bir birlərinə baxıb gülümsəyərək gözlərini qaçırdılar.

Orxan əllərini yuyub paltarına sürtərək quruladı.

Məzara yenidən yaxınlaşıb cibindəki məktubu çıxarıb daşın altındaki məktubla dəyişdirdi. Fərəhin gözləri bərəldi.Tez üzünü çevirib aşağı zillədi.Dayana bilməyib yenidən baxdı. Orxana elə gəldi ki,Fərəh,məktubu gördüyü üçün belə qəribə baxışlarla onu süzür.Bu normal idi əslində.Kim ölmüş birinə hər gün məktub yazar ki? Əslində isə söhbət tamam fərqli idi.Bunu isə Fərəhdən başqa heç kəs bilmirdi.

- Anamdır.

Fərəh özünü bir təhər düzəldib rəhmət dilədi.

- Mən əslində hər gün bura gəlirəm,bu məktublarla birlikdə.Amma səni ilk dəfədir burda görürəm.Yəni..Ümumiyyətlə bu məzarın başında kiminsə olduğunu..

- Hə,o mənim atamdır..Gəlmək çətin idi biraz. Yəni..

- Cəsarət tapmaq?

- Hə..

Görəsən ona hər şeyi desə Orxan onu başa düşərdimi,ən əsası inanardımı? Hər şeyin təsadüfən baş verdiyinə? Fikirlər Fərəhin beyninə dolduqca qızın gözləri bir nöqtəyə zillənirdi.Birdən Orxanın ona qəribə şəkildə baxdığının fərqinə vararaq özünü düzəltdi.

- Nə isə..daha mən gedim,dərsə gecikirəm.

- Hə,mən də işə..

- Etdikləriniz üçün minnətdaram,sağolun

- Siz də..

Qəribə səhər idi.Fərəh qulaqcıqlarını çıxarıb fikrini dağıtmaq üçün ən sevdiyi mahnını (Ed Sheeran- I see fire ) qoşdu. Gözlərini yumub dərindən nəfəs alaraq rahatlamağa çalışırdı. Amma əllərinin titrəməsinə məna yükləyə bilmirdi. Düşünürdü ki,bu,bilmədən etdiyi səhvinin ortaya çıxmasından qorxduğu üçün ola bilər. Amma yox,daha artığı var idi.Qorxudan çox..xoş həyəcan kimi.Elə bil nəyinsə təsirinə düşmüşdü..Bu təsirin səbəbi səliqə ilə sıralanmış uzun kirpiklər arasında gizlənən qəhvəyi gözlər ola bilərdimi? Başını yelləyərək gülümsəyib “yox bir” deyə öz özünə pıçıldadı..Amma nə qədər çalışsa da bu gün olanları gözünün qarşısından ata bilmirdi..Fərəhin həyatında bu günə qədər heç kəs olmamışdı.O bilmirdi ki,birini sevmək,aşiq olmaq ya da filmlərdə göstərilən kimi , görüşə gedən zaman həyəcanmaq nə olan şeydir.

Havalar get-gedə sərinləşirdi. Tahir dayının məzarının üstü həftələr sonra rəngbərəng çiçəklərlə örtülmüşdü. Bu qədər vaxt ərzində Fərəh hər gün güllərin toxumlarının necə cücərdiyini,böyüməyə başlayıb çiçək açdığını həvəslə izləmişdi.İlk bir neçə gün Fərəh məzarlığa gedərkən gözləri güllərlə bərabər Orxanı da gözləmişdi.Amma görə bilmədiyi zaman inanmağa başlamışdı ki,bu sadəcə təsadüfi rastlantı idi.Bir də Allah bilir nə vaxt gəlib ziyarət edəcək..Amma yox,axı məktublar hər gün təzələnirdi.Bir ara düşündü ki,bəlkə də Orxanın ondan xoşu gəlməyib. Fərəhin gəldiyi vaxtları da qarovulçu dayıdan öyrənib ki,üzünü görməsin. Hə,bütün bunlar çox mənasız fikirlərdir.Amma bilməlisiniz ki,qızlarda təxəyyül gücü sonsuz olur və bu tərz fikirlər onlar üçün heç də məntiqsiz deyil.Bu gün Fərəh məzarın yanına çatanda təəccübləndi.Bir anlıq ürək döyüntüləri artdı və yanaqlarının qızardığını hiss etdi..Gülləri sulamaq

üçün ağacın qırağından fırlanıb məzarın yan tərəfinə keçdi..

- Səncə onlar orada üşüyür?

Orxan dedi. Fərəh bu dəfə Orxanın üzünə bir az rahat baxa bildi

- Məncə yox..yəni,ümid edirəm,yox..

- Anam soyuğu heç sevməzdi,bilirsən? Hər il qış gələndə qanı qaralardı..Qışın bircə o yanını sevərdi ki,hördüyü qalın jaketləri mənə geyindirə bilsin.

- Mənim anam da sevmir.Hardasa eşidib ki,qar üşüyən xalq üçün romantik yağmır,hər fürsətdə onu deyir.

Orxan gülümsədi.

- Keçən dəfə dedin ki, işə gecikirsən.Yəni..

- Hə

- Uzaqdadır?

- Biraz

- Bəs oxumursan ?

- Yox

Fərəh qısa cavablar qarşısında özünü narahat hiss etdi. Düşündü ki,tanımadığı bir insan tərəfindən sorğu sual edilmək həqiqətən narahatlıq verici idi.

- Oxumaq üçün şərait olmadı. İşləmək lazım idi.

- Başa düşürəm

- Yaşın neçə olur olsun yanında biri yoxdursa sən tək başınasan. Özün öz başını dolandırmalısan. Həyat "hələ ki,oxu, iş məsələsini sonra həll edərik" deyib endirim etmir.

Orxanın yanında əyləşib diqqətlə qulaq asmağa başlayan Fərəh get gedə həyəcanı ilə sağollaşıb bu hissi qəribə bir doğmalıqla əvəz edirdi.

- Yəni,başa düşürsən,mən təkəm.Bu məzarlıqdan başqa gedəcəyim bir yer yoxdur.

- Bunun nə qədər ağır olduğunu anlayıram..Yəni..Özünü tək hiss etməyin.

- Ağırlıq?.. Bilirsən,bu sənə bir az qəribə gələ bilər amma mən hər zaman göy gurultusundan qorxmuşam..

Fərəh əvvəl anlamadı ki,Orxan durduq yerdə bu cümləni niyə işlətdi? Amma heçnə demədən dinləməyə davam etdi..

- Yenə evdə tək olduğum zamanlar idi. Güclü leysan yağırdı. Gecə saatın üçü. İşıqları söndürməyə də çəkinirdim. Baxmayaraq ki,yaşım o yaş deyildi amma hələ də inanırdım ki,hər an şkafdan ya da yatağın altından o qorxunc əl çıxa bilər.Vərdiş etməmişdim hələ yalnızlığa,bəlkə buna görə idi,nə bilim..Bir anlığa pəncərədən gördüm ki,şimşək hər tərəfi necə aydınlatdı. Elə bil günün günorta çağı idi. Və budur.Mən artıq əmin idim ki,bu şimşəyin ardında çox böyük bir səs gizlənir. Qulaqlarımı tutdum, üzüqoyulu vəziyyətdə uzanıb gözlərimi möhkəm sıxdım. Xeyri yox idi,göy hər dəfə daha möhkəm,daha vahiməli guruldayırdı. Gözümün qarşısında illər əvvəl anamla divanda oturduğumuz zamanlar canlandı.Həmin vaxtlar ki,onda anam bir əlində kitab tutub digər əli ilə üzümü,saçlarımı nəvazişlə sığallayırdı. Nə vaxt yağış yağıb şimşək çaxsa,hamı bilirdi ki,məni harada tapmaq olar.Anamın qucağında,onun etibarlı qolları arasında..Qəribə idi,həmin an içimdə bir damcı da olsa qorxu qalmırdı. Bunları düşünmək belə o gün məni az da olsa rahatlatmışdı amma qorxum azalmaq bilmirdi. Başımı yastığın altına salıb bu qorxuducu səsin kəsilməsi üçün dua etməyə başladığım zaman kiçik uşaqdan fərqsiz idim. Dediyin ağırlığı ilk o gün hiss etmişdim.Anasız,atasız,kimsəsiz və qorxu içində olmağın ağırlığını..Amma ən çox anasızlığın ağırlığı idi deyəsən sinəmi ağrıdan..

Fərəh Orxanın gözlərindəki kədərdə özünü gördükcə istəyirdi onun əllərindən tutub bu anı paylaşsın. Amma bu da çox yersiz olardı.

- Nə isə..Çox danışdım deyəsən..

- Yox,yox..İstədiyin qədər danışa bilərsən.

- Çox sağol .Təəssüf ki, işə getməliyəm. Amma evdə bir şey unutmuşam,evə qayıdım sonra işə gedim.

- Hə , mən də bu gün təkcə bura gəlmişdim.Dərsə getməyəcəm.

- Evə gedirsən?

- Hə

Bu bir yalan idi. Fərəh bilmirdi ki,bunu niyə dedi,amma onunla daha çox vaxt keçirmə istəyinə qarşı qoya bilmirdi.

- Gəl dayanacağa qədər birlikdə gedək,əgər etiraz etmirsənsə.

Fərəh gülümsünüb təsdiqlədi. Dayanacağa qədər söhbətləşib birlikdə yeridilər. Avtobus gələndə Fərəh:

- Yaxşı ,mən daha gedim..qismət olsa..

- Dayan,sən də bu avtobusla?

- Hə? Necə yəni mən də ? Sən də bununla ?

Orxan qaşlarını qaldırıb gülümsəyərək başı ilə təsdiqlədi.Fərəhin içində ikiqat sevinc yarandı. Ən sonda məlum oldu ki,onların evi də əslində bir birinə çox yaxındır. Aralarında sadəcə bir neçə məhəllə var. Həmin gündən sonra onlar demək olar hər səhər eyni saatda görüşüb birlikdə məzarlığa gedir,məzarların yan yörəsini təmizləyib ayrılırdılar . Bir müddət sonra içlərindəki yalnızlıq hissi onları yavaş yavaş tərk etməyə başlamışdı.Məzarlıq ziyarətləri 2 gündən,4 gündən,1 həftədən bir gerçəkləşirdi..Normal həyata geri dönmək üçün fərqində olmadan bir birlərinə dayaq olmağa başlamışdılar..İndi Fərəh universitetdə görüb sirlərindən baş açmadığı qızlar kimi saçlarını hər gün düzləşdirməyi,üz gözünə "əl gəzdirməyi" bacarırdı. Fərəh filmləri həddən artıq çox sevirdi. Yay və təhsil ortası bütün tətillərdə günün çox hissəsini film izləməyə ayırırdı. Müasir dildə desək tam bir kinoman. Orxanla hər sözləri çəp gələndə izlədiyi filmlərdən ən yadda qalan cümlələri elə anda deyirdi ki,Orxan cavab tapa bilmirdi. Fərəhdən fərqli olaraq Orxanın iş qrafikası və həyat şərtləri elə gətirirdi ki,o nəinki filmə baxmağa hətta ən sevdiyi kitabları oxumağa belə vaxt tapa biımirdi.İndi siz düşünün; kinoman və film qurdu iki nəfərin söhbəti necə alınar?

***

- Sən əminsən ki,üşümürsən?

- Aha,demişdim axı soyuğu sevirəm

- Amma mən səndən soruşanda demişdin ki,yox

- Yox deməmişdim,demişdim ki,bilmirəm,düşünməmişəm. Sonra düşündüm və

sevdiyimə qərar verdim

- Mmm.Yaxşı..

Fərəh gözucu Orxanın əynindəki qalın jaketə baxıb içindən özünü danlayırdı ki,kaş anasının təkidlərini dinləyib qalın nəsə geyinərdi. Forsun yeridir heç?!

- Sən isti sevirsən deyəsən

- Niyə belə düşünürsən?

- Qalın geyinmisən

- Buna isti sevmək yox,tədbirli olmaq deyirlər

Fərəh soyuq baxışla Orxana baxıb gözlərini qıyaraq ağzını büzdü.

- Al bunu geyin

Orxan dözə bilməyib əynindəki jaketi çıxararaq Fərəhə uzatdı.

- Dedim axı üşümürəm.

- Hə titrəyən dodaqların da bunu təsdiqləyir

Jaketi arxadan Fərəhin çiyninə atdı.Fərəh dodaqaltı gülümsədi.

- Çox sağol

Orxan əllərini cibinə qoyub gülümsəməklə kifayətləndi. Fərəh yolun qırağında düzülən hündür ensiz daşların üzərində gəzməyi çox sevirdi. Daha doğrusu çalışırdı ki,gəzsin.Tez tez ayağı burxulur,az qalırdı yıxılsın. Bu dəfə də elə oldu. Tam yerə düşəcəkkən Orxan əllərindən tutub zədələnməsinin qarşısını aldı.

- Çox sağol

- Əllərin də üşüyüb

- Elə isə,isidin!

Deyib gülümsədi Fərəh

- Oo,Xəz paltolu Madonna oldun indi də?

- Oxumusan deməli?

- Onu oxumayan var ki?

- Hə,biri mən

- Bəs bu cümləni necə..?

- Facebookda çox paylaşmışdılar bu hissəsini

- İlahi..

Orxan səmaya baxıb başını yelləyərək güldü.

Fərəh bu cür söz oyunlarını onun, bax , bu gülüşünü görmək üçün edirdi çox vaxt. İlahi,insan necə bu cür gözəl gülə bilərdi axı?..Fərəh Orxanın üzündəki gülümsəməni hər görəndə üzü tamam ciddiləşir,gülməyi unudurdu.Onun üzünün hər cizgisinə diqqətlə baxıb gözlərini yumaraq beynində həmin anın şəklini çəkir və içindən dua edirdi ki,bu dəqiqələr sonsuzluğa qədər uzansın..Amma hərdən elə vəziyyətlər olurdu ki,Fərəh özünə inamını tamam itirirdi..Düşünürdü ki,bunlar tamamilə onun öz beynində qurduğu fikirlərdir.Orxan onunla sadəcə dost kimi danışır,boş qalan vaxtını bölürdü.Həmin gün onunla sağollaşıb evə qayıtmazdan əvvəl sözləşdilər ki,bu həftə sonu görüşüb bir filmə getsinlər.Daha doğrusu Fərəh bunun üçün əlindən gələni edirdi.Çünki Orxanın kinoya demək olar marağı yox idi.Amma o inanırdı ki,zamanla Orxana filmləri sevdirə biləcək və inandıracaq ki,əslində filmlərdən nə qədər çox şey öyrənmək olar.Bir neçə gün sonra onlar kinoteatrın önündə görüşüb Fərəhin çoxdandır gözlədiyi filmə baxdılar.

- Bu səs küydə saatlarla necə otura bilirsən?

Orxan film çıxışında qulaqlarını tutaraq dedi.

- Etiraf et ki,maraqlı idi

- Yəni..Məncə oğlan nə olur olsun qızı saxlamalı,getməsinə mane olmalı idi

Onun bu cavabnı Fərəhin xoşuna gəlsə də biruzə vermədi

- Niyə belə düşünürsən?

- Məncə hər şey bu qədər asan olmamalıdır..Yəni ən kiçik söz söhbət üstündə bitirsə adını “sevgi” qoyduqları şey,mən sona qədər yalnız qalmağı üstün tutaram..

- Axı səhv qızda idi?

- Dərinə getsək,qızın səhv addım atmasına səbəb oğlanın ona yanlış istiqaməti işarə etməsi idi

- Ouu,bir nəfər yaman romantik imiş

Orxan boynunu əyib güldü

-Söhbət romantikadan getmir.Mən insanların beynindəki münasibət anlayışından danışıram

- Zarafat edirəm

- Pizza?

Orxanın bir restoranın önündə dayanıb etdiyi bu təklif qarşısında Fərəh gözlərini bərəldib gülümsəyərək başı ilə təsdiqlədi.Onlar birlikdə vaxt keçirdikləri zaman saatların bu qədər sürətlə keçməsinə məna verə bilmirdilər.

- Danış görək

- Nədən?

- Nə bilim,nədən olsa..Dostların,məşğuliyyətlərin,sevdiyin rəng !

- Bircə dostum var. Müşfiq. Yaxşı oğlandır.Yəni dostdan çox qardaşım kimidir.Gözümü açıb onu görmüşəm demək olar.Hər anımız bir keçib.Sənin?

- Dost? O işlər biraz qarışıqdı mən tərəfdə

- Hə,sənin kimi eybəcər,çətin xasiyyətli biri ilə çətin..

Fərəh qaşılarını çatıb onun bu sözləri zarafatla və ya ciddi dediyini anlamağa çalışdı.Orxan Fərəhin üzündəki bu ifadəni çox sevirdi deyə,tez tez qıcıqlandırıcı sözləri ilə onu belə anaşılmaz vəziyyətlərə salırdı.Bilirsiniz axı,kişilər sevdikləri qadınları əsəbləşdirməyi sevirlər.Əslində,Orxan hələ başa düşə bilmirdi ki,Fərəh onun həyatında tam olaraq haradadır? Adi bir dost,yaxın sirdaş,qədər ortağı idi,yoxsa daha artığı?

- Yaxşı,zarafat edirəm- deyib asta səslə güldü

- Deyəsən mən səhv xatırlayıram

- Nəyi?

- Zarafatlar gülməli olmalı idi axı?

Orxan yenə gülümsəyib onun gözlərinin içinə baxaraq dərindən nəfəs aldı.Fərəh bunun adi bir gülüş olmadığını anlayıb içdən-içə utanaraq gözlərini qaçırdı.

- Hə,harda qalmışdım,bir Zeynəb var,eyni sinifdəyik,yəni yaxşı qızdır.Dost demək olmaz amma o qədər də tək sayılmıram

- Başa düşürəm

kinayəli gülümsəmə ilə hirsləndirməyə davam edirdi Orxan.

- Nə isə,gedək ?

- Yaxşı,yaxşı,susdum

- Yox ,doğurdan,daha gecdir,gedim.

Orxan masadan qalxan Fərəhin qolundan tutub yüngülcə çəkdi

- Əyləş,xahiş edirəm,beş dəqiqəyə gedərik

Fərəh bir az fikirləşib heçnə demədən oturdu. Orxan nə soruşsa qısa qısa cavab verir,o susduqca tək kəlimə danışmırdı. Araya çökən iki üç dəqiqəlik səssizliyi bu dəfə Fərəh özü pozdu.

- Bilirsən,sən haqlısan..kim mənim kimi biri ilə dost olmaq istəyər ki?

- Dedim axı zarafa..

- Yox,yox,səni peşman etmək üçün demirəm,həqiqətən..Düşündüyüm zaman sözlərinə haqq qazandırmaya bilmirəm..Mən..çox soyuqqanlı biriyəm,üzüm nadir hallarda gülür,söhbətlərə qarışmıram,sinifdəkilərlə heç yana getmirəm..İndi başa düşürəm ki,niyə mən içəri girəndə qızların qızğın söhbətlərinin səsi bir anda aşağı düşür..Təbii ki, məni görəndə həvəsləri qaçır,qanları qaral..

-Fərəh..eyy,mənə qulaq as..

Qeyri ixtiyari Fərəhin əllərini tutdu

- Sən..mənim həyatımda gördüyüm ən gözəl qızsan

Fərəh inanmadığını bildirmək üçün xüsusi ifadə ilə gülərək başını yellədi

- Səni ilk dəfə gördüyüm gün yadındadır? Məzarlıqda..Uzaqdan küləyə qarışmış

saçlarını gördüyüm zamanı xatırlayıram..Elə məsum,elə təmiz idin ki,o soyuq,günahlarla dolu məzarlıqda.Səninlə hər danışanda ürəyimdə o hamıdan qaçan,qorxan,güvən hissindən yoxsul o balaca oğlan gülümsəyir.İtirdiyim uşaqlığım,gəncliyim,ailəm..Hamısı geri dönür sanki,başa düşürsən?

Fərəh bir neçə dəqiqə əvvəl ağlına belə gətirmirdi ki,Orxan bu sözləri ona deyəcək.Təəccüb içində onun gözlərində itib batmışdı.Qulaqları onu dinləyirdi,amma elə bil heçnə eşitmirdi..Bəlkə də buna mane olan həmin an sinəsindən çıxacağına inandığı ürəyinin döyüntüsü idi..

- Ən ümidsiz anımda çıxdın qarşıma..Ən kimsəsiz,ən möhtac anımda..Hər şeydə bir xeyir var deyirlər..Səninlə qarşılaşdığım gün başıma gələn bütün şərlərə təşəkkür etdim..

- Hə,məktubun itməsə idi,bəlkə də səninlə heç vaxt qarşılaşmayac..

- Nə?

Fərəh nə dediyinin fərqinə çox gec vardı..İndiyə qədər hamıdan gizlədiyi sirri öz dili ilə etiraf etmişdi..

- Nə nə?

- Məktubu itirdiyimi hardan bilirsən?

- Mən..Mən bilmirdim,elə belə..

Orxan əllərini Fərəhin əllərindən çəkdi.Arxaya çəkilib oturacağa söykənərək bir neçə saniyə Fərəhin gözlərinə zillədi.

- O sən idin hə?

- Nə? Kim mən idim?

- Məktubu götürən sən idin,sonra gətirib yerinə qoyan da

Fərəh təmiz özünü itirmişdi.Titrəyən əllərini ovaraq özünü sakitləşdirməyə çalışırdı.Əslində Orxan ona qarşı hirsli deyildi,sadəcə təəccüb içərisində qalmışdı.Fərəh isə buna tamam fərqli mənalar yükləyib onu bir dəfəlik itirəcəyini düşünüb özünü bağışlaya bilmirdi.Gözündən axan yaşı silib titrək səsi ilə özünü ifadə etməyə çalışdı.

- Mən..Bilərək olmadı.Vallah bilərək götürmədim..Mən sadəcə,yəni,təsadüfən

oldu,külək əsirdi,mən çalışdım məktubu yerinə qaytarım amma bir anlıq maraq..Sonra anam zəng etdi,evə gec qalmışdım..off mən bunları niyə danışıram axı?..Yəni,o tələsik vaxtımda bilmədən cibimə qoyub evə getmişəm.Səhər tez gətirib ora,yerinə qoydum..Nədi? niyə elə baxırsan? Xahiş edirəm,de..de ki,mənə inanırsan.

Orxan sadəcə onu dinləyirdi,bayaqdan Fərəhə sakitləşməsini,ona hirsli olmadığını deməyə çalışsa da Fərəh onun danışmasına icazə verməyib,fərqli nəsə deyəcəyindən qorxaraq özünü ona inandırmağa çalışırdı.

Küçənin axırına qədər yeriyərək Fərəhgilin evinin önünə qədər gəldilər.

-Mənə hirsin hələ də keçməyib hə?

- Dedim axı sənə hirsli deyiləm

- Yox gözlərindən bilinir,əvvəlki kimi deyilsən

Orxan əllərini Fərəhin çiyninə qoyaraq bir az aşağı əyilib düz gözlərinin içinə baxdı

- Sənə hirsli de-yi-ləm.Sadəcə təəccübləndim.İnanıram ki,hər şey dediyin kimi olub. Məktub da sağ salamatdı.Deməli qorxulu heçnə yoxdu. Danışdıq?

Fərəh gözlərini yumub zorla gülümsədi.

- Yaxşı..

- Gir içəri,xəstə olacaqsan.

- Gecən xeyrə qalsın..

Orxan Fərəh içəri girənə qədər gözlədi. Fərəh qapını açdıqdan sonra arxaya çönüb baxanda,Orxan gülümsəyərək əlini yuxarı qaldırıb asta səslə "hələlik" dedi..

***

İş servisinə təzəcə daxil olmuşdu ki,əlində bir az iri torba tutan Müşfiq Orxanın diqqətini çəkdi."Sabahınız xeyir" deyib həmişəki yerinə oturaraq Müşfiqlə hal əhval tutdu.Müşfiq bu gün qəribə görünürdü.Hər zamankindən fərqli,elə bil nə isə gözləyirdi.Orxanın əlavə nəsə demədiyini gördüyü zaman üz vurmadı.İş yerinə çatıb paltarlarını dəyişən zaman Orxan Müşfiqə yaxınlaşıb qulağından

çırtma vurdu. Bu Müşfiqin ən nifrət etdiyi hərəkət idi.Amma nə etmək olar ki,Orxan sevdiyi insanların əsəbi ilə oynamağı sevirdi.

- Ad günün mübarək,qardaş!

Deyib qaşqabaqla baxan yaxın dostunu qucaqlayaraq güldü.

- Elə bildim yadından çıxıb

- Ayıb olar ki

Müşfiq soyuqqanlılığını saxlayaraq gülümsəyib təşəkkür etsə də Orxanın bu təbrikinə nə qədər sevindiyini parlayan gözlərindən görmək olurdu. Məhlədəki kiçik dükandan orta boy bir tort almışdı o gün. Torbadan çıxarıb :”Çayları süz,dadına baxaq bir” deyərək balaca oturacaqları düzəldib birində əyləşdi.

- Bəs o biri uşaqlar ? Onların təbrikini eşitmək istəmirsən?

- Bilirlər ki?

Orxanın gülümsədiyini görüb onlara xəbər etdiyini anladı

- Ay əclaaf!

Əlini boynuna salıb Müşfiqi digər iş yoldaşlarının yanına apardı. Hamı hazır dayanıb onları gözləyirdi. Onları görən kimi hamı alqışlayıb fit çalaraq təbrikini bildirdi. Müşfiq kollektivin içində ən uşaq təbiətli,saf,vicdanlı olduğuna görə hamı xətrini bir ayrı istəyirdi.Hamının təbriki bitdikdən sonra Orxan cibindən çıxardığı zərfi Müşfiqin cibinə qoymağa çalışdı

- Bununla da özünə ürəyin nə istəsə onu alarsan

- A kişi yox,vallah lazım deyil, a yox vallah

- Bir şey deyil əşi,güya nə etmişik ki?

Güc bəla ilə də olsa Orxan bütün kollektivin iki-iki,üç-üç atışıb yığdığı 100 manat pulu onun cibinə qoymağı bacardı. Şirinliklə ağızlarını dadlandırdıqdan sonra hərə öz işinə qayıtdı.

- Xəcalət elədiniz vallah,çox sağol

- O nə sözdü? Ağlına belə şeylər gətirmə.Bizim üçün az şeylər etməmisən ki.

- Əşi neyləmişəm ki, güya?

- Sən olmasan indi böyük güman küçələrdə dilənirdim ya da qurşanmışdım iynəyə,gəbərib getmişdim. İş sahibi etdin,pis gündə yanımda oldun,yemək tapmayanda çörəyini böldün. Qardaşlıq üçün bunlar kifayət edir.

- Yaxşı görək,bu qədər tərif bəsdi. Sən nə edirsən? Fərəh necədi, necə gedir vəziyyət?

- Heç bilmirəm vallah ..Vəziyyət bir yerə doğru gedir amma istiqaməti itirmişəm.

- Nə olub ki?

- Daha çox vaxt keçirdikcə gözlənti,məsuliyyət artır. Qızın getdiyi yola daş kimi düşüb qabağını kəsmişəm. Həyatını məhv edirəm..

- Əşi,sən Allah yenə başlama,bu paranoyalarını da qızın yanında dilə gətirib ürəyini qırma. Əsas iki insanın bir birinə olan dürüstlüyü,sevgisidir. Qalan hər şey düzələr.

- O dediyin ancaq romanlarda olar,ay qaqa, mən onu xoşbəxt edə bilmərəm. Yazıq qız mənə çətinlik düşməsin deyə getmək istədiyi yerlərin çoxunu demir.Bilirəm ki,onun kimi birini tapmaq çətindir,amma mənim kimi birinə rastlamaq onun bədbəxtliyi olacaq. Gözündə bir azca peşmanlıq qırıntısı gördüyüm gün məhv olaram. Uyğun bir yolunu tapıb yolları ayırmaq ən yaxşısıdır..

- Yox bir! Sən də vur dedik öldürdün lap! Əşi dünyadaki tək kasıb sən deyilsən ki,Allah evini tiksin.Güya Fərəh özü qızıl ziynət içində böyüyüb ki? Səni ən yaxşı anlayacaq biri varsa o da elə odur.Axmaqlıq eləmə!

- Sən başa düşmürsən,onun önündə fürsət var,ali həhsil alır,həkim olub ağ günə çıxacaq. Mən ona ayaq bağından savayı bir şey olmaram. Keçən dəfə qız dedi ki,bəs bilmirəm hansısa sevdiyi qrup gəlir konsert verməyə.Mən də gülümsədim. Birdən qızın ağlına gəldi ki,qabağındaki mənəm,bilmədi söhbəti necə dəyişə ki,mən utanmayam.

- Əminəm ki,bunlar sadəcə təxəyyül uydurmalarındır.Dediklərinin o yazıq qızla heç bir əlaqəsi yoxdur,sən sadəcə özünə güvənmirsən.

- Özümə necə güvənə bilərəm ki? Nəyimə güvənim mən bədbəxt?

Başını bulayıb bir siqaret yandıraraq ciyərlərinə çəkdi.

- De görüm hələ bir,bu konsert nədir,nə olan şeydir,bileti zadı nə qədərdir?

- Bilirəm ki,heç? Söhbətin üstünə getmədim heç xəcalətdən..

Müşfiq əli ilə saqqalını sığallayıb bir az düşündü. Cibindən bayaqki doğum günü hədiyyəsini çıxarıb Orxanın cibinə qoydu. Orxan təbii ki,qəbul etmək istəmədi ,amma Müşfiq and aman edib birtəhər razı saldı ki,bu pulla qızı aparıb gəzdirsin,konsertə aparıb sevindirsin,nə vaxt imkanı olsa pulu geri qaytarar.Əslində o,pulun həvəsində deyildi,sadəcə əmin idi ki,başqa cürə bu yardımı qəbul etdirə bilməyəcək.Orxan canına and verən dostunun ricasını yerə sala bilmədiyindən razılaşmalı oldu. İş çıxışı gedib internet klubdan konsert haqda maraqlandı.

***

- Burada olduğuma hələ də inana bilmirəm
- Yəni bu qədər çox sevirsən bu qrupu?
- Tək mən yox,burda gördüyün bu qədər insan,hamı sevir
- Mən burada səndən başqa kimisə görmürəm

Fərəh bu cümlədən sonra həvəslə baxdığı səhnədən gözlərini qaçırdı.Qəribə idi,o nə qədər çalışsa da Orxanın gözlərinin içinə bir neçə saniyədən çox baxa bilmirdi.Əsas da bu cür sözlərdən sonra..Həmin gün Fərəh o qədər gözəl görünürdü ki,Orxanın gözləri özündən asılı olmayaraq onun üzünə doğru çevrilirdi.O çalışırdı ki,bu qədər biruzə verməsin hər şeyi,qorxurdu ki,birdən Fərəh bu qədər yaxınlığı bezdirici qəbul edər.

- Sənin sevdiyin mahnı hansıdır bəs?

Deyib həyəcanını basdırmağa çalışaraq Fərəh soruşdu

- Nə?

Bu qədər səs küy arasında onun incə səsini eşitmək asan deyildi.

- Sənin,ən sevdiyin mahnını soruşuram

Üzünü Orxanın qulağına yaxınlaşdırıb səsini bir az ucaldaraq təkrarladı.

- Hmm,ən sevdiyim..Sən indi bizim dinlədiyimiz mahnıları da bəyənməzsən..
- Bəyənməsəm də sənin xətrinə bəyənmiş kimi göstərəcəyəm özümü,de gəlsin
- Əslində mən köhnə mahnıları daha çox sevirəm.Onlardaki ruh indiki akustik gitaralarda ya da dupstep`lərdə yoxdur.

- Məsələn hansı mahnı?

Orxan Fərəhlə eyni boyda olacaq qədər aşağı əyilib qulağına oxudu :”Gözəliim sənsəən,qəlbimin tacıı,gözümün nuuruu,dərdin əlaacıı”. Orxanın səsi Fərəhin gözlədiyindən çox gözəl idi. Mahnını bitirdikdən sonra yavaşca kənara çəkilib düz üzünə baxdı. Fərəhin üzündəki gülümsəməni görüb o da gülümsədi.Orxan Fərəhin bütün emosiyalarını əzbər bilirdi.Nəyi sevir,nəyə nifrət edir,nə vaxt həqiqətən gülür,nə vaxt sırf güclü görünmək və özünü əzdirməmək üçün,hamısını..Gözlərindən oxuya bilirdi ki,nə vaxt onun ürəyi döyüntülərə tap gətirə bilmir və ağlamamaq üçün özünü güclə tutur.Bu an ən sevdiyi zaman dilimi idi.Çünki gözlərindəki işıltının səbəbinin özü olduğuna əmin idi. Səhnədən gələn mikrofon tənzimləmə sədaları onları bir birindən ayırdı. İkisi də özlərini düzəltməyə çalışsa da əl ayaqlarının bir birinə dolaşdığı hər hallarından bəlli idi..Münasibətin ən gözəl çağını yaşayırdılar. Hansı ki,hələ heç bir söz deyilməmiş,dostluq və sevgili xəttinin tam ortasında dayanmışdılar. Münasibətlərin talehi çizginin hansı tərəfində qalmaq istədiyinizə qərar verdiyiniz gün müəyyən olunur.. Ya hisslərinizin sadəcə bir xoşlantı olduğunun fərqinə varıb dost qalırsınız (ki,bunu da hər insan bacarmır.çünki sevilmədiyi üçün yetərsiz hiss edən egolar buna icazə vermir) ya da,ortada həqiqətən gerçək nəyinsə olduğuna inanıb həyatınızın riskinə gedirsiniz.

Fərəh musiqilərin içində rəsmən itmişdi. Səhnədəkilərlə bərabər ucadan oxuyur,rəqs edir,Orxana baxıb onun da əyləndiyindən əmin olduğu zaman daha çox xoşbəxt görünürdü. Orxan konsertdə ən son orta məktəbdə oxuyarkən olmuşdu. İndi burda həmyaşıdlarının arasında özünü musiqinin axışına buraxmaq ona bir az çətin gəlsə də,içində bir yerlərdə bunu çoxdandır arzuladığı hissini duyurdu.Əslində yanında Fərəh olan zaman bu hiss həmişə onunla bərabər olurdu. Konsert çıxışında bir fotoqraf şəkil istəyib istəmədiklərini soruşanda onlar bir birlərinə baxıb gülümsədi. Orxan  başı ilə təsdiqləyib Fərəhin yanına bir az yaxınlaşdı. Fərəh  başını onun qoluna söykəyib gülümsədiyi zaman Orxan ona tərəf baxıb gözlərini yumdu. Fotoqraf  “ikii” deyəndə Orxan yavaşca Fərəhin qulağına pıçıldadı “çirkiin”. Şəkil hazır olanda Fərəh Orxanın əlində tutub bayaqdan dayanmadan güldüyü şəkli ondan almağa çalışsa da bunu bacarmırdı. Orxanın“çirkin” dediyi həmin anda Fərəh ağzını büzüb qaşlarını çatdığı üçün şəkildə də eyni mimikada düşmüşdü. Əlini uzadıb şəkli almaq istəsə də boyu Orxanın yuxarı qaldırdığı qoluna çatmırdı.

- Əylənib bitirdinsə şəklimi geri istəyirəm!
- Kim dedi ki,bu səndə qalacaq?

- Əks halda bir də üzümü görməyəcəksən! Bax son dəfə deyirəm şəklimi ver!
- Yaxşı,uzaqdan göstərirəm,bir dəfə bax,amma şəkil özümündür.Müzakirəsiz!

Fərəh and aman etsə də Orxan bu şirin xatirənin yox olmasına imkan verə bilməzdi. Bilirdi ki,ona versə evə çatan kimi cırıb tullayacaq ki,şəkildə pis düşmüşəm.Nəzərə alsaq ki,qızlar 76 şəkil çəkdikdən sonra içlərindən birini saatlarla düşündükdən sonra bəyənən varlıqlardır,bu sonluq da həmin şəkil üçün qaçınılmaz olardı.Gecənin sonunda Fərəh qaş qabaq sallasa da sağollaşan zaman belə gözəl günü ona yaşatdığına görə Orxana təşəkkür etdi.Ayrılmaq nə qədər çətin olsa da birhətər evə girməyi bacardı.

***

Məlahət xala hər nə qədər ciddi,başı öz işlərinə qarışıq kimi görsənsə də hər şeyə ayrılıqda diqqət ayırmağı bacaran biri idi.Fərəhin son zamanlar hərəkətlərində olan dəyişikliklər və güya televizora baxarkən boş bir nöqtəyə zilləyib mənasız-mənasız gülümsəmələri onun nəzərindən yayınmamışdı. İçdən-içə bilirdi ki, bütün bunların səbəbi nədir. Sadəcə danışmaq üçün münasib zaman axtarırdı. O bu cür şeylərə qarşı çıxan deyildi. Bilirdi ki,əvvəl axır qızı ilə ayrılmalı olacaq. Amma hər ana kimi narahat idi ki,qızı yanlış seçim edib gələcəyini və bütün həyatını korlayacaq. Yoldaşını itirəndən sonra qızının təhsilinə ,uşaqlarının pal paltarına ,yeməklərinə,evin  idarəsinə,hər şeyə o baxırdı.Səhər tezdən gedib yaxınlıqdaki idarələrin otaqlarını süpürür,günortadan sonra restoranlarda qab yuyur,sonra da gəlib evin işlərini və kamunal problemlərini həll edirdi.Qonşuları ilə hər zaman mehriban idi. Amma başı işlərinə o qədər qarışırdı ki,onları yalnız işə gedəndə ya da qayıdanda görür,söhbətləri ən çox “axşamın xeyir,sabahın xeyir” ə qədər uzana bilirdi. Qapının açıldığını eşidib diksindi. Televizorda yemək proqramına baxa-baxa mürgüləyirdi. Açılan qapının səsini eşidən kimi sıçradı və valideyn əfsanəsinə çevrilmiş möhtəşəm sualı ilə söhbətə başladı:

- Gəldin?
- Hə ana
- Gəl otur görüm
- Çox yorğunam,paltarımı dəyişib yatacağam
- Fərəh,dedim ki,gəl

Fərəh anasının bu halını yaxşı bilirdi. Ya nədənsə gileylənəcək ya da nəsihət verəcəkdi.

- Yaxşı,gözlə,gəlirəm

Çantasını və pencəyini otağına qoyub gözlərini ova-ova anasının yanına gəldi.

- Hə,gəldim,nə olub?
- Necə keçdi konsert? Kimlər var idi?
- Yaxşı idi,dedim axı sinif yold..
- Fərəh,düzünü de,quzum, kimlə getmişdin?

Fərəhin boğazı düyünləndi.Bilmədi ki,hər şeyi olduğu kimi etiraf etsin ya bir yalan uydursun

- Başa düşmürəm nəyi nəzərdə tutursan?
- Kimisə sevirsən?
- Nnn,nə? Yox,yox əlbəttə
- Fərəh mən sadəcə bilmək istəyirəm. Mən onsuzda sənə güvənirəm,bilirəm ki,səhv addım atmazsan,sadəcə bilməliyəm ki,nə isə,kim isə var ya yox..

Fərəh başını aşağı əyib əllərinə baxdı.

- Anan qurban,de görüm
- Əslində..
- Hə?
- Söz ver ki,sonrada mənə heç bir qadağa qoymayacaqsan,ana,çox xoşbəxtəm,yalvarıram,söz ver ki,mane olmayacaqsan.
- Dəli olmusan? Mənim ən böyük arzum da odur ki,səni xoşbəxt görüm.Buna niyə mane olum ki?Danış görüm kimdir,adı nədir,mən tanıyırammı?
- Adı..Adı Orxandır. Tək yaşayır
- Necə yəni tək?
- Velideynlərini itirib,özü də tək uşaqdır,yəni kimsəsi yoxdur

Məlahət xalanın üzünü kölgə aldı.

- Amma özü işləyir,özünü dolandırır,heç kimə boyun əymir,yaltaqlanmır,dilənmir.Başa düşürsən? Özü işləyib pulunu qazanır.Özü də elə buralarda yaşayır. İki məhlə var aramızda.
- Sən əminsən ki,səninlə fikri ciddidir? Əminsənmi ki,səhər səndən istifadə edib bir kənara atmayacaq,əminsənmi ki,nə olur olsun arxanda dayanacaq səni tək buraxmayacaq. Qızım,belə insanların nədənsə qorxusu olmur,anadan qorxmur,atadan qorxmur. Ağlına nə əssə onu edir. Birdən sən..

- Ana,ana,yox,başlama ,xahiş edirəm,sən onu heç tanımırsan. Başladın yenə bilib bilmədən danışmağa. Öncə bir gör,tanı,danış.Özün də görəcəksən ki,necə yaxşı biridir.
- Harda işləyir ?
- Qatar depolarına baxır. Yəni o qədər varlı biri deyil, özündə bilirsən ki,mən belə şeylərin marağında deyiləm.Mənim üçün əsas olan..
- Sevgidir? Eh ,ay qızım,uşaqsan ki,uşaq
- Ana,bəsdir..Sən atamla evlənəndə güya o varlı idi?
- Deyildi..İndi halımıza bax..Əllərimin dərisi gedib millətin əli altında işləməkdən. İki qəpik pul qazanacağam deyə,itin zülmünü çəkirəm. Ümidim qalıb bir sənə.

Fərəh anasının üzünə,ağaran saçlarına,qabıq bağlayan əllərinə baxarkən gözləri doldu. Qucağına qaçıb üzündən öpdü,başını dizlərinə qoyub anasının dizlərini sığlladı.

- İnan mənə,ana,hər şey yaxşı olacaq..Sadəcə inan..

***

- Sabahın xeyir

Fərəhi görər görməz üzünə gələn təbəssümlə Orxan dedi.

- Sənin də

Fərəhin zorla gülümsədiyi hər halından bəlli idi.

- Nə olub?
- Heç..

Orxan dəqiq bilirdi ki,bu hal Fərəhin təbiətinə xeyli uzaq idi. Amma bezdirməmək üçün bir müddət susaraq yanında yeridi.Məzarlıqda atasına “sarılarkən” də,məzarlıqdan çıxıb sağollaşmaq istəyəndə də əlavə heçnə demədi. Çönüb getmək istəyərkən Orxan əlindən tutub onu saxladı. Fərəhi belə solğun,peşiman görmək onun üçün çox ağır idi. İlk dəfə idi hiss edirdi ki,Fərəh onun üçün bu qədər önəmlidir. Onun üzünə çökən bir kədər ifadəsi Orxanın sinəsində ağır bir yükə çevrilmişdi.

- Çirkin..De görüm,nə olub?
- Heçnə olmayıb,yorğunam sadəcə, gedim dərsə,gecikirəm,sonra danışarıq.

Bir saniyəlik Orxanın üzünə baxıb yenə zorla gülümsədikdən sonra çönüb tələsik uzaqlaşdı. Orxanın qanı xeyli qaraldı. Düşündü ki,yəqin dünən etdikləri onu

həqiqətən incidib ya da başqa nə isə var.

Fərəh evə qayıdanda anası onu qarşıladı,qızının üzündəki üzgün ifadəni görüb qucaqlayaraq üzündən öpdü. Fərəhin çiyinlərindəki ağırlıq elə bil biraz azaldı,özündə rahatlıq hiss etdi.

- Nə olub,niyə beləsən?
- Heç nə,yeməyə nə var?
- Nə olub?! Oğlan nəsə edib?
- Yoox,dedim axı heçnə.
- Əgər dünən danışdıqlarımıza görədirsə..
- Ana,yox,qurban olum,yox
- Yəni demək istəyirəm ki,mən nə olur olsun yanındayam,seçimin nə olur olsun.Səni gözü yaşlı qoymaram. Sadəcə addım atarkən ehtiyyatlı ol və düşün ki,nə edirsən.

Fərəh ayaqüstü bir şeylər yedikdən sonra anasının üzündən öpüb otağına getdi. Anasının dediyi şeylərə sevinmişdi əslində sadəcə,bu ağırlıq hər nə idisə keçmək bilmirdi. Içində şübhələr yaranmışdı,görəsən,həqiqətən səhvmi edir? Axı hər şey çox tez oldu. Birdən birə həyatına biri gəldi və tez bir zamanda həyatının mərkəzinə çevrildi. Yatağında sağa çevrilib beynindəki səsləri susdurmaq üçün yastığı qulağının üstünə basdı. Bir neçə gün Orxanla bu cür soyuq münasibətinə davam etdi. Orxan heçnə anlaya bilmirdi. Bu cür uzaqlıq,soyuq davranış,nə qədər məcbur etsə də tək söz ala bilməməsi onu dəli edirdi. Keçən günlərdən birində Fərəhi zorla danışdırmağa çalışarkən səsini ona qarşı ucaltmışdı. Bu isə ona özünü daha pis hiss etdirir,qarşısına çıxmağa cəsarət tapmırdı. Havalar get gedə soyuyurdu.Qış qapıda idi.Fərəh biraz düzəlib əvvəlki vaxtlarına qayıdırdı. Yolu tək yerimək ,evdə bütün gün onu fikirləşmək,səsi üçün darıxmaq onu hövsələdən çıxarırdı. Bu gün evdən çıxanda havada uçuşan qar dənələrini görəndə o qədər sevinmişdi ki,qardaşının otağına qayıdıb səhərin gözü açılmamış yazıq uşağı oyatmışdı ki,yağan qara baxsın. Yusifi belə tez oyatdığı üçün anasından danlaq eşitdikdi. Sonra gülə gülə evdən çıxıb qapını bağladıqdan sonra arxaya,küçəyə tərəf çönəndə yolun o biri üzündə dayanan Orxanı gördü. Üzü bir anlıq ciddiləşdi amma buna səbəb onu görmək istəməməsi yox,bu üz,bu gözlər üçün nə qədər darıxdığını hiss etməsinə görə idi. Fərəh Orxanın yaxınlaşdığını görüb onun bir xəyal olmadığından əmin olduqdan sonra gülümsəyərək ona tərəf  bir neçə addım atdı. Heçnə demədən bir-birlərinə baxıb gülümsəyirdilər. Orxan Fərəhin üzündəki gülümsəməni yenidən görməyi nəsib etdiyi üçün Allaha şükr edirdi.

- Necəsən?
- İndi yaxşıyam
- Qulaq as,bu günlər,bilmirəm niyə belə idi..Bağışla.
- Hansı günlər?

Heçnəyin önəmli olmadığını ifadə edən bu cümlədən sonra Fərəh əmin oldu ki,Orxan onun həyatındaki mərkəzə laiq idi. Fərqi yoxdur,sonu necə bitəcək,fərqi yoxdur arada olan bu münasibətin adı nə idi və fərqi yoxdur ki,hisslər bir gün dəyişəcəkmi ya yox? Əsas olan bu an idi..Əsas olan indi yan-yana qarın səssiz dincliyi içində addımlamaq idi..Bir həftə sonra hər yer ağappaq qarla örtülmüşdü. Dünya tər təmiz,günahsız bir yerə çevrilmişdi sanki. İki gün idi ki,dərsə getmirdi Fərəh. Yeni çıxan filmlərin içində itib batmışdı. Baxdığı bütün filmləri Orxana göndərir, zorla baxdırırdı.Film bitdikdən sonra telefonla zəng edib fikirlərini öyrənir,film haqqında müzakirələr aparırdı.

- Hə,necə idi? Xoşuna gəldi?
- Belə də..
- Sən də heçnəyi bəyənmirsən.
- Heçnəyi yox,hər şeyi bəyənmirəm
- Filmin nəyi pis idi,sən Allah?
- İlk sevginin heç vaxt unudulmadığını iddia edirdilər. Bu çox mənasız fikirdi.
- Oğlanlar üçün ola bilər
- Başlama yenə
- Düzünü deyirəm,siz oğlanlar hər şeyi çox tez unudursuz. Sizin üçün fərqi yoxdur,nə necə başlayır necə bitir.Hər şey həvəsinizin kefindən asılıdır.
- Həvəsin kefi,sözə baxa.. Yanılırsan,elə deyil
- Fikirlərin elə demir amma
- Mənim fikirlərim tamam başqa şey deyir,sənin qulaqların da o fikirləri tamam başqa cür başa düşür və tamam başqa cür dilə gətirir.
- Heçdə yox
- Mən deyirəm ki,insan həyatında bir neçə dəfə sevə bilər,yəni sevdiyini zənn edər. Bəziləri keçici olar,bəziləri əbədi. Mənim ilk sevgim heç yadımda deyil. Amma ondan sonraki münasibətim daha uzun müddətli olub deyə yadımda qalıb.

Fərəh get-gedə qıcıqlanırdı.

- Sənin nə qədər münasibətin olub ki? Sayını hesabını itirmisən
- Elə çox olmayıb.Uşaqlıq macəralarını hesaba qatmasam bir. İndi də..

Araya sükut çökdü.Fərəh cəsarətini yığıb soruşdu

- İndi nə ?
- İndi sən varsan
- Mən də onlardan birinə çevriləcəm zamanla
- Elə deyil.
- Fərqim nədir ki ?
- Bilirsən,bu..Aynaya baxmaq kimidir,sən mənim əksim kimisən. Ruhumun bir parçası. Həmişə eyni həyatı yaşamışıq sanki,amma başqa yerlərdə. Sonra bir şey bizi rastlaşdırıb.

Fərəh utandığından nə deyəcəyini bilmirdi,o ,ilk dəfə idi ki,həyatında bu cür şeylər yaşayırdı,bu cür sözlər eşidirdi.

- Şey,amma məncə filmdə qız oğlana inanmalı idi. Heç kəs inanmasa da o inanmalı idi.

Orxan Fərəhin utandığını hiss edib telefonda gülümsədi.

- İnam təhlükəli bir şeydir.Qazanmaq illərini alır itirmək saniyəni.
- Oğlanın bir səhvinə görə hər fürsətdə ona inamsızlıq haqsızlıq idi axı..
- Fərəh,yadında saxla,əgər bir səhv edirsənsə və bunu səndən başqa kimsə ya da kimlərsə görürsə,sən əlindən gələnin ən yaxşısını da etsən nəyəsə nail ola bilmirsən. Milyon dənə yaxşılıq et,uğurlara imza at ya da nə bilim dünyanı fəth et,ürəyi kirli biri üçün sən hər zaman o səhv hərəkətinlə xatırlanacaqsan.Heç kim sənə inanmayacaq,inanmaq istəməyəcək,çünki sənin yaxşı olma ehtimalın onları özlərinə daha günahkar hiss etdirəcək. Onlar sənə inanmır, çünki əmin olmaq istəyirlər ki,dünyada özlərindən başqa da günahkarlar var və onlar tək deyil.Başa düşürsən nə demək istədiyimi?
- Bəs ümid?Bəlkə o səhvi edən yaxın biridir və sən ən son ana qədər ümid edirsən ki,hər şey düzələcək?
- Ümid tamam başqa hekayədir..Bax keçən gün bir şey oxudum. Bir hekayə.
- Danış , mən də eşidim
- Kişi oğlana bir əlvalat danışırdı,eynən belə idi; “Nə vaxtsa kral bal keçirməyi qərar verib, dünyanın ən gözəl qızlarını ora yığır. Gözətdə duran bir bədbəxt əsgər kralın qızını görür. O hamıdan gözəl idi. Və əsgər təbii ki, ilk baxışdan ona vuruldu. Adi əsgər kral qızının sevgisinə ümid edə bilərdimi? Təbii ki yox. Amma o qızı bağda tək tutub, ona öz

ürəyini açdı. Onsuz yaşaya bilməyəcəyini dedi. Onun özünə inamı, hisslərinin ifadəsi şahzadəni cəlb etdi və şahzadə dedi: "Əgər 100 gün, 100 gecə mənim eyvanım altında gözləsən, mən sənin olacağam"!... Əsgər düşünmədən gedib, şahzadənin eyvanı altında durdu. Bir gün, iki gün, iyirmi gün, iyirmi beş gün... Və hər gecə şahzadə yoxlayır ki, həqiqətən əsgər onu gözləyirmi ya yox.. Əsgər gözləyir. Sanki, orda bitmiş ağac tək gözləyir. İldırım çaxır, külək əsir, yağış leysana çevrilir, o isə gözləyir. Quşlar onun başına batırır, arılar sancır, o isə yerindən tərpənmir. Beləcə 80 gün keçir... Onun halı pisləşir, aclıq keçirir, arıqlayır, gözlərindən yaşlar axır. O isə yaşları silə bilmir. Gücü olmur bunu etməyə. Yatmağa belə gücü qalmır. Şahzadə isə gözləyir ki, əsgər sona qədər dözüm gətirə biləcək, ya yox. Və 99-cu günün sonu əsgər çevrilir və çıxıb gedir.

- Arzusuna 1 gün qalmış?
- Hə... Amma niyə sualı vermə. Özüm də bilmirəm, niyə.” Sonra davam edir ki, “- Şahzadə və əsgər haqqında hekayə yadındadır? Artıq mən bilirəm, əsgər niyə son anda gözləmədən çıxıb getdi. Hə, bircə gecə qalmışdı arzusuna. Amma şahzadə sözünü tutmayacaqdı. Bu həqiqətən çox əzablı olardı. Əsgər məhv ola bilərdi. Amma bu cür, yəni 99 gecə o sadəcə ümid edərək gözləyirdi. Getməklə, ömrünün sonuna qədər o gözləmədiyi 1-cə gecənin ümidinə sığınıb yaşayacaqdı. Əsgərin etdiyi kimi et, çıx get!” .. Mənim demək istədiyim də tam budur..Ümid gözəl şeydir,düzdür,amma hər insana qarşı bu hədiyyə bəxş edilmir. Və sən o hədiyyəni qazanacaq qədər şanslı doğulmaya bilərsən..
- ..hə,deyəsən haqlısan..
- Mm,belə..Niyə çölə çıxmırsan heç,üzünü görə bilmirik daha.
- Şerlok demiş,çöldə marağımı cəlb edən bir şey yoxdur
- Hahaha
- Biraz qartopu?
- Beş dəqiqəyə gəlirəm.

Fərəh papağını əlcəklərini geyinib “müharibəyə” hazır vəziyyətdə küçəyə çıxdı. Biraz irəliləyib sağa-sola baxa-baxa Orxanı gözləməyə başladı.Birdən boynunun arxasından bir zərbə hiss etdi. Arxaya çönüb Orxanı görəndə əlini belinə qoyub gülməyə başladı. Birdən ona tərəf qaça-qaça yerdən əlinə qar yığaraq onu “atəşə tutdu” . Orxan qartopunu bacardığı qədər ehmalca atırdı ki Fərəhi incitməsin. Fərəh oyuna o qədər aludə olmuşdu ki yerdən yığdığı qartopunun içinə daş parçasının getdiyinin fərqinə varmadı. Əlində yumrulayıb fırlatdığı qartopu

Orxanın düz qaşının üzərinə dəydi. Fərəh hiss etdi ki,Orxanın bu dəfə gözünü tutması onu özünə yaxınlaşdırmaq üçün bir hiylə deyildi.Tez yanına qaçıb yaxından baxdı. Ciddi bir şey deyildi. Bəxti gətirmişdi ki,daş sadəcə alnının aşağı hissəsindən bir yeri çızıb qanatmışdı. Amma bir balaca qanın qızlarda yaratdığı təsüratı nəzərə alsaq Fərəhin o an necə reaksiya verdiyini gözünüzün önünə gətirməkdə çətinlik çəkməyəcəyinizə əminəm.Orxan nə qədər sakitləşdirməyə çalışsa da Fərəh həyəcanının qarşısını ala bilmirdi. Orxanı həyətlərindəki səkinin üzərində oturdub evə qaçaraq pambıq və spirt gətirərək yarasını təmizlədi.Fərəhin əli ilk dəfə idi ki,Orxanın üzünə dəyirdi. Orxan bütün ağrı sızıltını unutmuş,Fərəhin üzünə dəyən nəfəsində yox olmuşdu. Fərəh əli ilə Orxanın saçlarını sığallayıb, bir yanağını da digər ovucuna alıb gözlərinə baxdı:

- Yaxşısan?

Orxan əlini üzünə doğru aparıb Fərəhin əlinin üzərinə qoydu. Ovucunun içindən öpüb "yaxşıyam.." dedi. Orxan Fərəhin ovucunda öpdüyü zaman Fərəh daha əvvəl hiss etmədiyi bir şey hiss etdi. Bu əvvəlki heçnəyə bənzəmirdi..Ürəyindən ılıq bir qığılcım keçdi sanki,bu..tərifsiz bir hiss idi..Əlini yavaşca Orxanın əlinin içindən çədi.

- Bu-bunları evə aparım..ıı..Sən dəqiq yaxşısan? Heyvan kimi davrandım,bağışla.
- Əla gün idi, indi də əladır. Gedim evə,yaxşıyam ,narahat olma,sən də gir içəri.

Dəqiqələr əvvəl olanlar ikisini də qəribə bir tilsimə salmışdı sanki. Danışarkən dilləri topuq vurur,gözlərini bir- birlərindən qaçırırdılar.

- Yaxşı..hələlik.
- Hələlik.

Fərəh getmək istəyəndə Orxan birdən-birə onun qarşısına keçdi

- Fərəh,mənə qarşı nə hiss edirsən?
- Hə? Nə,necə yəni ?

Fərəh təəccüb içində idi. Özünü imtahanda nə vaxt keçdiklərindən xəbərsiz olduğu bir mövzudan salınmış sualla üz-üzə dayanmış kimi hiss edirdi.

- Bağışla,yersiz oldu,amma mən bilməliyəm..Yəni,bilmək istəyirəm
- Nə deyim axı? Yəni..səninlə hər şey yaxşıdır,adı nədir bilmirəm,amma hər gecə yuxusuz qalmağım artıq məni qıcıqlandırmır. Nəzərə alsaq ki,yuxu ən dəyərlilərimdən idi (gülür) ,indi səni,sənlə

olanları,bizi..söhbətlərimizi düşünəndə yata bilmirəm..Səhər saatın zəngindən tez oyanıram.Səni görmə ehtimalı günü gözəl başladır,yəni bilmirəm..Bu nədir?

Orxan başını yelləyib gülümsəyərək çiynini qaldırdı..

- Bilmirəm..amma eyni şeyləri yaşadığımız dəqiqdir..
- Yəni sən də..
- Hə,daha artığı..
- Bu arada..İstəyirəm anamla sizi tanış edəm.
- Səncə o bunu necə qarşılayacaq ?
- Əvvəl axır bilməlidir. Onunla danışacağam,razı olsa yeməyə qoşularsan,birlikdə nahar edərik.
- Acığın tutmasın amma bu dediyin xarici film səhnəsini xatırlatdı.
- Şanslısan da
- Nəyə görə belə deyirsən?
- Sənə film kimi həyat yaşadıram

Ciddi baxışla Fərəhə baxan Orxan bu cümlədən sonra saçını qaşıyaraq güldü.

- Hə..Əlbəttə

Orxan evlərinə qayıdanda yolda işdən qayıdan Məlahət xalanı gördü. Onlar rəsmən tanış olmasa da bir-birlərini tanıyırdılar. Məlahət xalanın qarda ayağı sürüşdü. Tam yıxılacaqkən Orxan qolundan yapışıb bunun qarşısını aldı.

- Yaxşısınız?
- Hə,oğlum,çox sağol

Qəddini düzəldib Orxanın üzünə diqqətlə baxdı.

- Sən necəsən?

Orxan başa düşdü ki,bu adi sual deyil.

- Çox sağolun,yaxşılıqdır,şükür Allaha.
- İşlərin necə gedir,qazınız filan kəsilməyib ki?

Orxan get-gedə utandığını hiss edirdi.

- Yox,hər şey qaydasındadır,çox sağolun
- Qulaq as,oğlum,Fərəh mənim ən dəyərlimdir. Gözümün ağı qarasıdır,eşidirsən? Onun bir telinə ziyan dəysə gözə almayacağım heçnə yoxdur bu həyatda. Nə olur olsun,kim olur olsun məhv edərəm. Qızımın xoşbəxt olması, rahat və sıxıntısız həyat yaşaması mənim üçün ən vacibidir. Bizi az çox tanıyırsan,mənim halım da göz qabağındadır.

Onları böyüdüb iş peşə sahibi etmək üçün didinirəm. Bu dünyadaki vaxtımın yarıdan çoxu keçib. Gedəndə də istəmirəm gözüm arxada qalsın. Yəni..İnanıram ki,məni başa düşürsən.

Orxan başını aşağı dikib onun sözlərinə diqqətlə qulaq asırdı.. Qadın həqiqətləri söyləyirdi əslində,Fərəh dünyanın bütün gözəlliklərinə laiq idi..Ağlından bir fikri keçirir,həyata içdən içə üsyan edirdi..Axı hər şey fərqli ola bilərdi.İndi təhslini tamamlayar,adam kimi işləyər,rahat nəfəs alardı..Fərəhə də laiq biri..İndi isə əlində heçnə yox idi.Və anası nigaran qalmaqda sonuna qədər haqlı idi.Düzdür,o Fərəhi sevirdi,artıq əmin idi buna.Və bilirdi ki,onu qorumaq üçün lazım gəlsə canından belə keçəcək.Amma bunlar yetərli idimi ?

- Bu danışdıqlarımız aramızda qalsın..Fərəh bilsə buna tamam fərli mənalar yükləyib məndən inciyəcək..Yəqin bilirsən,bir az uşaq xasiyyətlidir..

Orxan Məlahət xalanın bu sözünü eşidib başını qaldıraraq üzünə baxdı,nəzakət xətrinə gülümsəyib sözünü təsdiqlədi.

- Yaxşı,mən daha gedim.Allaha əmanət ol.

Orxan günün bütün sevincini ürəyinin dərinliyinə basdırıb fikir içində evə qayıtdı.

- Nə oldu? Nə danışırdınız? Nə deyirdin ona?!
- Nədi,bizi güdürdün?
- Ana!

Fərəh pəncərədən Orxanın arxasınca baxanda anası ilə danışdıqlarını görmüşdü amma səslərini eşidə bilməmişdi.

- Heçnə hal əhvalını soruşdum
- Sən Allah,xətrinə dəyəcək nə isə dedin,düzünü de
- Dedim ki yox da,bıy,inanmırsan get özündən soruş! Əşi çəkil qabağımdan yorğun arğın adamam.

Fərəh otağına girib qapısını çırpdı. Əmin idi ki,anası dilini saxlaya bilməyib,nələrsə deyib ürəyini qırıb Orxanın. Utandığından zəng də edib soruşa bilmədi. Səbrli olmağa çalışıb səhəri gözlədi. Dərsə gedəndə soruşub bir təhər söz ala bilərdi.

Səhər hazırlaşıb evdən çıxmazdan əvvəl güzgüdə üz gözünə əl gəzdirib uzaqdan özünə baxdı. Qapıdan çıxanda Orxanı hər zamanki yerində görməyib fikirləşdi ki,yəqin bir neçə dəqiqəyə gələcək. Həyətlərinin önündə dayanıb gözləməyə

başladı,amma Orxan gəlmək bilmədi..on dəqiqə,iyirmi dəqiqə,birsaat,bir gün,üç gün,bir həftə.. Yeddi-səkkiz gün sonra dərs çıxışı Orxanı universitetin həyətində görəndə Fərəh çox sevinsə də biruzə verməməyə çalışdı.Gözünün dolmaması üçün dua edib fikrini dağıtmağa çalışdı.

- Ooo,itgin bəyimiz tapılıb,şükür.
- Salam (gülümsəyərək)
- Harda idin?
- Bir az işlərim var idi.

Fərəh başı ilə təsdiq işarəsi edib çönərək yoluna davam etdi. Orxan bilirdi ki,Fərəh ona nə qədər hirslənib,inciyib. Addımlarını sürətləndirib ona çatmağa çalışdı.

- Bağışla,dostumun başına iş gəlmişdi. Müşfiq yadındadır? Haqqında danışmışdım,bax onun.
- Nə olub ona?
- Daha heçnə həll etdik
- Səhraya düşmüşdünüz?

Orxan Fərəhin niyə ona zəng edib xəbər vermədiyini nəzərdə tutduğunu anlayaraq gülümsədi.

- Bağışla,heç cürə imkan olmadı. Sən necəsən?
- Gördüyün kimi.
- Eyy

qolundan tutub saxlayaraq qarşısına keçdi

- Mən..sadəcə səni görmək istədim.Çox darıxmışam axı.Belə etmə,xahiş edirəm.
- Darıxan insan bu qədər soyuqqanlı ola bilməz!
- Dedim axı,imkan olmadı. Bu gün mənimlə bir yerə gedərsən?

Fərəh qaşlarını çatıb qırağa baxaraq:

- Hara məsələn?
- Mənim üçün çox dəyərli bir yerə. Saat dörddə gedərik,olar?

Fərəh biraz fikirləşib yeriməyə davam edərək “baxarıq” dedi. Orxan bilirdi ki,Fərəhin “baxarıq”ları razılıq əlamətləridir.Günorta saat dörtdə  Orxan Fərəhi dənizin ortasında yerləşən kiçik bir kafeyə apardı. Hər tərəfi şüşə ilə örtülü olan bu kafedə oturub qəhvənizi ya da çayınızı içərkən dörd tərəfinizdəki dənizlə baş-başa qalmaq  heyrətamiz idi. İndi siz bir də həmin mənzərəni qar yağarkən

düşünün..Fərəh içəri girən zaman gözlərinə inana bilmədi.

- Nəəə? Zarafat eliyirsən?

Əlləri ilə ağzını yumub qaşlarını qaldıraraq Orxana baxdı.Orxan bu yeri uşaqlıqdan tanıyırdı. Sahibi rəhmətlik atasının yaxın dostu idi. İndiyə qədər hələ heç kimi bura gətirib ən sevdiyi yeri həmin insanla bölüşməmişdi.

- Bilirdim ki,xoşuna gələcək?
- Burdan xoşu gəlməyəcək olan adamın ağlına şübhəm var

Deyərək əllərini yana açıb yuxarıya baxdı..Hər tərəfdən qar dənələri yağış kimi yağırdı amma içəri od kimi idi.

- Əyləş

Oturacağı arxaya çəkib Fərəhə işarə etdi. Fərəh əllərini masanın üzərinə qoyub çənəsinə söykəyərək Orxana baxırdı.

- Nə olub?
- Anın dadını çıxarıram.

Orxan gülümsədi.Amma bugün nədənsə üzündə gizlin bir kədər hiss olunurdu. Onlar orada saatlarda oturub söhbət etdi,indiyə qədər danışmadıqları hər şeyi,bir birlərinə aid bilmədikləri hər sirri bölüşdülər. Orxan kafenin ən məşhur şirniyyatından və yüngül yeməklərindən sifariş edib Fərəhin onları necə gülməli,sevimli halda yeməsini izləməkdən zövq alırdı.

- Fərəh,mən səni sevirəm..

Fərəh içdiyi çayı az qala ağzından tökəcəkdi. Yazıq qız,bu qəfil etiraf qarşısında çaşıb qalmışdı..Orxan sözünə dava etdi:

- Bilməlisən ki,səni sevmək,başıma gələn ən gözəl şey idi və inanmalısan ki,sənə qarşı bu günə qədər etdiyim heç bir hərəkətdə,dediyim heç bir sözdə zərrə qədər yalan,riya olmayıb.
- Bilirəm..
- Həyatımda gördüyüm ən gözəl çirkinsən sən

Ikisi də gülür

- Amma..
- Sözlərinin əsas hissəsi indi gəlir deyəsən..

Birazdan incinəcəyini hiss edən Fərəhin üzündəki sevinc yox oldu

- Fərəh,daha yaxşılarına laiqsən desəm,məni içindən söyəcəksən,bilirəm..Amma bu həqiqətdir.Mən itmiş adamam..Nə

olacağım bəlli deyil.Sənin önün açıqdır,gözəl həyatın,ailən,özünə oxşayan uşaqların olacaq..Və bu qətiyyən o demək deyil ki,mən bunları görüb sevinəcəyəm..yox..yanında olan adama nifrət edəcəyəm..övladlarını görüb ağlayacağam..öz bədbəxtliyimdə boğulub sənin əlini buraxdığım üçün özümü heç vaxt bağışlamayacağam..Amma indi,nə qədər ki,özümdə bu cəsarəti tapmışam,bunu etməliyəm..Yoxsa sənin əlindən yapışıb özümlə birlikdə bataqlığa çəkərək məhv edəcəyəm..Qurmağa qorxduğum xəyallarım var mənim.Və sən ön sıralarda gəlirsən.

- Anamın sözləridir hə bunlar? Onun dediklərinə görə məndən uzaqlaşırsan..O istədi deyə məni heçə sayırsan..
- Yox..yox,elə deyil..Anan mənə heçnə deməyib..Desə belə bildiyim şeyləri təkrarlayacaqdı.
- Yaxşı..Gedə bilərik daha?
- Fərəh..səni həqiqətən çox..
- Hə,hə,əlbəttə..Mümkündürsə,birdə qarşıma çıxma.

Oturacağı geriyə çəkib ayağa qalxdı. Cəld əynini geyinib kafedən çıxdı.Orxan gedib onu dayandıra bilərdi,ən azından onu evlərinə aparmaq üçün..Amma onda özünə nifrət yaratmaq üçün bunu belə etmədi..İstəyirdi hər şey asan olsun..Ən azından Fərəh üçün..

Sürətlə addımlayırdı Fərəh.Bu elə tərfisiz ağrı idi ki,ürəyi qabırğalarına sığmırdı..Qaranlıq küçələr qorxuducu gəlmirdi.Ən pis nə ola bilərdi ki? Yanılmışdı..Ən dəyərli zənn etdiyi biri tərəfindən..Külək həqiqətləri qulağına pıçıldayıb üzünə sərt yumruqlar vururdu sanki.Dərisi göynəyir,yanağına axan isti göz yaşı bir anda buza dönürdü..Burnu soyuqdan qızarmışdı..Sağa sola baxa baxa addımlayırdı.Sarılacaq biri yox idi və o qollarını bir birinə keçirməyi seçdi..Özünə sarıldı..Təkliyini qəbul etməyib özünü özü ilə təsəlli etdi o gecə..

Fərəhin gedişindən yarım saat keçmişdi. Dünyaya səssizlik çökmüşdü sanki.Orxan içində mənasız bir rahatlıq hiss edirdisə də,bu ona sevinc bəxş etməyə bəs etmirdi.Özünü inandırmağa çalışırdı ki,onun üçün belə daha yaxşıdır..Bir neçə həftə,uzağı bir neçə ay sonra hər şeyi unudub yeni həyata başlayacaq..Ayağa qalxıb getməyə hazırlaşarkən Fərəhin masanın qırağına düşmüş şarfını gördü.Əlinə alıb ovucunun içində sıxdı..Üzünə yaxınlaşdırıb ətrini içinə çəkərək kafedən çıxdı ki,onu Fərəhə geri qaytarsın..Yol boyu özünü danladı..Fərəh özünü o qədər pis hiss etmişdi ki,gedərkən şarfını bağlamağı unutmuşdu.Allah bilir bu soyuq havada necə üşümüşdü..Fərəhgilin evinin önünə

çatanda qapının zəngini basdı. Bilirdi ki, zəng etsə də Fərəh cavab verməyəcək.Məlahət xala qapını açarkən Orxanı görəcəyini heç gözləmirdi .O ilk dəfə idi ki,bu cür addım atırdı. Orxan əslində şarfı Məlahət xalaya da verə bilərdi,amma istəyirdi son dəfə də olsa Fərəhin üzünü görsün.Bir təhər qadını inandırdı ki, Fərəhə vacib söz deməlidir.Məlahət xala qaş qabağını töküb razılaşdı. Qızını çağırmaq üçün içəri gedib Fərəhin otağını açmaq istədi .Qapı bağlı idi.

- Fərəh?
- Hə,ana?
- Qapını niyə bağlamısan?
- Paltarımı dəyişirəm,nə olub ki?
- Orxan gəlib,səni soruşur,deyir vacib nəsə deyəcəm. Çıx gör nə deyir,özünə də de bir də belə şey olmasın!
- Yaxşı,gəlirəm.

Fərəh qapının arxasında dayanıb anasının getməsini gözlədi ki,anası ağlamaqdan şişib qızarmış gözlərini görməsin.İstəmirdi dediklərinin düz çıxdığını görsün.Bunu özünə sığışdırmırdı. Saçlarını açıb üzünə dağıtdı ki,Orxan da ağladığını başa düşməsin amma bu çox da mümkün deyildi.

- Nədi,nə istəyirsən?

Çölə çıxıb qapını bağladı ki,anası nə isə eşitməsin.

- Bunu unutmusan.

Orxan Fərəhin üzünü daha əvvəl heç vaxt bu halda,belə kefsiz, göz qarası üzünə yayılmış görməmişdi. Fərəh gözlərini hər qaçıranda elə bil ürəyinə bir qıçaq batırdı.Fərəh Orxanın uzatdığı şarfı götürüb evə qayıtmaq istəyəndə Orxan onu qolundan tutub özünə çəkdi.

- Mənə bax
- Get burdan!
- Fərəh,yalvarıram,mənə bax..

Fərəh donuq gözləri ilə onun gözünün düz içinə baxdı. Nə qədər güclü görünməyə çalışırdısa da,Orxanın üzünə,gözlərinə baxanda özünü saxlaya bilmirdi..Orxan Fərəhin gözlərinin dolduğunu görüb əlləri ilə üzünü iki yandan tutaraq onu titrəyən dodaqlarından öpdü. Fərəh həyatında ilk dəfə idi ki,kədərlə sevinci birlikdə bu qədər dərində hiss edir.Orxanı sinəsindən basıb arxaya itələmək istədikcə ürəyində ona qarşılıq vermə istəyi də o qədər artırdı.Orxan dodağını Fərəhin dodağından yavaşca ayırıb yaşla dolu gözləri ilə Fərəhin üzünə

baxdı. Fərəh dayana bilməyib ona sığınaraq möhkəm qucaqlayıb hıçqıra-hıçqıra ağladı..Anasının içəridən səsləri eşidilirdi..Üzünü yavaşca yuxarı qaldırıb Orxanın üzünə yaxınlaşdırdı..Üzündən öpüb qulağına pıçıldadı:

- Bu günki günə də belə ayrılıq yaraşardı..İndi gedə bilərsən..
- Fər..

Orxanın sözünü tamamlamasına icazə vermədən içəri girib qapını örtdü. Otağına girmədən əvvəl səsini təmizləyib “mən ac deyiləm,yatıram” deyərək qapını bağladı..Səhərə qədər səsi eşidilməsin deyə nəfəsini tuta-tuta ağlamağa davam etdi..Sonsuz qaranlıqda itmiş kimi hiss edirdi..Bir neçə gün keçmişdi..Amma hisslər azalmaq bilmirdi.Nə darıxmaq hissi,nə əsəb,nə qürur,nə kədər..Əlin isti peçə bilmədən dəyəndə saatlarla o kiçicik yerin sızıltısı səni incidir,yatmağa qoymur.Həyatın bəzi anları da məhz bu yanğın kimidir..Uzaq durmağa çalışırsan,özünü qoruyursan,bilirsən ki, yaxınlaşmaq sənin ziyanınadır..Amma tam arxayın olduğun zaman gözünü başqa yerə çevirdiyində cüzi bir diqqətsizlik səni həmin atəşə yaxınlaşdırır və sızıltısı keçənə qədər özünü söyürsən..

***

Orxan Fərəhgilin evinin önündə dayandı..Bir təhər özündə güc yığıb qapını döymək istəyəndə əlini saxladı..Evin yan tərəfinə dönüb Fərəhin otağının pəncərəsini döydü..Bir neçə saniyə sonra pərdələrin arxasından Fərəhin üzü göründü..Orxanı gördüyü üçün gülümsəyir,xoşbəxt görünürdü..Bəlli idi ki,o,indi hər şeyi unutmağa hazırdır.Əli ilə “bir dəqiqə” işarəsi göstərib pəncərəni bağladı. Evin qapısını açaraq Orxanın yanına qaçıb boynunu qucaqladığı an Orxan gözlərini açdı..Fərəhlə sağollaşdığı o bərbad gündən bəri Orxan bu yuxunu demək olar hər gün görür ,hər oyananda da eyni təəssüf və peşmanlığı hiss edirdi..Yorğanı hirslə sağ tərəfə doğru açıb yatağında oturdu. Dirsəklərini dizinin üzərinə qoyub əlləri ilə üzünü tutdu.. “Keçsin artıq bu hiss..Yalvarıram,bitsin artıq bu ağrı..Zibilə qalsın!” dedi pıçıldayaraq..Şalvarının ətəyini cırmaqlayan Kürən onu fikirlərindən ayıltdı.Qucağına alıb başını üzünə yaxınlaşdırıb sığalladı..İndi tək təsəllisi yenə köhnə dostu olmuşdu.. “Nə olub,nə istəyirsən? Hmm?” deyə danışa-danışa qonaq otağına keçib soyuducunun qapısını açdı..qabı südlə doldurub Kürənin qarşısına qoyub çayın altına od vurdu..Paltarlarını geyinib evdən çıxdı və hər günki kimi o bir fincan çay masanın üzərində unudularaq soyudu..

Mümkün idimi zamanı geri qaytarmaq? Mümkün idimi yaşananları yaşanmamış qılmaq? Mümkün idimi ürəyinin tanıdığı birini heç olmamış varsaymaq ?

Ağrının minlərlə növü var bu dünyada..Qaraciyər ağrısı tamam başqa olur,böyrək ağrısı müqayisə edilməz,diş ağrısı çəkməsən kəsməz,yaxşı bəs ürək ağrısı? Hansı ki,fiziki olaraq ağrı tapılmır,hansı ki,dərmanı yoxdur və əlin çatmır..hansı ki,nəfəs alanda ciyərlərinin çətinlik çəkdiyini hiss edirsən və bilirsən ki,buna səbəb ürəyinin dəmir barmaqlıqları arxasında həbs etdiyin o insandır..Məhkumdur o, hansı ki,bütün hisslərinin gözü qarşısında dəfələrlə edam etsən də ölmür..Hansı ki,qapıdaki zəncirləri açsanda çıxıb qaçmaq bilmir..Avtobusun buğlanmış pəncərəsindən sonsuzluğa baxan bir cüt göz görsəniz nə vaxtsa,tanıyın onları,bilin ki,o gözlər ürəkdəki həbsxananın kiçik pəncərəsidir..Hansı ki,içəridə yatan o məhkum yalnız həmin kiçik pəncərədən görür dünyanı..

Bu gün iş günü deyildi.Orxan Müşfiqlə şəhərin mərkəzində görüşüb yarım qalan bəzi işlərini həll edəcəkdi. Bütün işlərini həll edib bir kafedə oturdular. Müşfiq əl üzünü yumaq üçün icazə istədi. Kafenin hər tərəfinə dünya yazarlarından şeirlər,aforizmlər asılmışdı..Orxanın gözləri oturduqları pəncərə kənarındaki divara asılmış bir şerə sataşdı..

“Ağlamaq üçün gözdən yaşmı axmalı,

Dodaqları gülərkən insan ağlamazmı?

Sevmək üçün gözəlømi baxmalı,

Çirkin bir vücudda gözəl ruh,qəlbi bağlamazmı?

Həsrət-bir sevgidən uzaqmı qalmaqdır,

Sevgilin yanındaykən hicran duyulmazmı?

Oğurluq-pul,dövlət,malmı oğurlamaqdır,

Səadət oğurlamaq oğurluq sayılmazmı?

Solmasıi üçün gülü budaqdanmı üzməli,

Qönçəykən bir çiçək budaqda solmazmı?

Öldürmək üçün silah,bir xəncərmi olmalı,

Gülüş-güllə,saçlar-ip,gözlər-silah olmazmı?

(Viktor Hüqo)”

- Romeo,nə olub? Haralara getmisən yenə?
- Hə? Heç..Gör nə gözəl şeirdi..
- Şeirlər ruhunda günahkarlıq hiss etdiyin zaman gözəl gəlməyə başlayır..
- Başlama yenə..
- Nədir? Yəni ,həqiqətən,başa düşmürəm,niyə sənin kimi bir ağılsızla dostluq edirəm.Sənin elədiyin konkret mazoxistlikdir.Ortada heç bir səbəb yoxkən sən dur qızdan ayrıl,sonra da Məcnun kimi düş ortalığa.Yox yəni,pul yoxdur deyə ayrılan qız görmüşdüm amma,"pulum yoxdur,səndən ayrılıram" deyəni də ilk dəfə idi görürdüm.
- Məcbur idim
- Ağılsız idin! A kişi,sən hardan bilirsən ki,səhəri gün sənə nə gətirəcək,hə? Məgər az olub ki aa,heçnəyi olmayan adam bir anda milyoner olub? Ya da milyonu olan adam bir anda müflisləşib? Ağlını başına yığ qardaş,get qıza yalvar yapış,bəlkə Allah üzünə baxar,səni bağışlayar. Yoxsa,belə bir baltaya sap olmazsan.Həyatdı bu,yaxşı gündə pis gündə bir olmadınsa nə ləzzəti vare? Qrip olanda ən dadlı yeməyi yemək kimi bir şey olar. Dadı yox,duzu yox.
- Daha gecdir,məni bağışlamaz
- Ümid ən sonda ölür,o qədər kitab oxuyursan,bütün aforizmləri mən deyəcəyəm sənə? Sevirsə bağışlayar,bilir ki,sən də onun yaxşılığı üçün etmisən.
- Yox,düşünür ki,qorxağam,cəsarətsizəm
- Yəni..Haqsız da sayılmaz..Nədir ?! Yalan deyirəm? Nəyə elə baxırsan ? Kişi dediyin ən son ana qədər gedər. Əsas odur son ana qədər təslim olmayasan. Əsas odur ki,ailəni kiməsə möhtac etməyəsən. Əlin ayağın sağ,ağlında başın,indi sən ailənə bir qarın çörək tapa bilməyəcəksən? Əgər danışdığın kimidirsə,məncə Fərəh də bununla qane olacaq.Övladlarını da elə yetişdirəcək.Zaman keçəcək vəziyyətin daha da yaxşılaşacaq. Allah var rəhmi var.
- Bilmirəm..
- Daha özün bilərsən,nə qələt edirsən et,mən üstümə düşəni edib xəbərdarlıq edirəm ki,sonra o boş başını divara vurmayasan.Özü də demək olar eyni məhlədə qalırsınız.İndi inciklik var,bir müddət sonra nifrətə dönəcək aranızdaki nər nədirsə..Sən onu biri ilə görəndə,o səni biri ilə görəndə,içinizdəki sevgi qəddarlaşıb dönəcək kindar bir əziyyətə..Bunu gözə ala bilirsən? Qəbul edə bilirsən ona nifrət etməyi?

- Mən ona nifrət edə bilmərəm..
- O sənə elə gəlir..Hələ elə bir insan olmayıb ki, itirməyi həzm edəcək qədər geniş qəlbi ola. Əgər biri səni tərk edibsə onsuz da nifrət edirsən,yox əgər birini itirmək sənin öz günahındırsa,onda öz günahkarlıq hissin səni o qədər boğacaq ki,bu ağırlıqdan qurtulmaq üçün onda günah axtarmağa çalışacaqsan..”Elə dünəndən razı imiş ”, “o saat kimisə tapıb”, “vecinə də deyilmiş”, “hər şey yalan imiş” pərdələri asacaqsan gözlərinə.Və özünü rahatlatmağa çalışacaqsan.
- Yaxşı sən bunları hardan bilirsən,eşq həkimi?
- Yadında saxla,çox gülən adamlar çox şey gizlədir.

Evə qayıdanda qarşısından keçdiyi mağazanın vitrinindəki gözəllik onun addımını saxlamasına səbəb oldu..İlahi , kim bilir Fərəhə necə yaraşardı..Bu gəlinlik onun olduğu zaman nə qədər şanslı olardı..Bir xeyli şüşənin arxasındaki gəlinliklə üz-üzə dayanıb xəyallara daldı.Gələcəklə bağlı nələrsə düşünməyi heç sevməzdi amma bu..Əllərində çiçəklərlə dayanıb qapının ağzında onu gözləmək necə böyük xoşbəxtlik olardı..Fərəhlə əlaqəsi tamam kəsilmişdi düzdür,amma Orxan bütün bu zaman ərzində onu xatırladan nə var idisə ancaq həmin şeylərlə məşğul olurdu..Sevdiyi mahnıları dinləmək,filmlər izləmək,internetdən pizza şəkillərinə baxıb həmin anki üz ifadəsini xatırlayaraq gülmək..O,indi filmlərə tamam başqa gözlə baxırdı.Bütün cümlələr məntiqli gəlir,nələrisə xatırladır,durduq yerə gözlərini yaşardırdı.Bütün mahnılar mənalı səslənirdi..Elə bil hamısı sırf onun həyatından yazılmış ya da sırf Fərəhi xatırlatmaq üçün bəstələnmişdi.Orxanın qəribə xüsusiyyətləri var idi.Başına gələcək olan pis şeylər çox zaman ürəyinə damırdı. Filmin adını xatırlamıram,orada bir oğlanın həyatından bəhs edilirdi. Fantastik janrda olsa da Orxanı tanıyan biri bunların gerçək olduğuna inana bilərdi. Baş roldaki oğlan deyir ki,bütün doğulmamış uşaqlar əvvəlcə cənnətdə olur,hər şeyi dərk edir və dünyaya gələcəkləri vaxt bütün həyatı boyu nələr yaşayacaqlarını əvvəlcədən görürlər. Ananın doğum sancıları tutanda cənnətdəki mələk doğulacaq olan uşağa yaxınlaşaraq barmağını həmin uşağın dodaqlarına yaxınlaşdırır və üst dodağın aşağı hissəsində dalğavari bir görüntü yaranır (əksər insanlarda var). Bu işarə həyata dair bildiyin və başına gələcək hər şeyi sənə unutdurur və heçnədən xəbərsiz halda dünyaya gəlirsən.Amma mən mələklərin gözündən yayınmışdım.Və doğulan zaman hər şeyi xatırlayırdım..

Orxan də birəbir uşağın danışdıqları kimi həyat yaşayırdı. Anasını,atasını itirəcəyi zamanları bir neçə gün əvvəldən yuxusunda görmüşdü. Aranızda inanıram ki,belə insanlar çoxdur. Dejavu ya da altıncı hiss,adını nə qoyursunuzsa

qoyun.Amma belə hisslər bəzən adamın ürəyinə damır və nə yazıq ki,gerçəkləşir..Fərəhi ilk gördüyü gün belə bir gözəlliyin asanlıqla ona qismət olmayacağını da hiss etmişdi..Amma bunun hisslərlə yox,sırf onun gələcəklə bağlı qorxusu ilə əlaqəsi var idi..Həyat bu qədər əliaçıq ola bilərdimi? İzlədiyi film bitən zaman Orxan öncə saata baxdı.Gec olduğunu və səhər oyana bilməyəcəyini düşünüb televizoru söndürərək otağına keçdi. Anasının bağışladığı duanı boynundan çıxarıb yatağının yanındaki çəkməcəyə qoymaq istədi..Siyirtməni açdığı zaman yenə üzünü kədər bürüdü..Fərəhlə birlikdə çəkdikləri şəkli əlinə alıb dərindən köks ötürdü.Onun bu üz ifadəsinə dayana bilmirdi.Acı bir təbəssümlə şəkildəki üzünün hər cizgisinə toxundu..Dayana bilmirdi..İçinə düşdüyü bu qaranlıq onu göz görə-görə içinə çəkib yox edirdi.Ürəyindəki bu soyuqluq,durduq yerə bədəninə gələn ürpərti yağan qardan deyildi,bilirdi..Başqa bir səbəb var idi..Başqa bir səbəb var idi,dostları ilə danışıb gülməyə çalışarkən gözlərinin bir boşluqda itib batmasının..”Kim birinin qəlbini qırıb onu ağlatsa,həmin insanın bədduasından qorxsun..” ifadəsi Orxanı rahat buraxmırdı..Allahdan gələcək hər cəzaya razı idi əslində,haqqı da var idi Fərəhin buna..Orxanı düşündürən o idi ki,Fərəhin qırıq qəlbini kim düzəldəcək..Nə vaxtsa bu ağrı keçəcəkmi,hirsi soyuyacaqmı,göz yaşı kəsəcəkmi? Dünənə qədər tanımadığın biri bu gün hər şeyinə çevrilir..bu necə mətiqdir axı? Bu necə ədalətdir? Bu necə bilinməz bağdır? Dözə bilmirdi artıq..Müşfiqin dedikləri,qəlbindəki ümidlər,düzələcəyinə inandığı məsələlər.. Yavaş-yavaş ayağa qalxmağa güc tapırdı. Təki onu dəli edən bir cüt gözü, gülərkən yanağında əmələ gələn qəmzələri bir daha görə bilsin..

***

- Ay Fərəh,gedirəm,gəl qapını bağla.
- Get,gəlib bağlayacam
- Tez gəl,bağla,arxayın gedim

Məlahət xala bilirdi ki,nələrsə qaydasında deyil.Əvvəlki Fərəh geri qayıtmışdı.Üz gülmür,yemək gah yeyilir,gah yeyilmir,verilən sual iki dəfə təkrarlandıqdan sonra cavab alınırdı.Bilirdi ki,problem kiminlə bağlıdır.Amma bu barədə tək kəlimə danışmırdı. Bəlkə də içdən-içə özündə günahkarlıq hiss etdiyindən idi..Nədə olsa övladı idi və onu bu halda görmək valideyn olaraq çox ağır gəlirdi..Həm də təzə-təzə üzü gülməyə başlamışkən..

- Anan qurban,yeməyini yaxşı ye,nə isə istəyirsənsə yemək üçün,qayıdanda alım.

- Yox ana,sağol,heçnə lazım deyil
- Üzün solub yaman günə qalmısan,yeməyini yaxşı ye!
- Yaxşı ana,yaxşı..

Fərəh bəzən özünü o qədər halsız hiss edirdi ki,haqlı olduğu zamanlarda belə mübahisə etməmək üçün qarşı tərəfin hər sözünü təsdiqləyirdi.Qapını bağlayıb otağına qayıtdı. Aynanın önündən bir addım keçib dayandı,geri dönüb oradaki əksinə baxdı. Rəngi qaçmış üzünə,dağınıq saçlarına,yuxusuz gözlərinə baxdı.Bu halına nifrət edirdi..Qəflətən üzünə bir şillə vurdu..İncitdiyini hiss edib birini də,birini də,birini də vurdu..Göz yaşları axdıqca vurmağa davam etdi. “Axmaq,axmaq!” deyib özünü nifrətlə süzdü. Saçlarını qəsdən yola-yola darayıb arxada yenidən topladı. Üzünü yuyub yenidən otağına qayıtdı. Üz gözünü qaydaya salıb dərindən nəfəs alaraq özünü sakitləşdirdi. Pəncərəni açıb buz kimi qış havasını ciyərlərinə çəkdi..Ağlamaqdan həssaslaşan gözlərinin göynədiyini hiss edib pəncərəni bağladı.Televizorun düz qarşısında oturub “ben10” çizgi filminə aludə olan qardaşının yanında oturaraq onu ürəkdən qucaqladı. Alnından,saçlarından öpdü.

- Puding hazırlayaq?
- Həəə!!
- Kömək edəcəksən?
- Hə- Hə- Hə!

Deyib gülərək Yusif bacısını qucaqladı. Mətbəxə keçib ən sevdikləri şirniyyatı hazırlamaq üçün qollarını çirməyərək hazırlıq gördülər. Qardaşı ilə az vaxt keçirsə də Yusif Fərəh üçün dünyadaki ən şirin nemətlərdən biri idi. Anası işdə olanda çox vaxt ona Fərəh baxmış,altını təmizləmiş,yeməyini yedizdirib nazını çəkmişdi.Pudinq hazır olanda ikisi də əllərinə bir kasa bir qaşıq götürüb salona keçdi. Yusif balaca barmağını pudinqə batırıb Fərəhin burnuna çəkdi. Fərəh içini çəkərək Yusifə çönüb bir neçə saniyə üzünə ciddi-ciddi baxdı və üzündəki məsumluğa qıya bilməyib güldü. Bir müddət sonra boş kasaları Fərəh mətbəxə aparması üçün Yusifə verib dedi ki,sən bunları mətbəxə apar,mən də baxmağımız üçün bir “animasiya” tapım. Video disklərin arasından maraqlı bir şey axtarmağa başı qarışan zaman birdən qapı döyüldü. Fərəh qapını açan zaman gözlərinə inana bilmədi.

- Xahiş edirəm,bağlamazdan əvvəl qulaq as
- Çıx get buradan!
- Fərəh,sən Allah,bircə dəfə dinlə,son dəfə dinlə,xahiş edirəm,bunu mənə çox görmə.

- Deyilən deyildi,mən də dinlədim. Uzatmağa ehtiyac yoxdur.Sənə də hirsli ya da küskün deyiləm,vicdanın rahat olsun.
- Fərəh,yəni,bilirəm,nə desəm az olacaq,nə desəm yarım qalacaq.Amma inan ki,çox peşmanam..Axmaqlıq idi. Düşünmədən atılan addım idi,bilmirdim ki,belə olacaq.Bağışlaya bilməzsən məni? Bir damcı da olsa dəyərim qalıbsa bu şansı mənə ver,yalvarıram.

Fərəh nə qədər hirsli,incik olsa da ürəyi hələ də onu ilk gördüyü günki kimi çırpınırdı..İlahi,ona necə qarşı gəlmək olardı axı?

- Mən..Bilmirəm,bacarmaram..Yadındadır? İnam haqqında sözlərin?İnamı necə geri qaytarmaq olar,yenidən güvənməyə necə başlamaq olar bilmirəm..
- Ümid haqqındaki söhbətimizi də sən , xatırla. Adı sən olan o ümid məni ömrümün sonuna qədər yaşadar..
- Biri görəcək,get artıq..
- Səni birdə görə biləcəyəm? Heç olmasa onu de..Gizli gizli yox,qarşına çıxmağıma icazə verəcəksən? Özümü bağışlatmağa,yenidən əlini tuta bilməyim üçün çalışmağıma?

Fərəh biraz üzünə baxıb heçnə demədən sakitcə qapını bağladı.Orxanın ürəyinə ümid toxumları səpildi.Ən azından yox deməmişdi.Qapını çırpıb acılamamışdı da. Deməli ümid var idi..Fərəhin qəlbi çox qırılmışdı..Tam ayağa qalxmışkən,bir şeylərə yenidən inanmağa başlamışkən yenə ayağı büdrəyib palçığa yıxılmış,dizləri qanamışdı..Yenidən yeriməyə cəhd etmək,”birdən buraxdı?” düşüncəsi ilə uzanan əli tutmaq çətin olacaqdı..Amma Miranın da dediyi kimi,bəzi yaraları yalnızca onları qanadanlar sarıya bilirdi..

Qar bir neçə gün idi ki,tamam dayanmışdı..Tempraturun bir neçə dərəcə qalxması şəhərdəki Sindrella sehrini pozmuş,ağ gəlinlik qara ,cırıq,köhnə paltara geri dönmüşdü. Palçıqlı yollarda yerimək çətin idi düzdür,amma həddən artıq “düşüncəli” insanların avtomobilləri ilə palçıqlı suyun üzərindən sürətlə keçmələri vəziyyəti daha da dözülməz edirdi.Bir də bütün bunların üzərinə sinifə daxil olarkən eşidilən “topaz söhbətləri, “chanel,versace,mac” məhsullarından hansıların daha yaxşı olduğu üstündə aparılan müzakirələri əlavə edib hesablayın.Fərəh belə hallarda hər zaman qulaqcıqlarından kömək alırdı. Bu günün istirahət fasiləsi Birdy`dən “People help the people ” idi. Bu aralar fikri çox dağınıq olduğu üçün ən sevdiyi mahnılar da olsa diqqəti başqa yerlərə yönəlir,mahnının nəqarət hissələrini qaçırırdı.Hara baxsa,söhbət nə haqda olur olsun məntiqsiz şəkildə Orxanı xatırladırdı. İstəyirdi elə nə vaxt,harda olur olsun

durub yanına qaçsın və hər şey qaldığı yerdən davam etsin..Sonra ən son yaşananlar düşürdü yadına,bir anda bütün görüntü qaralır,arzular boz rəngə çevrilirdi..Dərs çıxışı Orxanın hər zaman dayandığı yerdə olduğunu görəndə məktəb çıxışı gecikən valideynini görmüş uşaq kimi sevindi Fərəh.Orxan zahirən çox yaraşıqlı olduğu üçün digər qızların da diqqətini cəlb edirdi. Öz aralarında fısıldaşıb gülərək ona tərəf baxdıqlarını görəndə Fərəh dəli olurdu. Az qalırdı qarşılarına keçib “mənimdir!” deyib qışqırsın. Amma gözünü süzdürüb yanlarından keçməklə kifayətlənir və düşünürdü ki,Orxanın yanına yaxınlaşdığını görəndə onun Fərəh üçün gəldiyini bilmək həmin qızlara bəs edəcək. Orxan bütün bunların fərqində idi,çünki Fərəh bütün bunları bildirmədən edəcək qədər “peşəkar” deyildi. Hər halından bəlli olurdu ki, yanından keçdiyi qızlarda onu qıcıqlandıran nə isə var. Və olub keçənlərə rəğmən Orxanı görəndə gülümsəməsi normal hal deyildi. Bu düşünülmüş qisas hərəkəti idi. Orxan gülməmək üçün özünü zorla tutur,belə bir möcüzəni tapdığı üçün ürəyində uşaq kimi sevinirdi.Qızlar keçib getdikdən sonra Fərəh yenə ciddiləşib yola davam etsə də,bu artıq önəmli deyildi. Mübarizə aparmaq üçün yetəri qədər səbəb qazanmışdı artıq.

- Dərs necə keçdi?
- Hansı dərs?
- Nə bilim,rüşeymdən,sinir hüceyrəsindən filan,nədən danışılırdısa..

Fərəh dodaqaltı gülümsədi.

- Müəllimlərin heç kəsin dinləmədiyi sıxıcı söhbətlərini nəzərdə tutursansa ,bərbad idi.
- Başqa nə etmisən bəs?
- Yeriyən meyidlərin arasında başqa nə etmək olar səncə?
- Yaxşı..Sən..” The Fault in Our Stars”  filminə baxmısan?
- Hə..
- Səncə necə filmdir?
- Sonu pis bitən filmləri sevmirəm
- Niyə ancaq sonunu xatırlayırsan? Ondan əvvəl nə qədər gözəl şey yaşandı axı..
- Rəqəm nə qədər uzun olur olsun qarşıda səni sıfır gözləyirsə heçnəyin önəmi yoxdur..
- Həqiqətən belə düşünürsən?
- Hə!
- Yəni qalan heçnəyin önəmi yoxdur sənin üçün?

- Ölümü sevməyimi gözləyə bilməzsən..
- Bunu nəzərdə tutmadığımı bilirsən..
- Hə,yaxşı,bir-birlərini sevdilər,ən gözəl anlar bölüşdürüldü,unudulmayacaq şeylər yaşandı..bəs sonda ? Bir dəqiqə..Sən..Film izləməyə başlamısan?
- Nələrləsə başımı qatmalı idim.Mən də səni xatırladan bir şey seçdim.Dediyin qədər var imiş..Yəni filmlər,yaxşı idi.Amma ən sevdiyim bu dediyim oldu.
- Niyə bu qədər film içindən ən bədbin sonluğu sevmisən,həqiqətən maraqlıdır..?

Orxanın dayandığını görüb addımını saxladı. Arxaya çönüb:

- Nə? Bəlkə düz demirəm?

Orxan Fərəhə yaxınlaşıb qarşısında dayandı. Əlini tutub öz ürəyinin üzərinə qoydu.

- Hiss edirsən?

Fərəhin həyəcanı artdı.

- Hə.. Bu döyüntülərdir mənim yaşadığımı sübut edən şey? Hər şey bircə orqanın müntəzəm fəaliyyətindən ibarətdir? Fərəh,hər yeriyən,baxan,yemək yeyən insan həqiqətən yaşayır səncə? Həqiqətən düşünürsən ki,həyat bundan ibarətdir? Məncə yox..”Həyat nəfəs aldığın anlardan yox,nəfəsinin həyəcandan kəsildiyi anlardan ibarətdir” eşitmisən bunu? Həyat tam olaraq budur. Həyat səni gördüyüm anlardır,üzünə,gözlərinə baxdığım anlar..saçının üzünə, gözlərinin üzərinə dağılıb səni hirsləndirdiyi anlar.. burnunun üst dodağına düşən kiçik kölgəsi,narazı baxışların,pizza görən zaman gözlərində yaranan parlaqlıq,yuxulu səsin,yasəmən ətrin,gözünün yol çəkməsi,qaşlarını çatıb nəyisə anlamağa çalışdığın zamanlar..mənim üçün həyatın adları bunlardır..Əgər indi ,bax bu dəqiqə ölsəm,həyatı sonsuzluqda bu cür xatırlayacam..başa düşürsən?

Fərəh yenə onun gözlərinə təslim olmuşdu..Nə qədər çox baxsa o qədər dərinə gedir,bu anı pozmaq o qədər çətin gəlirdi.Birdən yuxudan ayılmış kimi əlini onun əlindən çəkdi.Aşağı baxıb yola tərəf çönərək addımladı. Orxan göyə baxıb gözlərini yumaraq bir neçə saniyə dayandı.Sonra Fərəhin arxasınca addımlamağa davam etdi. Fərəh evlərinə yaxınlaşdıqca içdən içə yolun uzanması üçün dua etsə də,çönüb Orxanın üzünə baxmağa cəsarət etmirdi. Sadəcə istəyirdi

bu an uzansız.Danışıb gülməsələr də arxasınca gəldiyini,birlikdə yeridiklərini hiss etsin..Qapını bağlayan zaman aralıqdan son dəfə küçəyə baxıb evə girməsini gözləyən Orxana baxdı..

***

- Salam ana
- Salam. Nə yaxşı tez gəlmisən?
- Hə,son dərs boş keçdi
- Acsan?
- Yox..Əslində hə.Nə var yeməyə?
- Şorba
- Ya da ac deyiləm,biraz dərs edib yatacam.
- Nə hikmətdirsə, şorbanın adını eşidən kimi tox olduğun yadına düşür.Naşükürlük etmə,gəl yeməyini ye.
- Vallah ac deyiləm,axşam yeyərəm.
- Di özün bilərsən.

Fərəh paltarlarını dəyişməyə belə ərinirdi. Əllərini arxaya açıb özünü yatağın üstünə tulladı. Gözlərini yumub Orxanın bayaq tutduğu əlini ürəyinin üzərinə qoyub gülümsədi.Dediklərini xatırladı..O necə diqqətli imiş,Fərəhin hər hərəkətini,hər özəlliyini əzbərləyibmiş..Necə qarışıq duyğular var imiş,bu günə qədər dadmadığı..İnsan ürəyi bu qədər hissə necə tap gətirirdi?

Orxan evə çatıb Kürəni qucağına alaraq evin içində fırlandı. İki gün idi ki,işdən icazə almışdı. Geriyə bir gün qalmışdı. Səhər bütün zamanını Fərəhə ayırıb bu günü onun üçün unudulmaz etməli idi.Elə özü üçün də..Fikirləşəndə,Fərəhlə keçən hər dəqiqə onun üçün unudulmaz xatirəyə çevrilirdi ,amma bu başqa idi..Səhər tezdən qalxıb sifariş verdiyi gülləri alacaq,onu qapıda qarşılayıb dərsə bir günlük getməməsi üçün razı salacaqdı. Niyə başqa vaxt zaman sürətlə keçdiyi halda,bir şey üçün səbirsizlənəndə saatlar adama işgəncə edirdi?

- Nə oldu ,həll edə bildin işləri?
- Hə,hə,indi gedirəm gülü götürəm.İnşallah razılaşar, mənə şans dilə.
- Narahat olma,bircə həyəcanını idarə etməyi bacar,gerisi düzələr.

Müşfiqlə sağollaşıb gül mağazasının önünə gəldi. Gülləri götürüb tələsik addımlarla Fərəhin evinə doğru yola düşdü. Evlərinin önündə dayanıb nəfəsini tənzimlədi. Saçını,paltarını düzəldib qapıya yaxınlaşdı. Bir də dərindən nəfəs alıb gülü üzü görsənməyəcək qədər yuxarı qaldırıb qapını döydü. Qapının

açıldığını eşidib səsini çıxarmadı ki,bəlkə Fərəh gülləri görən zaman ürəyi yumşalar. Amma bir tərslik var idi,səs-səmir çıxmırdı. Başını biraz sağa əyib gülün böyründən baxan zaman qəribə üz ifadəsi ilə nə olduğunu anlamağa çalışan Məlahət xalanı gördü. Tez gülləri aşağı endirib gülümsəyən üzünü ciddiləşdirdi.

- Sa..

Tutulmuş səsini təmizləməyə çalışdı

- Sabahınız xeyir.
- Fərəh biraz əvvəl çıxıb.
- O ..oldu,oldu, bağışlayın..sağolun..

Orxanın utanc içində sürətlə ordan uzaqlaşdığını görən Məlahət xala onun bayaqki üz ifadəsini xatırladıqca gülüşünü saxlaya bilmirdi. Başını yelləyə-yelləyə qapını örtüb içəri keçdi.

“Bu da sənin romantikan. Sənin nəyinə yaraşır axı?! Biyabırçılıq!” deyə öz-özünə danışa-danışa Fərəhə çatmaq üçün qaça-qaça avtobus dayanacağına getdi.

- Hələ nə qədər güləcəksən?
- Bağışla ,özümdən asılı deyil
- Fərəh,yaxşı da,sən Allah qurtar. Onsuz da yetəri qədər biyabır etdim özümü..
- Sən Allah düzünü de,anamı qarşında görəndə nə dedin?
- Heçnə nə deyəcəm,donub qaldım,səsim də batdı,ərgən səsi kimi səslər çıxardım.
- Ahahaha..
- Fərəh!
- Yaxşı,yaxşı,susdum
- Hə,nə deyirsən? Bu gününü mənə bağışlayarsan ?
- Ən son bunu etdiyimə peşman olmuşdum

Orxanın peşmanlıq içində yerə baxıb utandığını gördü.

- Amma,necə deyərlər,hamı ikinci şansa laiqdir!
- Söz verirəm,səni bir də peşiman etməyəcəyəm!Nə olur olsun..
- Hə,hara gedirik?

Hava çox gözəl idi həmin gün.Buludlar təmiz çəkilmiş,aydın səma önə çıxmışdı.

- Bu gün ancaq yeriyəcəyik.
- Necə yəni?

- Gəl..

Fərəhə öndən yol verib "irəli" işarəsini verdi. Həmin gün onlar həqiqtən də,başqa heçnə etmədilər,bütün gün şəhərin ən gözəl yerlərini,köhnə Bakının yeni küçələrini,məscidləri,köhnə məhlələri gəzdilər.Fərəh uzun müddətdir ki,universitetdən başqa heç bir yerə getməmişdi.Orxan getdikləri hər yerdə fərqli tarixi faktlar və qısa hekayələr danışırdı. Fərəh məəttəl qalırdı ki,ali təhsili olmadığı və orta məktəbi uzun müddətdir bitirdiyi halda,o,bu qədər şeyi necə öyrənə bilib.Həm də gününün çox hissəsini işləyərək keçirdiyi halda.Danışarkən onun üzünə baxarkən çox vaxt dedikərinin yarıdan çoxunu eşitmirdi.Bu qəribə bir sehir idi,gözləri insanı öz dərinliyinə çəkib bu dünya ilə olan bütün əlaqəsini kəsirdi sanki..

- İndi gələk əsas məsələyə
- Nə məsələsi?
- Gəl mənimlə

Fərəhin əlindən tutub onu teatra apardı. Teatrın əsas zalı bomboş idi. Orxan ortaboylu,uzun saçlı bir oğlana başı ilə salam verdi,oğlanla bir-birlərini tanıdıqları hər hallarından bəlli idi. Oğlan Orxana göz vurub başı ilə nə isə işarə etdi. Fərəh təəccüb içində nə baş verdiyini anlamağa çalışırdı. Zalın ən ön sırasına gəldikləri zaman Orxan "madam?" deyə səslənib oturması üçün Fərəhə işarə etdi.Səhnənin sağ tərəfində yerləşdirilmiş pianonun önünə keçdi.Mikrofona doğru əyilərək "gördüyüm ən gözəl çirkinə həsr olunur" deyərək ifasına başladı. Orxanın atası pianist idi. İncəsənətə olan sonsuz sevgisi onu yaxın ətrafındaki hər kəsin rəğbət bəslədiyi birinə çevirmişdi. Həssas qəlbli,mehriban xasiyyətli adam idi. Bir insan tapmazdın ki,onun haqqında nə isə pis bir söz desin. O,öz həyat yoldaşı,Orxanın anası ilə də İncəsənət universitetində təhsil alarkən tanış olmuş,bəstələrinin çoxunu "həyatımın günəşi" deyə adlandırdığı qadınına həsr eləmişdi.Orxan sevgi ilə qurulan ailədə böyümüşdü. Amma heyif ki,yaxşı insanlar çox yaşamırdı..Bəlkə də dünya,onlara layiq olmadığını qəbul edib daha gözəl bir diyara bilet verirdi..Kim bilir? Harda olur olsun,nə qədər uzaqda,tək hiss edirsə etsin atasının "Allahın varlığını unutmadığım müddətcə heç vaxt tək qalmayacaqsan" cümləsi onu ayaqda tutur,qəlbini isidirdi. Heç kəs təsəvvür edə bilməzdi ki,onlar ata oğuldur.Hər həftə sonu futbol,boş vaxtlarında şahmat,musiqi dərsləri,saatlarla söhbət hər ata oğula qismət olmayan şeylər idi..Atasını itirdikdən sonra anası xəstə düşmüşdü. Ev xərcləri,anasının iynə dərmanları hamısı pul tələb edirdi. Məcbur qalıb atasından geriyə qalan tək yadigarını,uşaqlıq xatirələrini özündə həbs edən pianosunu satmışdı. Uzun

müddət idi ki,barmaqları piano ilə dərdləşmirdi. Bunun bir neçə səbəbi var idi. O,həm vaxtının böyük hissəsini işinə xərcləyirdi,həm də çəkinirdi ki,yenidən onunla məşğul olsa bütün acı xatirələri canlanacaq. Fərəh üçün beynində günlərlə notları bir-biri ilə qarşılaşdırmış,bəyənəcəyi bir şey ortaya çıxarmaq üçün beş-on dəqiqəlik vaxt tapdıqca gəlib burda gizli-gizli məşq etmişdi. Onun əsas qorxusu Fərəhin bəyənməyəcəyindən deyildi..Sadəcə özü hər bəstəni ona laiq bilmirdi.. Gözlərini yumub ifaya başladığı zaman bəzi yerləri ürəyinə yatsa da,"daha gözəl ola bilərdi" deyib özünü qınayırdı.Arada, bir neçə dəqiqəlik musiqiyə sığdırdığı minlərlə Fərəhli xəyaldan ayılıb onun üzünə baxaraq gülümsəyə bilirdi..Fərəhin gözlərinin yaşardığını gördükcə içi-içinə sığmırdı. Paino sədaları boş zalda elə gözəl aura yaratmışdı ki,Fərəh özünü pəri nağıllarından birinin içinə düşmüş kimi hiss edirdi..Düşünürdü ki,bu ağ atlı şəhzadə onun hansı yaxşılığının qarşılığı olaraq bəxş edilmişdi? Bütün bunlar gerçək idimi? Yoxsa sadəcə bir yuxumu?

Orxan ifasını bitirdikdən sonra Fərəhin düz önündə dayanıb dizlərinin üzərində oturdu. Əllərindən tutub yaşla dolu gözlərinə baxdı. Fərəh sözə başladı :

- Sən..Bütün bunlar mənim üçündür?
- Kaş daha artığını edə bilsəm..
- Çox gözəl idi..Çox gözəl ifa edirdin.Məncə bunun arxasınca getməlisən..
- Arxasınca getdiyim gözəllikdən çox məmnunam
- Zarafat etmirəm..
- Elə mən də..Fərəh ,sən olmasan bir mənası olmayacaq,başa düşürsən? Sənə dənizləri verə bilməyim üçün bir damlana ehtiyacım var..
- Adı nədir bu bəstənin?
- Çirkin
- Nədi?
- Bəstənin adı belədir

Fərəh gülüşünü gizlədə bilmirdi.İlk dəfə idi ki,biri onun üçün bu qədər dəyərli bir hədiyyə hazırlamışdı. Orxana tərəf yaxınlaşıb alnını-alnına birləşdirərək gözlərinin içinə baxdı..

- Bu vaxta qədər harda idin ?
- Səni gözləyirdim
- Yalançı..

Evə qayıdarkən  Orxan bir az ailəsindən,köhnə həyatından,uşaq vaxtı nə qədər dəcəl olduğundan danışdı. Fərəh,Orxanın səkkiz yaşında olarkən saçlarının

buruq və qıvırcıq olduğunu,uşaqlarla oynayarkən saçına saqqız yapışdığı üçün anasının saçlarını keçəl kəsdirdiyini eşidəndə qəhqəhə çəkib gülmüşdü.

- Bu mənim uşaqlıq dramımdır,niyə gülürsən axı?
- Sırf qızlar güləcək deyə utandığından iki həftə çölə çıxmamağı düşünə bilmisənsə çox da uşaq sayılmırmışsan amma..
- Mmm,yaxşı,sən danış görək sənin uşaqlığın necə keçib?
- Mənim uşaqlığım da fərli başlı keçməyib heç. Həmişə döyülürdüm. Həyətimizdə sözü keçən qızlar var idi,anaları çox həyasız olduğuna görə anam onlarla üz-üzə gəlmək istəmirdi. Mənə də tapşırırdı ki,nə desələr,nə etsələr səsimi çıxarmayım. Mən də,məlum məsələdir ki,bunun tam əksini edirdim. Qızlar nəyisə etməyimi istəyəndə etmirdim.Məndən böyük olduqları üçün saçımı filan yolub yerə yıxırdılar amma özümü əzdirmirdim.
- Qürur abidəsi

Orxan Fərəhin saçını qarışdıraraq güldü.

- Nə etməli idim? Mən elə indi də eləyəm. Yəni sonunu fikirləşib qorxmuram. Nə olar olar. Təki özümə olan hörmətim itməsin.
- Ey..Göyə bir bax..
- Nə qəşəngdir..

Göydə bir dənə də olsa bulud yox idi. Qış olduğu üçün hava tez qaralmış, bütün ulduzlar səmanı bəzəmişdi.

- Ulduzların hərəkətinə inanırsan?
- Arzu tutmağı deyirsən?
- Hə
- Nə bilim..Ümid verici bir inamdır sadəcə..Ümidi kəsilənlərin son çırpınışları kimi..
- Birdən biz bir- birimizdən tamam uzağa düşsək,məni görmək üçün dilək tutmazdın?

Orxan Fərəhdən bir addım arxada dayanmışdı. Qulağına əyilib yavaşca dedi:

- Biz səninlə heç vaxt ayrılmayacağıq.Uzaq məsafələr həmişə ulduzların yanında aciz qalacaq.Həyat səni məndən nə qədər uzağa atsa,hər gecə eyni ulduzların altında səninlə görüşəcəyik.
- Eyni ulduzun altında..Filmdəki kimi,hə?
- Hə..

Fərəh gülümsəyərək arxaya çönüb Orxanın üzünə baxdı..”Hmm” deyib əlini

irəliyə uzadaraq mənalı mənalı gülümsəyib dedi:

- Okay?

Orxan bunun nə demək olduğunu dərhal anladı.Fərəh onun ən sevdiyi filmdən bir cümlə seçmişdi..

- Okay..

Fərəhin əlindən tutaraq özünə doğru çəkib gözlərindən öpdü..Eyni ulduzların altında,Orxanın əvvəlcədən ifa edib telefonuna yazdırdığı bəstəsinin küçəyə yayılan əks sədalarında addımlayaraq küçənin qaranlığında gözdən itdilər..

***

- Səhərin gözü açılmamış siqaret yandırılıbsa sıxıntı var , hm ?

Deyib Müşfiqin yanına oturdu Orxan.

- Desəm inanmazsan

- Yenə də bir sına məncə

- Birinə aşiq oldum

- Sən?! Aşiq olmaq ?!

- Nədi ə ? Biz adam deyilik ?

- Doğurdan deyirsən ?

- Orxan , bir görəsən , İlahi, adam nə təhər qəşəng olar. Qurban olduğum Allah ayrıca yaradıb elə bil..

- Oo , sən əməlli başlı tutulmusan ki

- Hələ məni belə hazırlıqsız tutan olmamışdı. Zümrüd kimi gözləri var..

- Danış görək , bir nədir nəçidir?

- O nə təhər cümlədi ə? Qız anası kimi !

Orxan möhkəm güldü.

- Əşi yəni demək istəyirəm ki, harda gördün ,necə tanış oldun da !

- Tanış olmaq nədi a kişi ? Yan avtobusda idi , gözüm sataşdı bir anlıq

Orxan mənasız ifadəylə Müşfiqin üzünə baxdı.Ayağa qalxıb boynunun dalından bir şillə vurub "mən də deyirəm nə deyir" deyərək çıxıb getdi. Müşfiq siqaretini söndürüb arxasınca qaçdı.

- Yoxe , mən o qızı  tapmalıyam.

- Düş şəhərin canına

- Yaxşı da , məzələnmə ,  həqqi deyirəm.

- Başın xarab olub sənin ? Avtobusda  bircə dəfə gördüyün qızı necə tapmağı düşünürsən ? Özü də yan avtobus a , eyni də deyil

- İnanmırsan amma mən onu tapacağam , görərsən!

- Allah köməyin olsun , qardaş. Amma tapanda çalış baxmaqdan başqa da nəsə edəsən.

Müşfiq həqiqətən aşiq olmuşdu.  Hər gün  tezdən dayanacağa bir saat tez gedib avtobusa minən düşən sərnişinlərə baxıb həmin qızı axtarırdı. İşdə fikri dağınıq , iştahasız , fikirli-fikirli gəzirdi.

- Necədir işlər  ?

- Qazı qaçmış kola kimi

- Qismət  deyilmiş deməli , ürəyini sıxma. Elə bir şey imiş,  görməli imişsən, olub bitib.Həm də heç bilmirsən ki, kimdi. Bəlkə nişanlıdır ya da evli ?

- Onu tapmayana qədər bilmək olmayacaq bunları

- Tapsan nə deyəcəksən yaxşı ?

- Hələ fikirləşməmişəm

- Əla..

- Səncə mən sevilməyə dəyməyəcək qədər dəyərsiz biriyəm ?

- Əlbəttə ki, yox, dəli olmusan ?

-  Bəs niyə nə vaxt biraz xoşbəxtlik hiss etsəm burnumdan gəlir ?

- Yaxşıların qələbəsi uzun çəkmir çünki

- Mən..nə bilim vallah , hərdən fikirləşirəm e , ki , həyatım necə olacaq , nə vaxta qədər  davam edəcək bu əziyyətlər , yəni nə vaxtsa düzələcək? Yoxluğunu hiss elədiyim nə isə var elə bil. Həmişə bir şey çatışmır amma bilmirəm nə ? Biri olsa pis olardı yəni ? Yorğunluğunu dizlərində unutduğun biri olsa məsələlən ? Nə bilim  , evdə səni gözləyən biri , səni görəndə sevinən biri..hərdən də deyirəm əşi olsa nə olacaq ? Sənin sözün olmasın , nə verə biləcəm güya ?

- Elə bu sözlərin nəyə desən dəyər. Gözü yuxarıda olan qadın nəyimə gərəkdi e qardaş ? Keçən dəfə  nə qəşəng dedin , başa saldın , yadında deyil ? Eyni şeyləri özünə də xatırlat da arada. Pulun,varın, dövlətin olsa da içində mərhəmət,sadiqlik, sevgi yoxdursa neynirəm o gəzən boş bədəni ? Barış Manço demişkən ; "yaz dostum , güzel sevmeyene adam denir mi?"

- O da düzdü..Nə bilim əşi , Allaha pənah.

Bir inanca görə  iki insan əgər bir-biri üçün yaradılıbsa onlar bir-birinə görünməz iplə bağlı olur. Dünyanın iki ucunda da olsanız ,  bir addımlıq məsafədə belə dayansanız , ya da həyat qarşınıza dayanmadan maneələr çıxarıb sizi ayırmağa çalışsa o ip yavaş-yavaş naziklәşəcək amma heç vaxt qopmayacaq , ta ki , o iki insan qovuşana qədər. Müşfiq də hər səhər dayanacaqda gözləməyə davam etmişdi. Ta ki, ipin digər ucunu tapana qədər.Və tapmışdı da. Ümid..Həqiqətən sonda ölürdü..Müşfiqin bəxti bu dəfə gətirmişdi. Hər gün qızın qarşısına çıxmış , sözləri və hərəkətləri ,kiçik sürprizləri ilə diqqətini çəkmiş , ürəyində özünə yer tapa bilmişdi.. Hər gün baş verənləri Orxana elə həvəslə danışırdı ki , Orxan bu böyük uşağın həyəcanları qarşısında gülüşünü gizlədə bilmirdi. Həyat deyəsən erkən yaşda çox sınağa çəkdiyi bu iki dostun üzünə gülmək istəyirdi.

- Mən bu fürsəti  qaçıra bilmərəm.Evlənəcəyəm onunla..Tez bir zamanda

- Hələ bir görək qız qəbul edəcəkmi? Biraz hövsələn olsun. Dünən bir, bu gün iki.Hara tələsirsən?

- Birdən bezdi məndən ? Çıxıb getdi ? Bu nə itirmək qorxusu imiş a kişi? Bunu da təzə öyrəndik..

- Zamanla öyrəşərsən

- Təcrübəlimiz sənsən də. Elə deyirsənsə elədir

-Yaxşı , yaxşı . İşə başlamaq lazımdı. İnanmıram ki , müdirə ortada Məcnun kimi

gəzən iki işçi lazım ola.

Müşfiq sözündən dönməmişdi. Çoxdandır kənara atdığı "yaman günlük " pulu var idi .Dost tanışdan birazda alıb üstünü düzəlti və yola Şəhla ilə davam etməyə qərar verdi. Toy hazırlıqları gedən zaman Orxan bir ara vaxt tapıb Müşfiqlə Fərəhi tanışdırdı. Həyatında bu iki dəyərlidən başqa heç kimi yox idi .  Müşfiqlə Fərəhin xasiyyətləri bir-birinə çox bənzəyirdi deyə tez qaynayıb qarışmışdılar. Müşfiq onunla təklikdə qalanda Orxanın ən əsəbləşdiyi və sevdiyi şeyləri Fərəhə demişdi. Dəfələrlə ikisi bir olub Orxanın başına oyun açmışdılar. Orxan hərdən çox hirslənib özündən çıxsa da ikisinin də həyatında olmalarından çox məmnun idi.

- Hə , Fərəh , bax Orxanın belə işləri də var ha , sonra demə ki , bilmirdim

- Nə danışırsınız yenə ? Fərəh , sən Allah nə dedi ?

- Orxan , bilirsən , mən öyrəndiyim bu həqiqətlərdən sonra səninlə davam edə bilmərəm.Bağışla , amma biz ayrılmalıyıq.

Orxan gah Fərəhə, gah Müşfiqə baxıb nə olduğunu anlamağa çalışır nə deyəcəyini bilmirdi. Orxanın həmin anki üz ifadəsini görən Müşfiqlə Fərəh bir-birinə baxıb qəhqəhə çəkərək güldü.

- Haha. Nə gülməli şey oldu ?

Fərəh Orxanın həyəcanlandığını gördüyü zaman tez yanına gedib onu qucaqlayır , kədərlənməsinə qıya bilmirdi. Orxan  bu qədər stress keçirməsinə baxmayaraq hər dəfə Fərəhin üzündəki gülüşə məğlub olurdu.

- Hə , Müşfiq , harda qaldı Şəhla ?

- Nə bilim vallah , sən daha yaxşı bilərsən. Nə qədər olmaya sən də qadınsan , fikirləş gör niyə gecikmiş ola bilər ?

- Yəni , bir neçə ehtimal var.Ya paltar seçə bilməyib , paltar seçibsə ona uyğun ayaqqabı tapmayıb ya da tam çıxa-çıxda ikisini də bəyənməyib geri qayıdaraq yenidən seçməyə başlayıb.  Hələ bunun saçı var , makiyajı var , dırnaq boyası var. Biri pozulsa gərək hamısını yenidən dəyişəsən.

- Zarafat edirsən?

Fərəh qaşlarını qaldırıb dodağını büzərək başı ilə "yox" dedi.

- Hə ,  gəlir , baxın arxada.

Çönüb küçənin başından tələsik addımlarla gələn Şəhlaya baxdılar. Vəziyyət deyəsən tam olaraq Fərəhin dediyi kimi idi. Üzündəki narazı ifadə qadınların əsasən istədikləri nəticəni əldə edə bilmədikləri zaman aldığı ifadə ilə eyni idi.Şəhla bağçada müəllimə işləyirdi. Uşaqlarla arası çox yaxşı olduğundan düşünürdü ki , bu iş onun üçün ən yaxşısıdır. Gülərüz, mehriban xasiyyətli, simaca gözəl bu gənc qız bir dəfə nişanlanıb ayrılmışdı. Müşfiq bunun səbəbini soruşduğu zaman isə həmin oğlanla ailəsinin zoru ilə nişanlandığını, pulu olsa da adamlığı olmadığını,  buna görə də onunla yollarını ayırdığını demişdi. Şəhlanın bu qərarı Müşfiqin içindəki bəzi şübhələrə cavab olmuş, elə həmin gün ona evlənmə təklif etmişdi.Düşünürdü ki , Şəhla , ona Allah tərəfindən göndərilən hədiyyədir.

- Bu da mənim Şəhlam , dostlar

Orxan Şəhlanı daha əvvəl şəkildə görmüşdü. Haqqında da Müşfiqdən o qədər çox şey eşitmişdi ki , qızı qırx ildir tanıyırmış kimi hiss edirdi. Bir-birləri ilə tanış olduqdan sonra şəhərdə biraz gəzib dəniz kənarında bir kafedə oturub söhbətləşdilər.Evə qayıdanda Müşfiq Şəhlanı evlərinə aparmaq üçün Orxangildən ayrıldı.

- Çox gözəl qızdır

- Əsas odur ürəyi gözəl olsun. Müşfiqi xoşbəxt etsin

- Müşfiq də həmçinin ! – Fərəh gülümsəyərək dedi

- O dəqiqə feministlik ruhun ortaya çıxır da !

- Düzünü deyirəm. Əgər bir yol varsa iki insan üçün,  ortadaki daşları hər ikisi də təmizləməlidir ki , yeriyə bilsinlər.

- Razıyam..

- Toyun vaxtı dəqiqləşdi ?

- Gələn aya gün götürüblər .Qismət olsa..

- Nə gözəl..

Fərəhin asta səslə dediyi bu cümlə Orxanın diqqətini çəkdi. İndiyə qədər o , evlilik barədə heç nə düşünməmişdi amma Fərəhin bu cavabı onun qəlbində

qəribə hisslər doğurdu..Yəni , bu gerçək ola bilərdimi? Fərəh onunla evlənməyə razı olardımı?

- Fərəh..

- Hə ?

Fərəh dayanıb arxadan onu izləyən Orxana tərəf çöndü.

- Nə olub?

Orxan fikirli şəkildə onun üzünə , gözlərinə baxırdı.

- Yaxşısan ?

- Hə..Hə , soruşacaqdım ki..

- Nə?

- Ad günün nə vaxtdır?

- Nə əlaqə ? Hardan ağlına gəldi ad günüm ?

- Nə bilim, elə belə..

Orxan evlilik haqqında nə isə deməyə cəsarət etmədiyi üçün bu sualı uydurmuşdu.

- Martın 12 - si.

- Hə..

Fərəh Orxanın qəribə suallarına və üzündəki qəfil dəyişikliyə bir məna verə bilmədi.

- Gedək daha ?

- Yaxşısansa hə

Orxan Fərəhi evlərinə ötürdükdən sonra öz evinə tərəf yollandı. Yol boyu düşünüb ən sevdiyi insanla bir gün eyni evdə yaşamağın mümkün olub olmadığını özünə sual verdi..

Fərəh evə gəldiyi zaman həyətdə qardaşı Yusifi gördü.Bu gün Fərəhgilin yanındaki mənzilə yeni qonşular köçmüşdü. Yusif hasarın arasından kiçik

məsamələr tapmağa çalışırdı.

- Ey,neynirsən orda?

Yusif bacısının səsini eşidib səksəndi.Arxaya çəkilib utandığını bəlli etmədən üst başını düzəltməyə çalışdı.

- He..heçnə,topumu axtarırdım
- Divarın arasında?
- Elə bildim oralara bir yerə düşüb
- Top düz arxandadı,Yusif. Camaatın evinə niyə baxırsan? Ayıbdır !

Yusifin yanaqları qıpqırmızı qızarmışdı. Bacısından daha çox tənbeh eşitməmək üçün evlərinə qaçdı.Fərəh də asta-asta arxasınca evə girdi. Məlahət xala hələ işdən dönməmişdi.Yuyulmalı qablar,səliqəyə salınmalı ev Fərəhi gözləyirdi.. "Əla.." deyib narazı üz ifadəsi ilə işə başladı. Yusifin bayaqki hərəkətləri Fərəhə hələ də qəribə gəlirdi. O ki,belə uşaq deyildi ? Narahat idi ki,görəsən onun bu addımına nə səbəb olub? Məlahət xala uşaqların üzərində çox titrəyirdi. Yusifi öz həyətlərindən qırağa buraxmır,bərk-bərk tənbeh edirdi ki,Fərəh ya da özü gələnə qədər evdə otursun,uzaq başı öz həyətlərinə çıxsın.Səhəri gün Fərəh oyanıb evdən çıxmağa hazırlaşanda Yusifi yenə oyanmış halda gördü. Bu qeyri normal hal idi.Yusif bu saatları həmişə yuxuda olur Fərəh universitetə getdikdən 3-4 saat sonra oyanırdı. Qapının qırağından gizlincə qardaşına baxdı. Yusif paltarlarını geyinib,yatağını yer yığış etmişdi. İndi də güzgünün qabağında dayanıb balaca əlləri ilə saçını sağa-sola sığallayaraq nələrsə alındırmağa çalışırdı. Fərəhi gah gülmək tutur, gah da gözlərinə inana bilmirdi. Bu uşağa nə olub axı? Yusif arada pəncərədən çölə boylanır,sanki kimisə,nəyisə gözləyirdi.

- Nəyə baxırsan?

Fərəh barmağını dodaqlarına yapışdırıb səssiz olması üçün anasına işarə edərək onu yanına çağırdı. Məlahət xala da oğlunun bu halını görəndə təbəssümünü gizləyə bilmədi.

- Anan quban sənə..
- Nə olub ona?
- Bu təzə köçən qonşularımız yoxdu? Onların balaca qızları var.Dünən mən işə getməmişdən əvvəl anası ilə qız qapımızı döyüb hal-əhval tutdu. Bu da qızı qapının arasından görüb çox bilmiş-çox bilmiş gülürdü.

Fərəh səsini tuta bilməyib möhkəmdən güldü. Yusif səsi eşidib tez yerinə uzanıb üstünü örtdü. Fərəh otağa girib Yusifi qucağına alaraq möhkəm qucaqladı..

Universitetə gedərkən yol boyu qardaşının hərəkətlərini,kiçik həyəcanlarını,uşaq qəlbini düşünüb gah gülümsədi, gah duyğulandı.

- Qızdan xoşu gəlibmiş sən demə?
- İlk baxışdan özü də..

Dərsdən sonra universitetin yaxınlığındaki parkda oturub söhbətləşərkən Fərəh səhər olanları Orxana danışmışdı.

- Neçə yaşı var Yusifin?
- Altıya keçib bu il

Orxan yaşını öyrənən zaman daha ürəkdən gülümsəyib,dünyada hələ də bu cür saf və məsum bir şeylərin qaldığını düşünərək sevindi..

- Müşfiqdən nə xəbər?
- Bu gün işə gəlməmişdi. Nə isə işləri var imiş Şəhla ilə.Adam ciddi-ciddi evlənir
- “Gəlinin yaxın rəfiqəsi” danışığının ilk cümləsinə oxşadı

Bir-birlərinə baxıb güldülər

- Yən,evlilik başqa bir məsələdir.Nə qədər olmaya əvvəlki münasibət qalmayacaq. Sıradan biri olsa nə isə də,söhbət Müşfiqdən gedəndə məsələ biraz çətinləşir
- Çox yaxın olmusunuz axı,belə hiss etməyin normaldır
- O olmasa məhv olardım indiyə qədər. Yeri gələndə həm analıq, həm atalıq edib mənə.Nə bilim,inanmıram ki,onun kimi başqa biri mövcuddur dünyada.İndi düşünəndə ki,o olmayacaq..
- Mən varam..

Orxan başını yerdən qaldırıb Fərəhin gözlərinə baxaraq ovucundan öpdü:

- Yaxşı ki..
- Sənə bir hədiyyəm var
- Ooo,doğurdan? Nə münasibətlə?
- Bəzi şeylərin gözəlliyi,onların səbəbsiz yerə edilməsindədir.

Fərəh çantasından bir kitab çıxarıb Orxana uzatdı.Bu, Orxanın izlədiyi zaman çox sevdiyini söylədiyi “Eyni ulduzun altında” filminin kitabı idi.

- Eşitdim ki,bunu bəyənmisən.Deyirlər kitabı daha maraqlıdır.
- Çox gözəl hədiyyədir,çox sağol.Bu gündən oxumağa başlayacağam.

Fərəh gülümsəyib ayağa qalxdı. Evə getmək lazım idi. Neçə gündür evə gec getdiyi üçün anası narazılığını bildirmişdi. İstəmirdi ki,yenə söz söhbət olsun.

Orxan evə çatana qədər kitabı oxumağa davam etdi. Fərəh düz deyirdi,həqiqətən filmlər kitabdaki gözəlliyi öldürürdü. Evə çatdığı zaman belə kitabı əlindən yerə

qoymadı. Hər səhifəni oxuduqca sonuna olan marağı artırdı. Kitab qucağında yuxuya getmişdi. Gözləri və beyni elə yorulmuşdu ki,Fərəhin zənginə belə oyana bilməmişdi.

***

- Ey..

Universitetin həyətində oturub, Fərəhi gözləyərkən kitab oxuyan Orxan səksəndi.

- Salam..
- Nə olub?
- Heçnə,nə olacaq ?
- Hardasa on dəqiqədir ki,sənə baxıram və sən on dəqiqədir eyni səhifədə ilişib qalmısan. Kitab sevən biri üçün bu normal hal deyil. Ya fikrin başqa yerdə olduğu üçün oxuduğunu anlamayıb yenidən başlamısan ya da ümumiyyətlə oxumurdun.
- Bilirsən,sən burda heyif olursan,peşəkar dedektiv ola bilərdin..

Fərəh gülümsədi.

- De görək,nə olub? Niyə fikirlisən?
- Bilmirəm,kitabdandır deyəsən..Düşünəndə ki,dünyada həqiqətən bu cür insanlar var, nə qədər naşükür olduğumu daha yaxşı başa düşürəm.
- Hər həyatın özünə görə ağırlığı var. Hərə öz çətinliyində boğulur. Bəziləri xəstə olub ölümü gözləyir,bəziləri də ölümün doğmalarını əlindən almasına baxır və ən acınacaqlısı budur ki,əlindən heçnə gəlmir.Səncə hansı daha ağırdır?
- Doğmalarını itirmək..
- Hə..Nə isə!

Fərəh Orxanın əlindəki kitabı bağladı.

- Bu qədər bədbinlik kifayətdir məncə.Qalx gedək..

Orxan ayağa qalxan Fərəhin əlindən tutub yavaşca aşağı çəkdi. Fərəh yenidən əyləşdi.

- Hərdən olur,istəyirəm kimsə məni bağışlasın. Bağışladığını desin. Elə tək hiss edirəm ki,özümü. Fikirləşirəm ki,bu dünya mənsiz daha yaxşı bir yer olar. Varlığımla yoxluğum arasındaki fərqi görə bilmirəm.İstəyirəm biri tərəfindən sevilim.Fərqi yoxdur,yaxın ya uzaq..Lap elə tanımadığım biri olsun amma özümü az da olsa dəyərli hiss edim.Uşaq kimi danışıram,hə ?

Amma,çirkin, iş orasındadır ki,mən sənin yanında olarkən həqiqətən uşaqlaşıram. Müdafiə qalxanlarımı endirirəm,qorumuram özümü heçnədən.Zərər belə verəcək olsan,bu məni qorxutmur. Əgər ruhum əvvəl axır incinəcəksə,istəyirəm buna səbəb sən olasan..” Hazel Grace, narahat olmağa dəyməz,qəlbimin sənin tərəfindən qırılması bir qürurdur..”

Fərəhin yaşla dolmuş gözləri kitabdan götürülmüş son cümlə ilə gülümsədi..Qəribə idi,onların arasında olan münasibətdə bir qəlbi qırıqlıq var idi..Bir hüzün,bir inciklik.Bəlkə də,onları bir-birinə bağlayan şey də tam olaraq bu idi.Allah hüzünlü qəlbləri sevər..

***

Mart ayının nə vaxtdandır gözlənilən günü gəlib çatmışdı.Hər tərəf bəzədilmiş,bəy və gəlinin yaxınları həyəcanlı şəkildə sağa-sola qaçıb yarım qalan işləri tamamlamağa çalışırdı.

- Hazırsan?
- Hə,hə ,iki dəqiqəyə çıxıram

Fərəh bu cümləni artıq dördüncü dəfə idi ki,təkrarlayırdı.Küçədə onu gözləyən Orxanın artıq üsyan edəcəyini düşünüb tələsik ayaqqabılarını geyindi. Son dəfə güzgüyə baxıb çox da ürəyincə olmayan saç düzümü və makiyajına göz gəzdirib evdən çıxdı.

- Gəldim,gəldim.

Yola tərəf baxan Orxan arxaya çönüb Fərəhi görəndə bir neçə saniyə heçnə deyə bilmədi. Fərəhi ilk dəfə idi ki,bu qədər fərqli görürdü. Zərif ziyafət paltarının içərisində,o, ifadə olunmayacaq gözəllikdə görünürdü.Fərəh də ilk dəfə idi ki,Orxanı kostyumda görürdü. Saçları arxaya daranıb “jelelənmiş” , saqqalı təmiz qırxılmışdı. İkisi də bir-birlərini görən zaman donub qalmışdı. İçlərində öz-özlərinə danışıb nə qədər şanslı olduqlarını təkrarlayırdılar. Orxan əlində tutduğu bir ədəd qızılgülü Fərəhə uzadıb qulağına əyilərək “çox gözəlsən” dedi..Fərəh belə vəziyyətlərdə hər dəfə ürəyinin sürətlə atmasına əsəbləşirdi. Çünki belə olduğu zaman əlləri və səsi titrəyir,həyəcanını gizləyə bilmirdi.

- Sən də

Orxan qaşlarını çatıb güldü.Fərəh seçdiyi sözün yanlış olduğunun fərqinə vardığı zaman daha çox utandı.

- Yə..yəni yaxşı görsənirsən.O mənada dedim..

- Çox sağol..

Orxan Fərəhin belə müdafiəyə möhtac uşaq  hallarını görməyi çox sevirdi. Düz Fərəhin yanında dayanıb qolunu bir az qırağa tərəf araladı. Fərəh heç öyrəşə bilmədiyi hündürdaban ayaqqabılar üzərində ayağını burxa-burxa yeriməyə çalışır, hər özünü düzəltdiyi zaman Orxanın üzündəki gülüşü görüb daha çox qıcıqlanırdı.

- Niyə gülürsən? Geyinmisən ayağına alçaqdaban ayaqqabı,rahat-rahat gəzirsən. Gəl bunda yeri görüm yenə gülə biləcəksən ya yox?!
- Başa düşmürəm,axı səni nə vadar edir ki,bu cür narahat ayaqqabı geyinib özünə əziyyət verəsən?
- İdman ayaqqabısı ilə getməyəcəkdim ki, toya?!
- Hər halda daha rahat və alçaqdaban ayaqqabı tapmaq olardı
- Qadın olsan hər şeyin dediyin qədər asan olmadığını başa düşərdin. Amma deyilsən!
- Şikayətim yoxdur

Orxan hər nə qədər Fərəhin hərəkətlərini görüb gülsə də,hər dəfə əlini tutmağa fürsət tapdığı üçün özünü xoşbəxt hiss edirdi. Küçənin başında onları gözləyən taksi ilə Müşfiqgilin evinə yollandılar.

***

Müşfiq aynanın qarşısında dayanıb saçına səliqə verə-verə telefonda danışırdı. Otağa daxil olan Orxanla Fərəhi aynadan görüb telefon danışığını sonlandırdı. İkisi ilə də qucaqlaşıb hal-əhval tutdu.Fərəh iki dostu biraz yalnız qoymaq üçün üz-gözünə əl gəzdirəcəyini bildirib otaqdan çıxdı.

- Hə,necə görsənirəm?
- Bəy kimi!
- Elə sən də məndən fərqlənmirsən. Mənə bax,bu məsələ də ağlımdadır ha,elə bilmə ki,unutmuşam,toyu yola verim,səni də evləndirməsəm adam deyiləm.

Orxan gülərək Müşfiqi bir daha qucaqladı.Pəncərə qırağındaki yatağın üzərində əyləşdilər.

- Səncə düz addım atıram?
- Nədir,şübhən var artıq? Mənə bax,son anda fikrindən yayınmaq kimi bir axmaqlıq düşünmürsən,hə?
- Səy-səy danışma, ə, əlbəttə ki,yox..Sadəcə əmin olmaq istəyirəm

- Əmin olacaq nə isə yoxdur.Qapına qədər gələn şansı əlinin tərsi ilə geri çevirmək axmaqlıq olar. Şəhla yaxşı qızdır,onunla yoluna davam etsən mənim də gözüm arxada qalmaz. Belə şeyləri ağlına gətirmə.Ayda ildə bir dəfə həyat üzümüzə gülür,dəyərləndirmək lazımdır.
- Düz deyirsən,lənət şeytana..
- Şəhla ilə danışmısan? Hazırdır hər şey?
- Hə,hə,hardasa yarım saata çıxacağıq.
- Müşfiq,mənə bax,bu uşaq oyunu deyil.Həyat yoldaşı başqa,sevgili başqa. Hər kiçik şey üstündə ayrılmaq,nə bilim, çətinlik düşən kimi qaçmaq bizə yaraşmaz. Bu gün tutacaqsan onun əlindən,bir də ta məzara qoyulanda buraxacaqsan,eşitdin? Eşitsəm ki,ailənə qarşı məsuliyyətsiz davranırsan,incidirsən,bax, boyuna yaşına baxmadan alaram ayağımın altına.
- Qız hələ gəlməmiş tərəf dəyişdirdin ki,dost-dosta tərəf olar ,a kişi!

Müşfiq sadəcə zarafat edir,başa düşürdü ki,Orxan nə demək istəyir.

- Anladın da özün
- Narahat olma,hər şey yaxşı olacaq. Gör Fərəh harda qaldı,bizimkilər qızı sorğu suala tutub mütləq.

Orxan Fərəhi axtarmaq üçün otaqdan çıxan zaman Müşfiq yenə aynanın qarşısına keçib deyəcəyi sözləri fikirləşdi.

- Siz Orxanla nə vaxt tanış olmusunuz?
- Mmm,bir neçə aydır.
- O çox yaxşı oğlandır,biz onu lap çoxdandır tanıyırıq,əsl evlənməli adamdır.

Fərəh bilmədi nə desin. Əyləşib ayaqlarına dinclik vermək üçün münasib yer axtarmaq istədiyi zaman Müşfiqin bacısı onu saxlamış,Müşfiqin də dediyi kimi,Fərəhi sorğu suala tutmuşdu.

- Həə..Toy haqqında nə isə demir Orxan? Mənə bax,fikrini öyrənməyə çalışırsan ki,heç ? Evlənmək haqqında filan?
- Iıı..
- Fərəh? Deməli burdasan.Bayaqdan səni axtarırdım. Ayşən necəsən?

Fərəhin sıxılıb qaldığını görən Orxan onlara yaxınlaşıb Fərəhə “kömək əlini ” uzatdı.

- Yaxşıyam,sən necəsən? Fərəhlə də təzə tanış olduq.Bu gündən sizə də qismət olsun inşallah.

- Çox sağol,inşallah. Fərəh, bir dəqiqə mənimlə gələ bilərsən?
- Hə..

Fərəh Orxanın əlindən tutaraq birtəhər bayıra çıxdı.

- İlahi..Çox sağol
- Ayşən biraz maraqlanandır,tanımadığı insanla çox tez qaynayıb qarışır,suallar verir amma özü çox yaxşı insandır.
- Hə,gözəl qızdır,əminəm ki,xasiyyəti də üzü kimidr,sadəcə bilmirdim nə cavab verim
- Nə soruşurdu ki?
- Heç..Havadan sudan..

***

Şəhla hər zaman arzulayırdı ki,onun toyu rostoranda ya da qapalı bir yerdə olmasın. Açıq düzənlikdə, ya da dəniz qırağında sevdiyi insanlarla bir yerdə bu xoş günü qeyd etmək nəyə desən dəyərdi. Müşfiq onun bu arzusunu reallaşdırmağı özünə borc bilmişdi. Yaxın dostlarının köməyi ilə şəhərdən biraz kənarda dəniz sahili sakitlik bir yerdə şirin bir yer kirayə götürüb Şəhlanın istədiyi kimi dizayn etmişdilər. Hava biraz soyuq olsa da hər tərəfdən quraşdırılmış istilik mexanizmləri üşüməyinizə mane olurdu. Hər kəs yavaş-yavaş yığışırdı artıq.Ən yaxın qohumlar,ailələr və yaxın dostlar. Şəhla sadə süd rəngi gəlinliyini geyinib otaqda oturmuş,son hazırlıqlarını tamamlayırdı. Yaxın rəfiqələri ayaqqabısının altına adlarını yazdırır,"selfie"lər çəkilib sosial şəbəkələrdə paylaşılırdı.Saçlarını açıq qoyub xəfif dalğa verdirmiş və gül çələngi ilə tamamlamışdı.Dəhlizdən Müşfiqin səsini eşidib təlaş içində ayağa qalxdı. Rəfiqələrinə tapşırdı ki,nə olur olsun Müşfiqin otağa girməsinə icazə verməsinlər. Gülünü əlində tutub aynanın qarşısında son dəfə özünə baxdı. Və qapını tıqqıldadan Müşfiqin içəri daxil olmasına icazə verdi. Müşfiq Şəhlanın gözəl olacağını təxmin edirdi amma bu qədərini də gözləmirdi. Dili topuq vura-vura bir təhər "sa..salam" dedi..Səhər açılandan bəlkə iyirmi-otuz dəfə danışmışdı Şəhla ilə amma həmin an ağlına salam sözündən başqa nə isə gəlməmişdi.

- Hazırsan?
- Deyəsən..

Şəhlanın əlindən tutub  otaqdan çıxaraq camaatın gözlədiyi yerə gəldilər. Nigah mərasimi gerçəkləşdikdən sonra Müşfiq Şəhlanın gəlinlik duvağını açaraq

alnından öpdü. Hər kəsin tək-tək təbrikini qəbul edib şəkillər çəkdirdilər. Hava get-gedə qaraldıqca mənzərənin gözəlliyi birə-on artırdı. Quraşdırılan rəngbərəng işıqlar özünü göstərir,həzin musiqi insanı tamam uzaqlara aparırdı. Qırada yandırılan ocaq,dəniz dalğalarının səsi,insanların üzündəki rahatlıq və təbəssüm qəlbinizə inanılmaz sevinc və dinclik hissi bəxş edirdi. Orxan Şəhla ilə Müşfiqin arasında dayanıb onlarla xatirə şəkli çəkdirdi.

- Bəs Fərəh hanı?
- İndi gələcək,narahat olmayın.

Fərəh on dəqiqə əvvəl Orxana birazdan qayıdacağını demişdi.Orxan get-gedə narahat olmağa başladı və dayana bilməyib arxasınca getdi. İnsanların arasından birtəhər çıxıb bir az aralıda yerləşən kiçik motelə tərəf yollananda sahilin qırağında,ocağın düz yanında əyləşən Fərəhi gördü.

- Burda nə edirsən ? Donacaqsan..
- Dənizi görmək istədim?
- Nə olub ? Yaxşısan?
- Hə,hə..Yaxşıyam,sadəcə içəri çox səs küylü idi.Uzun müddətdir belə yerlərdə iştirak etmirdim deyə biraz artıq gəldi.

Orxan pencəyini çıxarıb Fərəhin çiyninə dolayaraq onu qucaqladı..

- Elə mən də..
- Bura çox gözəldir,Şəhla çox gözəl düşünüb..
- Hə,mən də belə gözləmirdim.Sənin xəyalın necədir bəs?
- Mən uzun müddətdir ki,xəyal qurmuram

Fərəhin bu cümləsi Orxanın ürəyinə qəribə bir kədər verdi. Fərəhi azca özünə sıxıb saçlarından öpdü.

- Aaa..Eşidirsən ? Bu mənim ən sevdiyim mahnılardan biridir..

Uzaqdan Sam Smith - I'm Not The Only One mahnısının sədaları eşidilirdi. Fərəh tez ayağa qalxıb əlini Orxana uzatdı.

- Qalx,rəqs edək
- Mən bacarmıram
- Qalx dedim!
- Vallah bacarmıram

Fərəh heçnə demədən bayaqdan çıxarıb ocağın yanına qoyduğu hündürdaban ayaqqabılarını da əlinə alıb uzaqlaşmaq istəyəndə Orxan ayağa qalxıb onu saxladı. Əlindən ayaqqabıları alaraq bayaqki yerinə qoyub Fərəhin əlindən

tutaraq özünə çəkdi. Qolunu belinə dolayıb gözlərinin içinə baxdı.

- Belə?

Fərəh musiqinin səsinin get-gedə azaldığını hiss edirdi. Çünki,Orxanın gözlərinə baxan zaman o bu dünyadan sürətlə uzaqlaşırdı..

- Hə..

Əlini Orxanın çiyninə qoyub rəqs etməyə başladı.Başını sinəsinə söykəyib gözlərini bağladı. Orxan qəflətən Fərəhi qucaqlayıb havaya qaldırdı. Olduqları yerdə fırlanıb Fərəhin gülən üzünə baxaraq özü də gülməyə başladı. Film fraqmenti idi sanki hər şey.Hərəkətlər asta çəkim,səmimiyyət real həyatda mümkün olmayacaq qədər gerçək idi..

Mahnı bitdikdən sonra Fərəh ayaqqabılarını geyinib üz-gözünü,saçlarını düzəltdi.

- Pis görünürəm,hə? Külək saçımı dağıdıb təmiz..
- Yox..Bir çirkin üçün normal sayıla biləcək vəziyyətdəsən
- Əl çəkməyəcəksən,hə,o sözdən?

Orxan başını yelləyib güldü.Müşfiq və Şəhlanın yanına gəlib üzrxahlıq etdilər. Şəhla Orxanın Fərəhi qucağına aldığı anın şəklini çəkmişdi.,Şəkil aralıdan çəkildiyi üçün  Fərəhlə Orxanın    siluetləri ocağın fonunda əla görüntü yaratmışdı.Fərəh başını arxaya əymiş,saçlarını havanın ixtiyarına buraxmışdı.

Orxan şərab içən deyildi. Əlinə bir stəkan su götürərək musiqinin səsinin azaldılmasını xahiş etdi və sözə başladı:

- Yadıma düşür biz uşaq olarkən Fərhad dayı (Müşfiqin atası) ikimizi də yanına çağırdı.İsti yay günü idi. Məhəllədə uşaqlarla futbol oynayıb bərk tərləmişdik. İkimiz də qaça-qaça Fərhad dayının yanına getdik. Əlində tutduğu sərin suyu bizə tərəf uzadanda Müşfiq birinci əlini uzadıb suyu almaq istədi. Fərhad dayı suyu Müşfiqə verib “nə etməli olduğunu özün bilirsən” dedi. Müşfiq gah mənə baxdı, gah suya, gah da atasına. Sonda suyu içməmiş mənə uzatdı.Uşaq ağlı,həmin dəqiqə götürüb suyu içmişdim.Bir iki il keçdikdən sonra düşünürdüm ki,həmin gün Fərhad dayı mən Müşfiqdən balaca idim deyə,suyu ilk mənə verməsini işarə etmişdi. Biraz daha böyüyüb həyatı dərk etməyə başladığım zaman isə bu hadisə gözümdə daha başqa məna qazanmışdı. Həmin gün Fərhad dayı məni Müşfiqə tapşırmışdı.Və o bir cümlə ilə başa salmışdı ki,əlində olanı ilk qardaşınla böləcəksən,bir təhlükə varsa ilk onu qoruyacaqsan. Öz

canın bahasına da olsa. Müşfiq bütün bunları bir gün belə olsun unutmadı.Həyatın ən dözülməz anlarında belə ilk məni yoxladı,öz dərdini unudub mənim dərdimə çarə axtardı.Bu qardaşlıq deyildi,dostluq heç deyildi. Bu tamam başqa bir şeydir. Adını hələ də tapa bilməmişəm. Bu gün burada dayanıb danışıramsa bunun başlıca səbəbkarı da elə Müşfiqin özüdür,təbii ki,təkcə bəy olduğuna görə yox (gülür). Bütün dözülməz tərəflərimə rəğmən məni adam etməyə çalışmaqdan bir an belə əl çəkmədiyinə və bu ehtimala inandığına görə sənə minnətdaram.Xoşbəxtlik ? Bu, tam olaraq nədir,həqiqətən bilmirəm,amma sənin gözündə,sənin aləmində,sənin arzularında hər nədirsə onu doya-doya yaşa.Səni sevirəm!

Müşfiq bildirməyə çalışmadan cəld hərəkətlə yaşarmış gözlərini sildi.Hamı ilə birlikdə alqışlamağa başladı.Orxana yaxınlaşıb onu möhkəm qucaqladı. Günün sonunda  Müşfiq Şəhlanı qucağına alıb alqış sədaları altında evlərinə yola düşdü.

- Gözəl gün idi..
- Hə,çox gözəl idi
- Bura elə gözəldir ki,evə getmək içimdən gəlmir
- Bəlkə getməyək?
- Hə,səhər bütün şəhərə “axtarışdadır” elanımı yapışdırsınlar. Anam da düz əməlli şəklimi seçməz,harda ən pis düşdüyüm şəkil varsa onu göndərər çapa. Bunu gözə ala bilmərəm!..
- Aman Allah..

Bir-birlərinə baxaraq güldülər

- Nə isə daha gedək,həqiqətən gecdir

Yol boyu Orxan başını çiyninə qoyub yuxuya gedən Fərəhin əlindən tutaraq onu izlədi.Fərəhi itirmək ehtimalını düşündükcə bədənindən üşütmə keçir,bunun bir gün gerçəkləşə biləcəyini düşündükcə dəli olurdu.Bir şey etmək lazım idi. Nağıl kimi keçəcək bir həyatı peşmanlıqla keçən ömürlə əvəz etmək olmazdı. Fərəhin doğum gününə sayılı günlər qalmışdı. Düşünürdü ki,nə etsə onu xoşbəxt edə bilər? Fərəh kiçik şeylərlə xoşbəxt olmağı bacaracaq nadir insanlardan biri idi. Onun üzünün həqiqətən gümüsəməsi üçün bircə səmimi cümlə bəs edirdi. Orxan istəyirdi elə bir şey etsin ki,bir günlük də olsa Fərəh bütün dərd sərini,yaşadığı bütün kədəri,qəmi unutsun.

- Fərəh..

Üzünü sığallayaraq qulağına adını pıçıldayıb yuxudan ayıltmağa çalışdı.

- Çirkin,oyan,çatdıq
- Hə? Nə? Hə,çatdıq?

Orxanı yenə gülmək tutdu. İlk dəfə idi ki,onun yatan və oyanan zaman necə olduğunu görmüşdü. Və hər iki vəziyyətdə də Orxan bir daha əmin olurdu ki,həyatının sonuna qədər hər gün bu mənzərəni görmək üçün hər şeydən keçməyə dəyər.

- Hə çatdıq,ehtiyatlı düş

Orxan cəld avtomobildən enib Fərəhin endiyi tərəfə keçərək əlindən tutdu. Taksinin pulunu ödəyib yola saldıqdan sonra qapının ağzında gözləyən Fərəhin yanına qayıtdı.

- Yaxşı..Gir içəri,hava soyuqdur
- Sən nə edəcəksən?
- Evə gedib yatacağam,səhər işə getməliyəm

Fərəh  narazı şəkildə dodağını büzüb başını Orxanın sinəsinə söykədi. Orxan onu qucaqlayıb üşümüş qollarını sığalladı.

- Donacaqsan,keç içəri

Fərəh olduğu yerdə dayanıb başını yuxarı qaldıraraq qaşlarını çatdı və Orxanın üzünə baxdı

- Məni başından edirsən?

Orxan onun burnunu sıxıb güldü

- Əlbəttə ki,yox. Sadəcə xəstə olmağını istəmirəm

Fərəh gözlərini qısıb güldü.Və unuda bilməyəcəkləri bu gözəl gün bir daha yaşanmamaq üzrə tarixə keçdi..

***

- Hə neyləməyi düşünürsən ?
- Nə barədə?
- Əşi Fərəhin ad gününü deyirəm də. Nə etmək istəyirsən ? Nəsə hazırlamısan yoxsa necə ?
- Ağlımda bir şey var,amma əmin deyiləm..
- Nə imiş o, özəl deyilsə?
- Hələ qoy,dəqiqləşdirim ağlımda,sonra deyərəm

- Necə məsləhətdir
- Sən danış görək? Necə gedir işlər? Evli olmaq necə hissdir? Artıq bir həftədir ki,evli adam sayılırsan
- Fərəh yanında olanda özünü necə hiss edirsən?
- Əla..
- Bax,təsəvvür elə o “əla” hiss bütün gün səninlə olur

Orxan biraz fikirə getdi.

- Nə olube sənə? Bu gün nə isə bir təhərsən
- Ağlımda bir iki şey var,onları düşünürəm.Belə başqa narahatçılıq yoxdu
- Mənə bax,bir gün danışın,qərarlaşdırın çıxaq bir yerə.
- Mənim gözüm üstə,Fərəhə deyim görüm nə vaxt evdən çıxa bilər,zəngləşərik
- Mənə bax,bu işi də daha yoluna qoymaq lazımdır. Fərəhlə səni deyirəm. Qız hər gün səninlə gedir gəlir.Qonum qonşusu söz çıxardar,qızın başını ağrıdarlar.Bir qərar ver səndə,bu işin adını qoyaq. Anasının da içi rahat olsun,baxma,sənə bir söz deməsə də Fərəhə deyər haqlı olaraq.

Orxan başı ilə təsdiqlədi.

- Yaxşı,mən dönüm evə səhər işdə danışarıq.
- Oldu,qardaş,hələlik.Şəhlaya salam deyərsən
- Oldu,hələlik

Qaranlıq küçə, yağan narın yağışla rahatlıq tapırdı. Orxan yolun qırağındaki səkidə oturub qollarını dizlərinə söykəyərək oturdu. Üzünü yuxarı qaldırıb yağışın onu islatmasına icazə verdi..

***

- Ay Fərəh,Fərəh..
- Hə ana?
- Bura gəl görüm

Fərəh kitabını qatlayıb içəri otaqdan qonaq otağına gəldi

- Hə..Nə olub?
- Mən divanın üstünü qaldıracağam,altdan keçən dəfə ora qoyduğum qalın xalatımı bir də Yusifin əyninə balaca olan kostyumunu çıxar
- Neyləyirsən ki,onları?
- Sən dediyimi et,deyəcəm

- Yaxşı,gözlə görüm
- Ay qız tez ol,belim ağrıdı
- Bir dəqiqə..Hə,vəssalam,götürdüm
- Hə,indi get içəridən bir salafan gətir bunları qoyum içinə
- Neynirsən axı bunları?
- İşlədiyim yerdə Səltənət xala yoxdu,o qoca arvad? Ona aparacağam,nəvələrinə verər kostyumu,xalatı da özü geyinər,yazıqdı
- Pisinə gəlməz bəs belə?
- Yox əşi,sevinər yazıq arvad
- Hə..
- Orxan nə edir? Necədi aranız?

Fərəh belə bir sualın gələcəyini gözləmədiyi üçün təəccübləndi.

- Yaxşı..

Məlahət xala qızının bu mövzuda ondan çəkindiyini hiss edirdi,güvənini qazanmaq üçün biraz söhbət etməyə çalışdı..

- Bir dəfə kəndə “O olmasın bu olsun” filmini gətirmişdilər. O vaxt kinolar indiki kimi deyildi e, ayda ildə bir dəfə gəlirdi,kənddə də televizor saysan bir iki nəfərin evində olardı. Kino gəldiyini eşidən kimi hamı yığışardı həmin adamın evinə.Nə isə elə günlərdən biri idi,mən də eşitmişdim ki,kino gəlib,cammat axşam yığışacaq bir yerə.Bir yer dediyim də atangilin evi idi. Demək olar qonşu idik onlarla,aramızda bir iki ev var idi. Həmin gün bərk xəstələnmişdim,qızdırmam qalxmışdı,rəhmətlik anam umac içirib uzatmışdı yerimə məni..Gözüm açılmırdı. Atan da camaatın arasında məni axtarıb görüb yoxam. Gecə-gecə qaçıb gəlmişdi bizə ,anama yalvarmışdı ki,bəs,qoy Məlahət də gəlsin baxsın kinoya. Atanı görən kimi tez durmuşdum ayağa. Halım özümlə deyildi amma uşaq ağlı da,durdum özümü düzəltdim ki,yaxşıyam ana,gedirəm.Anam yazıq,narazı olsa da qıya bilmədi.O qədər yaxşı,ürəyi yumşaq arvad idi ki..Hə..Əlimdən tutub qaça-qaça apardı evlərinə,baxdıq kinoya. Ehh..Vicdansız çox tez tək qoydu məni..

Fərəh anasının danışdığı söhbətə əvvəl gülsə də son dediyi cümlə qəlbini qırdı. Anasının yanına gedib qucaqlayıb öpdü.

- Allah səni xoşbəxt eləsin ,ay Fərəh. Deyirlər, qız anasının bəxtini yaşayar. Allah iraq eləsin,Allah səni bütün pisliklərdən qorusun. Kimlə olursan ol,təki səni qorusun,sevməsə də,həmişə hörmət eləsin,sahib

çıxsın..

- Sevməyəndən sonra neynirəm yanımda olmağını?
- Ehh,ay bala,hələ uşaqsan,elə bilirsən varsa yoxsa sevgidi..Nə isə,gedim səhər üçün yemək hazırlayım. Qoyacağam soyuducuya yeməyi,acanda isidib qardaşına da verərsən,özün də yeyərsən.
- Yaxşı..

Fərəh otağına qayıtdı. Pəncərədən çölə,yağan yağışa baxıb gülümsədi. Pərdəni örtmək istəyərkən gözü yolun qarşı tərəfində səkidə yağışın altında oturan Orxana sataşdı. Telefonunu götürüb ona zəng etdi.

- Orada nə edirsən?
- Heç..Səni görmək istədim
- Dəli olmusan? Get evə,xəstələnəcəksən bu soyuqda
- Heçnə olmaz,narahat olma

Fərəh telefonu söndürüb otaqdan çıxdı.

- Ana,mən indi mağazadan dəftər alıb gəlirəm
- Hara gedirsən bu qaranlıqda,səhər alarsan
- Yox,yox,dərs yazmalıyam,iki dəqiqəyə gələcəyəm
- Papağını başına qoy,tez gəl ha!
- Yaxşı,yaxşı

Qapını bağlayıb sağa sola baxaraq qarşı yola,Orxanın yanına gəldi.

- Nə işin var burda,sən Allah? Doğurdan da dəli olmusan deyəsən?

Orxan  Fərəhin əlindən tutub yolun ortasına çəkdi.Əlini yuxarı qaldırıb rəqs edirmiş kimi Fərəhi  fırlatdı.

- Eləmə,qonşular görəcək indi!
- Nədən qorxursan?
- Qorxmuram! Sadəcə..
- Sadəcə nə?

Orxan Fərəhə bir az da yaxınlaşıb papağını çıxararaq saçlarını qarışdırdı. Fərəhi gülmək tutdu.Papağını almaq üçün Orxanın əlinə tərəf uzansa da yenə boyu çatmadı.

- Papağımı ver!
- Versəm evə qaçacaqsan axı?
- Bütün gecəni burda qalmaq fikirin var?
- Etiraz etməzdim

Yağış get-gedə sürətini artırırdı.Fərəhin üşüdüyünü titrəyən dodaqlarından hiss edən Orxan papağını başına taxıb ovucundan öpdü.

- Yaxşı,get evə daha,səhərə qədər bir təhər səbr edərəm
- Nə olacaq ki,səhər?
- Gir evə

Fərəh Orxanın üzünə baxıb gülümsədi

- Yaxşı,gecən xeyrə qalsın
- Gecəm sənə qalsın..

Əlləri yavaşca bir-birindən ayrıldı.Fərəh təxmin edirdi ki,Orxan doğum günü üçün ona nə isə xüsusi bir şey hazırlayır,amma nə olduğu ilə bağlı ağlına heçnə gəlmirdi.

- Ad günün mübarəəək!!!

Səhəri gün Yusif özünü Fərəhin yatağının üstünə atıb onu qucaqladı.

- Qalx,qalx,qalx!!

Fərəh gözünün birini açıb onu qucaqlayan balaca qardaşına baxaraq gülümsədi.

- Heyy,hörümçək adam,nə olub yenə? Niyə hoppanırsan?
- Ad günün mübarək!

Yusif əlində tutduğu kağızı bacısına uzatdı. Fərəh şübhəli-şübhəli Yusifə baxıb kağızı açmağa başladı. Kağızın içində rəngli karandaşlarla balaca bir ürək şəkli,ürəyin içərisində Fərəhin adı və qıraq hissədə də “ad günün mübarək” yazısı yazılmışdı. Fərəh əlini ürəyinin üzərinə qoyub qardaşına baxdı.Yusifi möhkəm qucaqlayıb üz gözündən öpdükdən sonra qarnını qıdıqlayıb onunla bərabər möhkəm gülməyə başladı. Paltarını geyinib mətbəxə keçdi. Soyuducunun qapısını açıb Yusifin içməsi üçün süd götürmək istəyəndə anasının dünən gizlicə hazırladığı kiçik tortu gördü. Fərəh çiyələyi çox sevdiyi üçün Məlahət xala marketə gedib baha qiymətə bir miqdar çiyələk alıb hazırladığı torun üzərinə düzmüşdü.Fərəh gözünün yaşını saxlaya bilmədi.Bu qədər iş gücün,yorğunluğun arasında üzü gülsün deyə qızı üçün əlindən gələn qədər çalışmışdı.Bu günü özü üçün tətil elan etmişdi Fərəh. Universitetə getməyəcək,kaloriləri hesablamadan istədiyi qədər yemək yeyəcək,Orxanla gəzəcək və qalan bütün vaxtları yatağı ilə keçirəcəkdi.Yusifə içməsi üçün südünü verdikdən sonra hazırlaşmaq üçün otağına keçdi. Gözəl görünmək üçün əlindən gələni etməli idi ki,Orxan gözünü ondan bir an belə çəkə bilməsin. Əslində o heçnə etməsə də vəziyyət dəyişmir,birlikdə olduqları zaman Orxanın gözü ondan

başqa heçnə görmürdü.Amma yenə də,bu gün əlamətdar gün idi və hər şey daha fərqli olmalı idi.Yatağını yığışdırıb əlinə aldığı bir neçə paltar ilə aynanın qarşısına keçdi. Və birdən bütün paltarlarını yerə atıb aynaya daha çox yaxınlaşdı. “Zibil!” deyib barmaqları ilə dövrəyə aldığı sızanağa baxdı. “Əla!Bir sən çatışmırdın!”. Qızların həyatında bir neçə yazılmamış qanun var ki,bu qanunlar hər zaman aid olduqları vaxtlarda tam yerlərində olur. Məsələn, gözəllik salonunda harasa hazırlandıqları zaman istədikləri modeli,tərzi heç zaman başa sala bilmirlər, xoşuları gələn birini görən zaman mütləq nə isə olur (ayaqları büdrəyir,paltarla bağlı problem çıxır və.s) və onlar çox bərk utanırlar ya da ən qorxulu yuxu gerçəkləşir ! “Görüş günü üzdə çıxan SIZANAQ!” . Amma bir məsələ də var ki,qızlar üçün bir çox problemin çarəsi mövcuddur. Məsələn eyni problem kişidə yaransa onlar məcburdur ki,bu “qüsurla” günə davam etsinlər,amma qızlar.. “Tanrım,kosmetikanı qoru!”

***

Ön ayaqlarını hər zaman çəp atırdı Kürən. Bu da ona ayrı bir şirinlik bəxş edirdi. Böyümüş qarnı və uzanmış bədən tükləri ilə o qədər sevimli görsənirdi ki,elə bil hansısa çizgi filmindən qaçıb gerçək həyata qatılmışdı.Orxanın hazırlayıb hər zamanki yerə,soyuducunun önünə qoyduğu yeməyini görüb sürətini artırdı.Bu günün çoxunu tək keçirəcəkdi. Əyləncəli nələrsə tapmaq lazım idi.

Orxan işdən tez çıxmışdı bu gün.Bu aralar icazələrinin sayı artdığı üçün müdirin yavaş-yavaş qaşlarının çatıldığını hiss etsə də başqa şansı yox idi. Düzü bu gün hətta işdən çıxarılsa belə vecinə olmazdı. Təngnəsəf olmuşdu. Ordan-ora qaçıb axşam üçün bütün hər şeyi çatdırmalı idi.

Fərəh səhər açılandan telefonuna baxırdı. Nə bir mesaj var idi Orxandan, nə də bir zəng. Normal hal deyildi. Adi vaxtlarda belə səhəri onun mesajı ilə açan biri üçün isə heç normal deyildi.Fərəh narahat olmağa başlamışdı. Yenə adiyyatı olmayan fikirlər ilə beynini doldurur,yüz cürə ssenari yazırdı. Dayana bilməyib zəng etməyə qərar verdi.

- Alo?
- Ooo,çirkin zəng edib. Necəsən günün qəhrəmanı?

Fərəhin ürəyi az da olsa rahatlaşdı. Ən azından unutmamışdı.

- Yaxşıyam yaxşı,sən necəsən əsas? Səs sorağın çıxmır.
- Bağışla, işlərim çoxdur bu gün. Ad günün mübarək.Vaxt tapmadım zəng etməyə. İnciməmisən ki ?

- Yox,eybi yox..Niyə inciyim ki ? Çox sağol..
- İndi məni bağışla,işlərim var. Sonra danışarıq. Sən də günün dadını çıxart,əylən özün üçün,yaxşı? Hələlik..
- Hələlik..

Fərəh telefonu söndürüb çaşqın-çaşqın ekrana baxdı. Bu nə idi indi? Yəni,həqiqətən vecinə deyildi? “Bəlkə də mən çox böyütdüm”- deyə düşündü...Doğum günüdür nəticədə..Neynəməli idi ki? Hamı öz işində gücündə..Balaca uşaq kimi küsgün ifadə çökdü üzünə.Geyinəcəyini qərarlaşdırdığı paltarını,ayaqqabısını yerinə qaytarıb mətbəxə getdi. Anasının hazırladığı tortu götürüb kəsdi. Bir parça Yusifə,bir parça özünə. Yusif yeməyini yeni yediyi üçün tort istəmədiyini deyib otağına oyun oynamağa getdi. Fərəh divanda təkcə oturub televizora baxa-baxa tortdan qopardığı böyük loxmaları yeməyə çalışdı. Amma ağzını əsəbdən  o qədər doldurmuşdu ki,çeynəməkdə çətinlik çəkirdi.Divanda uzanıb qardaşının bayaq izlədiyi çizgi filminə baxmaq istədi. Gözləri televizorda olsa da fikrinin orda olmadığına and içəmək olardı..Saatlar keçmək bilmirdi,İlahi,necə gözəl doğum günüdür..Axşamüstü divanın üzərində huşa getmiş Fərəhi telefon zəngi səksəndirdi. Özünə gəlməyə çalışıb səs gələn tərəfə doğru ora-bura dəyə-dəyə irəlilədi.

- Alo..
- Hazırsan?

Yuxulu gözləri birdən açıldı

- N-nə? Nəyə hazıram?
- Çirkiin,gəlirəm sizə,tez hazırlaş,bir yerə gedəcəyik.
- Amma anama de..

Orxan Fərəhin sözünü tamamlamağını gözləmədən telefonu söndürdü.Fərəh başını qaşıyaraq olduğu yerdə bir neçə saniyə dayanıb otağına getdi.

Əslində kişilər hər zaman qadınların nə qədər gec hazırlandıqlarından şikayət etsələr də bilmədikləri bir şey var;son anda hazırlanmağa qərar verən qadındaki sürət. Və işin maraqlı tərəfi budur ki,sürətlə hazırlandığın zaman ortaya çıxan nəticə günlərlə davam edən hazırlıqların  nəticəsindən daha gözəl və ürəyincə olur.

Fərəh evdən çıxmazdan əvvəl anasının iş yerinə zəng edib xəbər verdi. Anası ağızucu razılıq versə də içdən-içə hər zaman Orxana güvənirdi. Qapını açdığı zaman qarşısında Orxanı görüb bir addım arxaya getdi.

- Vov! Çox gözəl olmusan..

Fərəh gülümsəyib heçnə demədən çiyinlərini dartdı.

- Hazırsan? Gedə bilərik?
- Deyəsən..

Yolda Orxan Fərəhdən gününün necə keçdiyini soruşub üzündəki qəribə kədərin səbəbi ilə maraqlandı.

- Sən bütün gün haralarda idin? Zəng yox,mesaj yox..
- Biraz əvvəl mənim üçün darıxdığını dedin?
- Mən elə söz demədim
- Dedin,dedin..
- Sadəcə narahat oldum. Birdən-birə belə ortalıqdan itməzdin.
- Ən azından haqqımda düşünmüsən,buna da şükür
- Iıığ! Bəlkə cavab verəsən?!

Orxan Fərəhin burnunu astaca sıxıb gülümsədi.

- Səbrin olsun da biraz.Qoca nənələr kimi nə qədər sual verirsən?

Fərəh qaşlarını çatıb əvvəlcə Orxanın üzünə sonra da taksinin pəncərəsindən çölə baxdı.

- Hə,çatdıq,gəl..

Orxan maşından birinci düşüb Fərəhin çıxması üçün əlini uzatdı.Çox gözəl bir restoranın qarşısında dayandılar. Orxan əlini qabağa uzadıb Fərəhi içəri dəvət etmək üçün sözə başladı:

- Madam Çirkin?
- Nə? Bura ? Axı bura çox bahalıdır.Orxan.ehtiyac yoxdur.gəl başqa yerə ged..

Orxan Fərəhin sözünü yarıda kəsib gözlərini çevirdi, əlindən tutub qapıdan içəri tərəf dartdı.

- Xoş gəlmisiniz!
- Təşəkkürlər,biz hara keçək?
- Mənimlə gəlin,zəhmət olmasa

Restoranın içi qədim dövrlərə xas görüntü ilə dizayn edilmişdi. İşçilərin geyimləri də dizayna uyğun tərzdə seçilmişdi. Canlı musiqi,dənizə açılan mənzərə və masaların üzərindəki zərif aksesuarlar  insanı tamam fərqli zaman diliminə sürükləyirdi. Fərəh həyatında ilk dəfə idi ki,belə bahalı restoranda şam yeməyinə gəlmişdi.Hər zaman filmlərdə gördüyü səhnələri öz həyatında

yaşayırdı.

- Gərək bura gələcəyimizi deyərdin,mən də ona uyğun geyinərdim. Belə restorana  cins şalvarla gələn ilk geridə qalmış “mal”  olaraq tarixə keçdim,afərin sənə
- Şşşt! Çirkinsən amma mal da deyilsən yəni,o qədər də yox..

Fərəh Orxanın sözlərini eşidib üzərindəki gərginliyi unudaraq gülməyə başladı.

- Çox rahatladım,əla təsəlli oldu,minnətdaram!
- Hə,de görək,nə yemək istəyirsən?

Fərəh qarşısındaki menyuya baxıb bir-birindən qarışıq yemək adlarını oxumağa çalışırdı.

- Sən bura daha əvvəl gəlmisən?
- Hə,lap çoxdan,dostlarımla gəlmişdim.
- Mmm,onda burada olan yeməklərdən hansı yaxşıdırsa özün sifariş ver mənim əvəzimdən də. Çin dilində yazılıb elə bil hamısı..

Orxan yenə güldü.

- Bizə zəhmət olmasa “Spaghetti all’arrabbiata con frattaglie di maiale” gətirin.

Fərəhə doğru əyilib

- İçki olaraq nə istəyirsən?
- Meyvə suyu,vişnə

Orxan başı ilə təsdiqlədi

- Zəhmət olmasa yanında da bir su,bir də vişnə suyu

Fərəh təəccüb içində Orxanın üzünə zilləmişdi

- Nə olub? Niyə elə baxırsan?
- Bayaqki cümləni necə bir nəfəsə deyə bildiyini fikirləşirəm
- Yemək adını? Nə varki bunda? “Spaghetti all’arrabbiata con frattaglie di maiale”
- İlahi..Dadı necədi barı?
- Pis deyil,görək bəyənəcəksənmi? Bura atamın köhnə dostlarından birinindir.Həyat yoldaşı ilə birlikdə işlədirdilər buranı. Sonra qadın yüksək təzyiqdən dünyasını dəyişdi.Kişi çox pis vəziyyətə qaldı. Uzun müddət buranın qapısını açmadı. Atamla əvvəllər belə yerlərə o qədər getmişdik ki, ən çətin yemək adları da asan gəlirdi.Atam bura yeməyə

görə yox buradaki canlı müsiqiyə görə gələrdi. Piano arxasına keçib özü də mahnı oxuyardı.

Orxan dərindən nəfəs alıb başını buladı.Fərəh onun əllərini tutub heçnə demədən gülümsədi.

- Buyurun

Yeməklərin gəldiyini görüb özlərini biraz geri çəkdilər. Fərəhi gülmək tutdu.

- Nə oldu?
- Heç..Heçnə
- Yaxşı da,de görək..
- Bu yemək adi makarondur axı,sadəcə biraz tomat pastası və ədviyyatla qarışdırılıb. Yəni buna o uzunluqda ad verib camaatı çin işgəncəsinə salmağın nə mənası var?
- Dadı çox fərqlidir amma,adi makaron kimi deyil.

Fərəh çəngəli boşqabın içərisinə salıb fırlayaraq makaronları tutmağa çalışdı.

- Mmm..Biraz..Dadı qəşəngdir amma adının qısaldılması ilə bağlı fikrimin arxasındayam!

Makaronlar sürüşdüyü üçün yemək zamanı çəkdikləri əziyyətə,üz ifadələrinə baxıb yüksək səslə gülürdülər. Səsləri salondaki digər qonaqların diqqətini çəksə də onlar bunun fərqinə varmırdılar.

- Rafael dayı,çox təşəkkür edirəm,hər şey üçün.İnşallah görüşərik yenə.
- O nə sözdür? Təşəkkürə ehtiyac yoxdur,bura sənindir,istədiyin vaxt Fərəh qızımı da götür,gəl!
- Çox sağolun,Allah razı olsun..
- Qızım,bir daha şad oldum,bir-birinizə əmanət olun.
- Çox sağolun..

Restorandan çıxarkən Orxan Fərəhin paltosunu geyinməsinə kömək edib papağını taxdı.Qaranlıq düşdüyü üçün şəhər sarı işıqların arasında daha doğma görsənirdi.Əl-ələ tutub bütün küçə boyu yeriməyə başladılar. Yolun bir tərəfi geyim və ətir mağazaları ilə dolu idi.

- İndi gözlərini bağlamalıyam
- Nə? Necə yəni? Niyə ki?
- Az qaldı,bir azdan görəcəksən..

Orxan əlləri ilə Fərəhin gözünü arxadan tutdu.

- Yavaş-yavaş yeriməyə başla.

- Yaxşı..
- Biraz da..Azca da..Hə! indi dayan,sağa dön,bax belə. Mən deyənə qədər açma gözünü yaxşı?
- Yaxşıı..

Orxan bir əlini çəkib digər əli ilə Fərəhin iki gözünü də bağlamağa çalışdı. Digər əlini pencəyinin cibinə atıb balaca bir qutu çıxardı. Bu,anasından yadigar qalan yeganə üzük idi. Anası Tamara xala dünyasını dəyişərkən vəsiyyət etmişdi ki,bu üzüyü vaxtı gələndə  həqiqətən sevəcəyi,ailəsi olaraq görüb sığına biləcəyi qıza bağışlasın. Bir təhər qutunun ağzını açıb əlində saxladı. Digər əlini aşağı salıb arxadan Fərəhin qulağına pıçıldadı

- Gözlərini aç..

Fərəh gözlərini açarkən ilk olaraq vitrinin üzrində yazılmış “ ən gözəl Çirkinə..” yazısını,daha sonra isə yazının arxasındaki ağ işıqlar altında parıldayan gəlinlik donunu gördü.Bir anlıq başa düşmədi ki,bu nə deməkdir. Həqiqətən düşündüyü şeydir yoxsa sadəcə bir yuxu? Orxan arxadan qolunu irəli uzadıb açıq üzük qutusunu onun gözü onundə tutdu. Asta səslə:

- Hə,çirkin,mənə bir neçə il daha dözə bilərsən?

Fərəh yaşla dolmuş gözlərini əlinin tərsi ilə sildi. Xoşbəxtlikdən ağlamağın nə demək olduğunu ilk dəfə bu gün kəşf etmişdi.Üzünü Orxana tərəf çevirmədən dərindən nəfəs alıb soruşdu:

- Təxmini neçə il,məsələn?
- Mmm,çox yox,40-50-cə il

Fərəh başını aşağı salıb güldü.Orxana tərəf çönüb heçnə demədən onu qucaqladı.

- 40 il sonra həqiqətən çirkin olacağam, bəs sən buna dözə biləcəksən?

Orxan gözlərini yumub gülümsədi. Başını Fərəhin boynuna tərəf sıxıb saçlarını qoxlayaraq öpdü.

- Çalışacam..
- Gəl bu anı ölümsüzləşdirək..Şəkil albomumda ilk səhifəyə yerləşdirib altına “həyatımın ən xoşbəxt günü” deyə yazacağam, gələcəkdə nəvələrimizə göstərərik!

Orxan Fərəhin bu cümlələrini eşitdikcə həm çox sevinir, həm də gülüşünü saxlaya bilmirdi.

- Biraz aşağı əyil də,yanında görsənmirəm!

Bu cümlədən sonra Orxan daha çox gülməyə başladı.Onun güldüyünü  görən

zaman Fərəhi də gülmək tutdu.

- Dayan ,dayan bir dəqiqə özümə gəlim

Fərəh Orxanın ciddiləşməsini gözləmədən qolunu onun boynuna salıb özünə tərəf əyərək şəkillərini çəkdi. Orxan heç vaxt sevmirdi ki,şəkil çəkdirən zaman gülsün. Düşünürdü ki,güldüyü zamanlar onun ən eybəcər göründüyü zamanlardı. Amma həqiqət tamam fərqli idi. Yanağındaki qəmzəsi,səliqə ilə düzülmüş dişləri və gülən zaman ensizləşən gözləri onu normal halından ikiqat daha yaraşıqlı edirdi.

- Onu sil,birini daha çəkdirək. Yaxşı,daha gülməyəcəm,söz verirəm.
- Vallah əladır bu,çox sevdim,bu qalsın.
- Fərəh yaxşı da,bilirsən ki,sevmirəm o cür.Gəl yenidən..

Fərəh qollarını arxada tutub Orxanın telefonu almasına mane olmağa çalışırdı. Orxan nə qədər ciddi görünməyə çalışsa da qəlbində hiss etdiyi xoşbəxtlik buna icazə vermirdi.Fərəh bu oyunu sevmişdi. Orxanın üzərinə gəldiyini görüb ondan qaçmağa başladı.

- Şəkil çox gözəldir, o ayrı, amma yadındadırsa belə bir vəziyyəti daha əvvəl də yaşamışdıq. Onda da sən şəkli mənə verməmişdin. Qisasa qisas!
- Yaxşı,evə gedəndə qaytaracağam şəkli,amma onu sil
- Aha..Özümü elə aparacam ki, güya bu sözünə inanmışam..

Fərəh telefonu əlində yelləyərək gülə-gülə yolun digər tərəfinə keçdi.Orxan sağa-sola baxmadan onun arxasınca gedib yolun ortasında “Çirkiinn” deyə səsləndi..Və o an..

Bir anlıq sanki bütün dünyaya qəribə bir səssizlik çökdü. Fərəh nə olduğunu anlamadan cəld arxaya çönüb çaşqın gözlərlə ətrafa baxdı..İnsanların gözlərindəki qorxu və çaşqınlıq ətrafdaki bütün hərəkəti dayandırmışdı. Ön hissəsi digər avtomobillə toqquşan “BMW” markalı avtomobilin arxa təkərləri hələ də hərəkət edir,boğunuq səs çıxarırdı. Sürücü huşunu itirmiş, başı sükan arxasında siqnalın düz üzərinə söykənmişdi. Bu səbəblə bütün ətrafı kəsilmək bilməyən siqnal səsi bürümüşdü. Şüşələri cilik-cilik olmuş maşının kiçik kristal hissələri bəyaz,parlaq parçalardan toxunulmuş xalını xatırladırdı. Fərəh istədi önə doğru bir addım ata amma dizləri sözünə baxmadı. Ətrafdan yavaş-yavaş “təcili yardıma zən edin!”, “nömrə neçə idi?!”, “lənət olsun!”, “aralı durun,tünlük yaratmayın” səsləri eşidilirdi. Tinlərdə dayanıb nə olub bittiyini anlamağa çalışan dağınıq saçlı,köhnə paltarlar içərisində olan bir neçə avara, polis maşınının səsini eşidər eşitməz qorxu ilə hadisə yerindən uzaqlaşdılar.

Yerdə yatan adam doğma olsa da Fərəh içindən bir anlıq keçirdi ki,kaş yolun ortasında hərəkətsiz halda uzanan adam bir başqasının yaxını olardı..

***

Fərəh atası ilə dərdləşib qucaqlaşdıqdan sonra ayağa qalxdı..Məzarın ətrafını basmış artıq otları təmizləyib gülləri suladı.Getməli idi artıq,amma onu saxlayan bir səbəb var idi..Bir səbəb daha..Biraz irəli gedib Orxanın yanında əyləşdi.

- Nədi? Niyə elə baxırsan? .. Niyə cavab vermirsən axı?

Fərəhin ağladığını görən qarovulçu uzaqdan ürək ağrısı ilə baxıb başını yelləyə-yelləyə uzaqlaşdı.Fərəh burnunu çəkərək dərindən nəfəs aldı:

- Ey,yaxşı yadıma düşdü,dünən bir məktub yazdım,bilmirəm bəyənəcəksən ya yox.Sən daha peşəkarsan axı bu işdə,mən ilk dəfə idi yazırdım,nəzərə al yəni..İstəyirsən oxuyum? Hə,hə,oxuyum..Görək nə deyəcəksən?

Fərəh qəhərini boğaraq udqundu. Zorla gülümsəməyə çalışıb cibindəki məktubu çıxardı.

- Başlayıram aa..

“ Düz gözümün qarşısında səninlə sonuncu dəfə çəkdirdiyimiz şəkil var, sən bəyənmirsən amma burada həqiqətən çox şirin görsənirsən.Bəlkə bunu yüzüncü dəfədir deyirəm,amma həmin günü heç vaxt unutmayacağam,heç vaxt! Getdiyimiz restoran..Yediyimiz o qəribə adlı makaron..Gözümün qarşısında parıldayan gəlinlik və qulağımda sənin səsin..Və var olduğu hər günə lənət oxuduğum o yüksək sürətli avtomobil..”Çirkin” ləqəbi ilk dəfə idi ki,bu qədər gözəl səslənirdi..Darıxıram sənsiz..Və səni görmədiyim hər saniyə bu hiss bir qram artır.Saatları sayıram..dəqiqələri..günləri..Amma yoxsan..”

Fərəh cümlənin sonunda gözlərini yumub bulanıq görməsinə səbəb olan göz yaşlarını yola saldı..Ağrılı təbəssümlə məzara baxıb əli ilə torpağı sığalladı. Səsini təmizləyərək davam etməyə çalışdı..

“Necə yəni yoxsan? Bu necə mümkün ola bilər axı? Axmaqlıqdır,sadəcə dəlilikdir!.. Hər zəng etdiyim zaman sona qədər gözləyirəm ki,bu dəqiqə cavab verəcəksən..Elə indicə,lap axıra yaxın telefonun digər ucundan səsin gələcək..Amma gəlmir,zibilə qalsın!! Səni son dəfə qollarımın arasından çəkib aldıqları zaman üzündəki o gülüşü necə unudum ? Gözlərindəki işığın sönüşünü gördüm mən,Orxan..Üzündəki ifadənin necə birdən-birə donduğunu,gedən nəfəsinin qayıtmadığını..Əllərinin soyuduğunu və gözlərinin artıq

tərpənmədiyini..Son dəfə güclə gülümsəyərək “çirkin” dediyin zaman gözündən axan yaşı gördüm..Nəbzini yoxladıqdan sonra gözlərini bağladıqlarını..Və üzərinə necə torpaq atdıqlarını..Səni ordan çəkib çıxara bilmədim.. Mən çalışdım..Mən yalvardım,mən ağladım.Zarafat etdiyini,bunun bir oyun olduğunu dedim, amma inanmadılar..Yalvarıram,qalx gedək..Orada necə qala bilirsən axı?! “

Fərəh kağızı əzib hönkürməyə başladı.Məktubu qucağına qoyub əlləri ilə üzünü sildi..Amma göz yaşlarını sildikcə daha çox kövrəlir,bütün bunların gerçək olduğuna inanmaq istəmirdi..

“Mən hələ sənə səni sevdiyimi belə deməmişdim axı..” Fərəh məzara doğru əyilib pıçıldadı..Qamətini düzəldib məktubu yenidən əlinə aldı..

“Biz səninlə heç vaxt ayrılmayacağıq.Uzaq məsafələr həmişə ulduzların yanında aciz qalacaq.Həyat səni məndən nə qədər uzağa atsa,hər gecə eyni ulduzların altında səninlə görüşəcəyik..”  Bunu bilərək demişdin,hə? Yadımda qalsın deyə..Niyə bu qədər sevmişdin axı o filmi,niyə?! İnanmaq istəyirəm ki,bu həqiqətdir..O ulduzların arasından mənə baxıb gülümsəyirsən..Mən həqiqətən çalışıram..Çalışıram amma alınmır, içimdəki bu istək ,bu lənətə gəlmiş darıxma hissi daha çox incidir,daha çox batır sinəmə.. Müşfiq evindən sənə aldığım kitabı götürüb,bir də o heç sevmədiyim şəklimizi.. Masamın üzərindədir ikisi də,görürsən? Hə..Əlbəttə görürsən..Bəlkə də indi düz yanımda oturub bu səliqəsiz xəttimə baxıb gülürsən,hə? Kitabını oxuyuram hər gecə..Və hər gecə bir yerdə ilişib qalıram.. “Sayılı günlər içərisində mənə bir sonsuzluq yaşatdın və bu sonsuzluq üçün sənə minnətdaram..” Yadına gəlir? Bəlkə də təsadüfi deyildi bütün bunlar.Boş yerə sevməmişdin bu filmi..Yaxşılar çox yaşamırdı,bilirəm,amma sən lap çox tələsdin elə bil..Hə,unutmadan deyim,Kürən daha yaxşıdır bu gün..Deyəsən biraz vərdiş etməyə başlayıb..Səni çox axtardı,qapımızın önündən ayrılmadı,istəyirdi çıxıb getsin sənin yanına..Ya da gözləyirdi ki,sən gələcəksən və istəyirdi gələn kimi onu hazır görəsən..Yemək yemədi,tez-tez gözdən itdi, divar künclərinə sıxılıb qaldı,ona zərər verəcəyimizdən qorxurdu sanki. Günün birində bir pişiyə baxıb səni xatırlayacağım ağlıma gəlməzdi.”

Fərəh gözlərini yumub gülümsədi..

“Əlimə keçən bütün kitabları oxumağa başlamışam.Səni anlamağa çalışıram,sənə yaxınlaşmağa..Kitablarda nə gördüyünə və həmin səhifələrdən

yığdığın dünyanda nələr gizlətdiyinə baxmaq istəyirəm.Camal Sürəyya yazıb ki,”Səni soruşanlara nə cavab verim? Deyim ki,ölmüsən ya çıxıb getmisən? Amma ikisi də mümkünsüzdür,hə? Çünki bilirəm,heç vaxt geri dönməyəcəksən..Və bilirsən ki,mənim üçün heç vaxt ölməyəcəksən..” Hamı bizi nəzərdə tuturmuş elə bil.Nə oxusam,nə dinləsəm ağlımda sən..

Səni hər zaman gözləyəcəyəm.İçimdəki bu ümid heç vaxt  bitməyəcək..Həmişə inanmağa davam edəcəyəm ki,bir gün bu qapı yenə döyüləcək və sən üzündəki saf çaşqınlıqla qapını kimin açacağından ehtiyat edərək həyəcanla gözləyəcəksən..Və günlərdir baxmağa cəsarət etmədiyim bu kiçik qutunu açıb içindəki üzüyü yenidən mənə uzadacaqsan..Səni sevirəm, canımın içi..Yarım qalanım,səni sevirəm..”

- Qaşlarını niyə çatmısan? Hə..Bilirəm,deyəcəksən ki,məni ağlayarkən görmək istəmirsən və mən bu halımla daha da çirkin görsənirəm..

Fərəh dərindən nəfəs alıb gülümsədi.Məzar daşına tərəf yaxınlaşıb buz kimi mərmərin üzərindəki ən isti ada toxundu..Məktubunu üzünə yaxınlaşdırıb kağızı həsrətlə öpdü və hər gün yazıb gətirdiyi digər məktubların yanına qoyaraq gözdən itdi..